RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN




№ 264 (9431) 3 DEKABR 2023-cü il BAZAR | AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI | QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

# Azərbaycan-Birləşmiş Ərəb Əmirlikləri münasibətləri yüksələn xətlə inkişaf edir

◆ Azərbaycan Prezidenti İlham Əliyevin Birləşmiş Ərəb Əmirliklərinə səfəri



## Prezident İlham Əliyev BƏƏ-nin Milli Günü münasibətilə keçirilən tədbirdə iştirak edib

**Dekabrın 2-də Dubay şəhərində Birləşmiş Ərəb Əmirliklərinin Milli Günü münasibətilə tədbir keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Birləşmiş Ərəb Əmirliklərinin Milli Günü münasibətilə keçirilən tədbirdə iştirak edib.**

## Azərbaycan-Laos dostluq və əməkdaşlıq əlaqələri genişlənir

Laos Xalq Demokratik Respublikasının Prezidenti zati-aliləri cənab Thonqlun Sisulitə

Hörmətli cənab Prezident!

Laos Xalq Demokratik Respublikasının milli bayramı - Respublika Günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi çatdırıram.

İnanıram ki, xalqlarımızın mənafelərinə uyğun olaraq Azərbaycan ilə Laos arasında dostluq və əməkdaşlıq münasibətləri birgə səylərimizlə bundan sonra da genişlənəcək və möhkəmlənəcəkdir.

Belə bir xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost xalqınıza daim əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 noyabr 2023-cü il*

## Zəfər rəmzimiz, qürur ünvanımız

Bakıda Vətən Müharibəsi Memorial Kompleksinin və Zəfər muzeyinin yaradılması qəhrəman döyüşçülərimizin qazandığı əbədi qələbəyə misilsiz töhfədir

Vətən sevdalı Azərbaycan oğulları 2023-cü il sentyabrın 19-20-də cəmi 23 saata suverenliyimizi bərpa etdilər, Xankəndidən, Xocalıdan, Xocavənddən, Ağdərədən, Suqovuşandan "Qarabağ Azərbaycandır" haqq nidasını hayqırdılar...

Xalqımız, dövlətimiz igid döyüşçülərimizin Vətən uğrunda apardıqları Zəfər mübarizəsində göstərdiyi hünəri daim yüksək dəyərləndirir, bu torpaq uğrunda canını qurban verən şəhidlərimizin müqəddəs haqq savaşını sonsuz minnətdarlıq hissi ilə qiymətləndirir.

Vətən sevdalı qəhrəman oğullarımız, Vətən fədailərimiz qürur mənbəyimiz, fəxr ünvanımızdır!

→ 6

## İlham Əliyev söndürülən çıraqlarımızı yandırdı




Düz 31 il düşmən tapdağında inlədi, tar-mar edildi, daşı-divarları söküldü, dağıdıldı. Düşmən elə zənn etdi ki, bu dağlarda yenidən həyat qurmaq müşkül məsələdi.

Amma cəmi 20 ilə Azərbaycanı tarixinin ən qüdrətli möhtəşəm dövlətinə çevirən, düşməni 30 il möhkəmləndiyi torpaqlarımızdan 44 günə qovub çıxaran İlham Əliyev 3 ildə elə xarüqələr yaratdı ki, hətta bu gün ermənilərin özləri də heyranlıqlarını gizlədə bilmirlər.

Nəyi nə zaman etməyi hər kəsdən yaxşı bilən, sözü imzası qədər keçərli olan İlham Əliyev Laçına ilk səfərində demişdi ki, şəhərin bütün infrastrukturu yenidən qurulacaq. Laçın nəinki Azərbaycanın dünya miqyasında ən gözəl şəhərlərindən birinə çevriləcək, çox füsunkar təbiəti - meşələri, dağları, çayları olan bu şəhər cənnətməkan olacaq.

İlham Əliyevin səsləndirdiyi bu fikirlərdən cəmi 1 il sonra çətin dağlıq reylefdə yerləşməsinə baxmayaraq, Laçın şəhəri elə quruldu ki, düşmən baxanda bağrı yarıldı.

İndi dağların qoynunda elə bir Laçın salınıb ki, sanki cənnəti xatırladır, barbar haylara, onların havadarlarına gözdağı verir. Küçələrdə, məhəllələrdə təmir-bərpa, abadlıq-quruculuq işləri gedir. Hər tərəfdə yaşıllıqlar salınıb, yolların kənarlarına dekorativ bitkilər əkilib.

Bir sözlə, Laçında bu gün həyat qaynayır. Şəhər yenidən qurulur, ona yaraşan yeni həyat, yeni nəfəs verilir. Bu mənzərəyə şahidlik etmək insanda ruh yüksəkliyi yaradır.

→ 4

## Qarabağda universitetlərin filialları açılacaq

Yeni layihələr Azərbaycanda elm və təhsilin inkişafına yönəlib

→ 5

## "Ermənistanda qatı millətçi, Qafqazda sabitliyi pozmaq məqsədi daşıyan qüvvələr var"

→ 5

## Ermənistan münasibətlərin normallaşmasına hər vəchlə mane olur

Azərbaycanın həyata keçirdiyi siyasətin əsasında humanizmin və sülhpərvərliyin dayandığının bütün platformalardan dünya ictimaiyyətinə çatdırılması əhəmiyyətli məsələdir

→ 5

## Laçında Şərqi Zəngəzur və Qarabağın ən böyük məscidlərindən biri tikilir

Bu, vəhşilikləri sərhəd bilməyən erməni vandalları ilə fərqimizin müqəddəs abidəsi olacaq

Nə yaxşı ki, işğaldan azad edilmiş ərazilərə həyat yenidən qayıdır. Zəfərdən dərhal sonra Heydər Əliyev Fondu Qarabağ ərazisində olan dini abidələrin, məscidlərin bərpası üzrə layihəyə start verib. Layihə çərçivəsində yerli və xarici mütəxəssislərin iştirakı ilə bölgədəki məscidlər bərpa olunur və yenidən qurulur. Ötən 3 ildə Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva azad Qarabağdakı məscidləri dəfələrlə ziyarət etmiş, bərpa işlərinin gedişi ilə maraqlanmış, lazımi tapşırıqlarını və tövsiyələrini vermişlər.

→ 7

## Qərbin yalan və riyakar çağırışlarına özlərindən başqa kimsə inanmır

Qarabağda separatizmi məhv edəndən sonra da Qərb ölkələri və onların tabeliklərində olan beynəlxalq təşkilatlar Azərbaycana qarşı qərəzli, riyakar və ikili siyasətlərini davam etdirirlər. Görünən odur ki, İkinci Qarabağ müharibəsindən sonra Azərbaycanın tək regionda deyil, bütövlükdə postsovet məkanında genişlənən nüfuzunu Qərb ölkələri həzm edə bilmirlər. Hətta anlamırlar ki, bu yanaşma Avropa İttifaqı kimi nüfuzlu qurumun Azərbaycan və Ermənistanla yekun sülh razılaşmasının əldə olunması istiqamətində təşəbbüslərinə zərbə vurur.

→ 5

## Paşinyan Hayastanı rusiyapərəstlərdən təmizləyir

Göründüyü kimi, Paşinyan anti-Rusiya siyasəti yürüdür və Qərbdən gələn göstərişlər əsasında hərəkət edir. Açıq qeyd olunur ki, Paşinyan Hayastanın ənənəvi strateji müttəfiqi olan Rusiya ilə münasibətləri korlamaq xəttini seçib. Bu fonda Hayastanda Paşinyanı diktator hesab edənlərin sayı durmadan artır. Elə buna görədir ki, hazırda Hayastanda siyasi böhran yaşanır. Ölkədə siyasi repressiyalar güclənib və burada Paşinyanın yeganə məqsədi hakimiyyətini daha da möhkəmləndirməkdir.

Qərb institutlarının Hayastanda baş verən qanunsuzluqlara, siyasi repressiyalara, həbslərə, təqiblərə, polis zorakılığına bir dəfə də olsun münasibət bildirməməsi, hansısa bəyanat səsləndirməməsi onların öz fəaliyyətlərində əsasən ikili standartlara üstünlük verdiyini bir daha aydın göstərir.

→ 5

# Azərbaycanın Baş naziri Birləşmiş Ərəb Əmirliklərinin Vitse-prezidentini təbrik edib

Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov dekabrın 2-də Birləşmiş Ərəb Əmirliklərinin milli bayramı - Müstəqillik Günü münasibətilə Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) Vitse-prezidenti və Baş naziri, Dubayın Əmiri Şeyx Məhəmməd bin Rəşid Əl Maktuma təbrik məktubu ünvanlayıb.



Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, məktubda bildirilir ki, Azərbaycan ilə Birləşmiş Ərəb Əmirlikləri ni qarşılıqlı etimad və dəstəyə əsaslanan dostluq münasibətləri, ortaq dini və mədəni dəyərlər birləşdirir. Bu möhkəm zəmin üzərində qurulan dövlətlərarası əlaqələrin bu gün müvəffəqiyyətlə inkişaf etdiyi qeyd olunur, investisiya, iqtisadi-ticari, bərpaolunan enerji, turizm sahələrində əməkdaşlığın son vaxtlar genişlənməsi xüsusi vurğulanır.

Məktubda həmçinin Azərbaycan-BƏƏ ikitərəfli əlaqələrinin bir çox istiqamətlər üzrə yaxşı perspektivlərinin olduğu qeyd edilərək qarşılıqlı faydalı əməkdaşlığın genişləndirilməsinin bundan sonra da iki ölkənin xalqlarının rifahına töhfələr verəcəyinə əminlik ifadə olunur.

# Çexiya Azərbaycanın səylərini müsbət qiymətləndirir



Milli Məclisin Sədri Sahibə Qafarova Çex Respublikasına rəsmi səfəri çərçivəsində bu ölkənin xarici işlər naziri Yan Lipavski ilə görüşüb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Yan Lipavski ölkələrimiz arasında münasibətlərin yüksək səviyyədə olduğunu bildirərək deyib ki, iki ölkə arasında hər hansı açıq mövzu yoxdur. O, iqtisadiyyat və ticarət sahəsində əməkdaşlığın gücləndirilməsi ilə bağlı fikirlərini ifadə edərək ölkəsinin enerji təchizatında Azərbaycanın mühüm rolunu diqqətə çatdırıb. Vurğulanıb ki, Azərbaycan nefti Çexiyanın istehlakının mühüm hissəsini təşkil edir. Xarici işlər naziri bu sahədə əməkdaşlığı daha da genişləndirmək niyyətlərini bildirib.

Yan Lipavski Çexiyanın beynəlxalq təşkilatlar çərçivəsində də əməkdaşlığın daha da inkişaf etdirilməsi ilə bağlı marağını diqqətə çatdırıb.

Görüşdə Milli Məclisin Sədri ölkələrimiz arasında yüksəksəviyyəli səfərlərin və görüşlərin davam etdirilməsinin vacibliyini vurğulayıb.

Spiker Sahibə Qafarova Azərbaycanda əlverişli investisiya mühitini, işğaldan azad edilmiş ərazilərdə aparılan genişmiqyaslı yenidənqurma işlərini, Azərbaycanın müasir nəqliyyat infrastrukturunu və tranzit ölkə kimi mühüm rolunu, bərpaolunan enerji sahəsində gördüyü işləri diqqətə çatdıraraq ölkələrimiz arasında ikitərəfli iqtisadi əməkdaşlığın daha da inkişaf etdirilməsi üçün geniş imkanların mövcud olduğunu bildirib. Qeyd edib ki, bu əməkdaşlığın daha da inkişaf etdirilməsi, o cümlədən bərpaolunan enerji sahəsində əməkdaşlıqla bağlı da geniş imkanlar mövcuddur.

Görüşdə Milli Məclisin Sədri beynəlxalq münasibətlər sistemində mövcud olan ikili standartları tənqid edərək deyib ki, bəzi dövlətlərə münasibətdə qəbul olunan qərarlar dərhal icra olunduğu halda, bəzən isə beynəlxalq hüquqa məhəl qoyulmadığının şahidi oluruq. O xatırladıb ki, Azərbaycan 30 ilə yaxın Ermənistanın işğalından əziyyət çəkib. Bu işğal nəticəsində bir milyon azərbaycanlı öz doğma yurd-yuvasından didərgin düşüb. Ermənistan işğal altında saxladığı bütün şəhər və rayonlarımızı dağıdıb, talan edib. Başda BMT Təhlükəsizlik Şurası olmaqla, demək olar ki, bütün beynəlxalq təşkilatlar işğal faktının aradan qaldırılması ilə bağlı müxtəlif qərar və qətnamələr qəbul etsələr də, 30 ilə yaxın bir dövrdə bu sənədlər kağız üzərində qalıb. Üç il əvvəl isə Azərbaycan öz gücü hesabına bu qərarların icrasını təmin edərək torpaqlarını işğaldan azad edib.

O, Azərbaycanın hazırda işğaldan azad edilmiş ərazilərində genişmiqyaslı bərpa və quruculuq işləri həyata keçirdiyini qeyd edərək vurğulayıb ki, ölkəmiz sülhpərvər siyasət həyata keçirir. Azərbaycan regionda daimi sülhün təmin olunmasını istəyir. Ona görə də işğala məruz qalmış ölkə olmasına baxmayaraq, məhz Azərbaycan Ermənistana münasibətlərin normallaşdırılması və sülh müqaviləsinin imzalanması ilə bağlı təkliflərini təqdim edib. Sahibə Qafarova regiondakı reallıqları təhrif edən tamamilə qeyri-adekvat və qəbuledilməz bəyanatların sülh sazişinin imzalanması ilə bağlı səylərə kölgə saldığını və xələl gətirdiyini diqqətə çatdırıb. Azərbaycan parlamentinin spikeri sülh sazişinin imzalanması, Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılması prosesində aparılan vasitəçiliyin ədalətli olmasının zərurətini vurğulayıb.

Çexiyanın xarici işlər naziri regionda sabitliyin təmin olunmasında maraqlı olduqlarını, sülh prosesini dəstəklədiklərini bildirib. Qeyd edib ki, Çexiya Azərbaycanın bu istiqamətdə səylərini müsbət qiymətləndirir.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər barədə də fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

# Azərbaycan Çex Respublikası üçün dost ölkədir

**Milli Məclisin Sədri Sahibə Qafarova Çexiya Parlamenti Senatının Sədri Miloş Vıstrçil ilə görüşüb.**




Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, senatın Sədri ölkələrimiz arasında əlaqələrin inkişaf etdirilməsi baxımından parlamentlərarası münasibətlərin önəmini qeyd edib. O deyib ki, münasibətlərimiz funksional və tarazlaşdırılmış münasibətlərdir. Azərbaycan Çex Respublikası üçün dost ölkədir.

Miloş Vıstrçil müasir dövrdə enerji məsələlərinin əhəmiyyətini qeyd edərək Azərbaycanla ölkəsi arasında enerji sahəsində əməkdaşlığı yüksək qiymətləndirdiklərini diqqətə çatdırıb. O, həmçinin ölkələrimiz arasında ticarət dövriyyəsinin artırılması ilə bağlı niyyətlərini də ifadə edib.

Görüşdə Azərbaycanın etibarlı tərəfdaş olduğu, Avropanın neft-qaz tədarükçüsü kimi əhəmiyyətli rolu vurğulanıb. Ölkələrimiz arasında müxtəlif sahələrdə əməkdaşlığın daha da genişləndirilməsi üçün yaxşı imkanların olduğu diqqətə çatdırılıb. O cümlədən Azərbaycan və Çexiya arasında humanitar sahədə əməkdaşlığın əhəmiyyəti də qeyd edilərək vurğulanıb ki, təhsil, elm, mədəniyyət sahələrində əlaqələrin daha da inkişaf etdirilməsi, mədəni tədbirlərin qarşılıqlı əsasda keçirilməsi mühüm əhəmiyyət kəsb edir.

Milli Məclisin Sədri Sahibə Qafarova ölkələrimiz arasında münasibətlərin inkişafında qarşılıqlı səfərlərin və görüşlərin, siyasi məsləhətləşmələrin intensivləşməsinin vacib rol oynadığını qeyd edib. Bu baxımdan dövlət başçılarının qarşılıqlı səfərləri, yüksəksəviyyəli görüşlər əlaqələrin daha da inkişafı baxımından mühüm əhəmiyyət kəsb edir.

Spiker Sahibə Qafarova bu səfərin onun Azərbaycan Milli Məclisinin Sədri kimi Çexiyaya ilk rəsmi səfəri olduğunu xatırladaraq inamını ifadə edib ki, bu səfər ölkələrimiz arasında əlaqələrin daha da möhkəmlənməsinə və genişlənməsinə töhfə verəcək. O, qanunverici orqanlar arasında münasibətlərin dövlətlərimiz və xalqlarımız arasında əlaqələrin inkişafına müsbət təsirini qeyd edib. Spiker deyib ki, parlamentarilərimiz arasında təmasların gücləndirilməsi həm qanunverici orqanlarımızın əməkdaşlığının daha da dərinləşdirilməsinə, həm də iki ölkə ictimaiyyətinə obyektiv məlumatların verilməsinə, ölkələrimiz arasında həqiqətdən uzaq məlumatların yayılmasının qarşısının alınmasına xidmət edər.

Görüşdə spiker Sahibə Qafarova regionda mövcud olan vəziyyət, ölkəmizin bölgədə apardığı bərpa və quruculuq işləri barədə də məlumat verib. Bununla yanaşı, Ermənistanın ölkəmizə qarşı törətdiyi hərbi-siyasi təxribatlar, o cümlədən mina təhdidləri, Azərbaycan tərəfindən cari ilin sentyabr ayında 24 saat ərzində həyata keçirilmiş antiterror tədbirləri, Azərbaycanın münasibətlərin normallaşdırılması, sülh müqaviləsinin imzalanması istiqamətində təşəbbüsləri barədə qarşı tərəf məlumatlandırılıb. Sahibə Qafarova mövcud vəziyyətlə bağlı qəbul edilən qeyri-obyektiv, yanlış informasiyalara əsaslanan qətnamələrin sülh prosesinə zərbə vurduğunu bildirib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər haqqında da fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

# Çexiya Parlamentinin Deputatlar Palatasının Sədri Qarabağdakı antiterror tədbirləri barədə məlumatlandırılıb

Çex Respublikasında rəsmi səfərdə olan Milli Məclisin Sədri Sahibə Qafarova bu ölkə parlamentinin Deputatlar Palatasının Sədri Marketa Pekarova Adamova ilə görüşüb.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, Deputatlar Palatasının Sədri Azərbaycan parlamentinin Sədrinin səfərindən məmnunluqlarını ifadə edərək, qanunverici orqanlarımız arasında yalnız spikerlər səviyyəsində deyil, komitələr, dostluq qrupları səviyyəsində də əməkdaşlığın önəmini vurğulayıb. Həmçinin parlamentlərimizin beynəlxalq təşkilatlar çərçivəsində də qarşılıqlı əməkdaşlığının vacibliyi diqqətə çatdırılıb.

Qeyd olunub ki, Azərbaycan Avropanın mühüm qaz təchizatçısıdır. O cümlədən Azərbaycanın Çexiyanın ikinci neft tədarükçüsü olduğu vurğulanıb. Əlaqələrin enerji, ticarət, iqtisadiyyat sahələrində inkişafı üçün yaxşı imkanların olduğu qeyd edilərək bildirilib ki, tərəflər arasında bərpaolunan enerji sahəsində əməkdaşlıq da vacib istiqamətlərdən biridir.

Görüşdə həmçinin bu il ölkələrimiz arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyinin tamam olduğu, ötən dövr ərzində dövlətlərarası münasibətlərin inkişaf etdiyi diqqətə çatdırılıb.

Milli Məclisin Sədri ölkələrimiz arasında ikitərəfli münasibətlərin inkişafında siyasi təmasların, o cümlədən yüksəksəviyyəli səfərlərin, görüşlərin müstəsna rolunu qeyd edib.

Görüşdə hazırda regionda mövcud vəziyyət barədə məlumat verən Sahibə Qafarova Azərbaycan torpaqlarının 30 ilə yaxın Ermənistan tərəfindən işğal altında saxlanılmasının fəsadları, bu işğal nəticəsində bir milyon azərbaycanlının öz doğma yurd-yuvasından didərgin düşməsi, işğal olunmuş ərazilərdə bütün infrastrukturun və tikililərin, o cümlədən tarixi, mədəni və dini abidələrin dağıdılması haqqında danışıb.

Azərbaycanın təkbaşına öz torpaqlarını Ermənistanın işğalından azad etdiyini və öz imkanları hesabına genişmiqyaslı yenidənqurma işlərinə başladığını bildirən Milli Məclisin Sədri deyib ki, Azərbaycan işğala məruz qalmasına baxmayaraq, 2020-ci ildə 44 günlük Vətən müharibəsindən sonra Ermənistana beynəlxalq hüququn 5 prinsipi əsasında sülh sazişi imzalanmasını təklif edərək regionumuzda uzunmüddətli sülhün təmin olunması üçün böyük səylər göstərib.

O, həmçinin Ermənistanın siyasi və hərbi təxribatları, son 3 ildə üzərinə götürdüyü öhdəliklərə əməl etməməsi, Azərbaycanın Qarabağ bölgəsində antiterror tədbirlərinin keçirilməsi və bu tədbirlərin nəticələri barədə də qarşı tərəfi məlumatlandırıb. Onun sözlərinə görə, bu tədbirlər beynəlxalq hüququn normalarına tam uyğun olub, mülki şəxslər arasında itki olmayıb. Sahibə Qafarova həmçinin Ermənistanın mina təhdidlərinin Azərbaycanın işğaldan azad olunmuş ərazilərində həyata keçirilən yenidənqurma və bərpa işlərinə törətdiyi maneələri də vurğulayıb. O, bir daha bəzi dairələr Azərbaycanı etnik təmizləmədə ittiham etsələr də, bu ittihamları təsdiq edəcək bir dənə də faktın olmadığını, regiona səfər edən BMT missiyalarının da bunu təsdiqlədiyini bildirib.

Azərbaycanın regionda daimi sülhün təmin olunmasını istədiyini deyən Sahibə Qafarova bir daha diqqətə çatdırıb ki, bu gün Azərbaycanla Ermənistan arasında sülh sazişinin imzalanmasına heç bir maneə yoxdur və Azərbaycan sülhə hazırdır.

Deputatlar Palatasının Sədri Marketa Pekarova Adamova Çexiyanın sülh danışıqlarını dəstəklədiyini və regionda daimi sülhün bərqərar olmasının önəmini ifadə edib.

Sonra Milli Məclisin Sədri xatirə kitabını imzalayıb.

Görüşdən sonra Azərbaycan parlament nümayəndə heyətinin üzvləri Deputatlar Palatasının inzibati binası ilə tanış olublar.

*"Azərbaycan"*

# Təmasların genişləndirilməsi qarşılıqlı əməkdaşlığa töhfə verəcək

Milli Məclisin Sədri Sahibə Qafarova Çex Respublikasına rəsmi səfəri çərçivəsində Çexiya-Azərbaycan parlamentlərarası dostluq qrupunun üzvləri ilə görüşüb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, görüşdə ölkələrimiz və parlamentlərimiz arasında münasibətlərə dair fikir mübadiləsi aparılıb.

Sahibə Qafarova Milli Məclisin Sədri kimi Çex Respublikasına ilk dəfə səfər etdiyini, bu səfərin və keçirilən görüşlərin münasibətlərin daha da genişlənməsinə müsbət təsir edəcəyinə inandığını bildirib. Spiker Sahibə Qafarova parlamentlərimiz arasında münasibətlərin Azərbaycan və Çex Respublikası arasında əlaqələrin mühüm bir hissəsini təşkil etdiyini qeyd edərək qarşılıqlı səfərlərin və müntəzəm dialoqun önəminə diqqət çəkib. O vurğulayıb ki, dostluq qrupları arasında təmasların daha da genişləndirilməsi qarşılıqlı əməkdaşlığa töhfə verəcək.

Milli Məclisin Sədri həmçinin regionda mövcud olan vəziyyət, Azərbaycanın Ermənistanla münasibətlərin normallaşdırılması və sülh müqaviləsinin imzalanması ilə bağlı təşəbbüsləri barədə məlumat verib. Çex Respublikası Parlamentinin Deputatlar Palatasında Çexiya-Azərbaycan



parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Yan Kubik Azərbaycana, o cümlədən işğaldan azad olunmuş Ağdam rayonuna səfərləri, keçirdiyi görüşlərlə bağlı xoş təəssüratlarını bölüşüb. O, ölkələrimiz haqqında həqiqətlərin, məlumatların ictimaiyyətə doğru çatdırılmasının, parlamentlərimiz arasında əlaqələrin genişləndirilməsinin, qarşılıqlı səfərlərin önəmini qeyd edib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər barədə də fikir mübadiləsi aparılıb.

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***

# BMT-nin İqlim Dəyişikliyi üzrə sammitində Azərbaycan da təmsil olunub




Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) Dubay şəhərində təşkil olunan BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 28-ci sessiyası (COP 28) çərçivəsində liderlər sammiti keçirilib.

AZƏRTAC xəbər verir ki, sammitdə Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev və iqtisadiyyat naziri Mikayıl Cabbarov iştirak ediblər.

Tədbirdə çıxış edən Mikayıl Cabbarov bildirib ki, Azərbaycan Qoşulmama Hərəkatının sədri kimi iqlim dəyişikliyinə xüsusi diqqət ayırıb. "Qlobal təşəbbüslərin qəbul olunmasından sonra Azərbaycan onların qlobal səviyyədə təşviqinə, iqlim təşəbbüslərinin və 2030-cu il gündəliyinin həyata keçirilməsinə möhkəm sadiqliyini nümayiş etdirib. Transformativ dəyişiklikləri təşviq etmək öhdəliyi dayanıqlılığa, inklüziv inkişafa və təmiz enerjiyə xüsusi diqqət yetirməklə milli iqtisadiyyatın yenidən formalaşdırılmasına bağlılığı əks etdirir. İqtisadiyyatların yenidən qurulması qlobal miqyasda effektiv və davamlı maliyyə mənbələri tələb edir. Bu səbəbdən yaşıl inkişafın sürətləndirilməsinə müsbət təsir göstərən özəl sektor investorları üçün imkanları araşdırmaq məqsədilə şəbəkə platformalarının yaradılması çox vacibdir", - deyə Mikayıl Cabbarov vurğulayıb.

Ekoloji davamlılığın Azərbaycanın inkişaf strategiyasında diqqət mərkəzinə çevrildiyini qeyd edən nazir bildirib ki, təmiz ətraf mühit ön planda tutulmaqla "yaşıl enerji" ən önəmli beş prioritet sahədən birinə çevrilib: "Yaşıl enerji"yə keçidin aparıcı qüvvəsi kimi bərpaolunan enerji mənbələri 2026-cı ilədək Azərbaycanda elektrik enerjisi istehsalının 24 faizini təşkil edəcək. 2030-cu il hədəfimiz isə daha da iddialı olub, bunu 30 faizə qaldırmaqdır. Azərbaycan istixana qazı emissiyalarının 2050-ci ilədək 40 faiz azaldılmasını hədəfləyir. Otuz ildir Ermənistan tərəfindən işğal altında saxlanılan Qarabağ və Şərqi Zəngəzur ərazisində "yaşıl enerji" zonasının əsasının qoyulması da hədəfə alınıb. Bununla da iqlim dəyişikliyi sahəsindəki öhdəliklərimizin yerinə yetirilməsinə töhfə verəcəyik. Azərbaycan dayanıqlı inkişafı dəstəkləmək və yaşıl transformasiyaya keçidi asanlaşdırmaqda minatəmizləmə təşəbbüslərinin həlledici rolunu qəbul edir. Minatəmizləmənin regionun rifahına və tərəqqisinə əhəmiyyətli təsirini, eləcə də ölkəmizin inkişafı üçün daha geniş əhəmiyyətini nəzərə alaraq, humanitar minatəmizləmə rəsmi olaraq Azərbaycanda 18-ci Milli Dayanıqlı İnkişaf Məqsədi kimi müəyyən edilib".

# DTX-nin Akademiyasının yaranmasının 25 illiyi münasibətilə tədbir təşkil edilmişdir








Dekabrın 1-də Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) Mədəniyyət Mərkəzində DTX-nin Heydər Əliyev adına Akademiyasının (Akademiya) yaranmasının 25 illik yubileyi ilə bağlı təntənəli mərasim keçirilmişdir. Tədbirdə hüquq-mühafizə və digər dövlət orqanlarının rəhbərləri, DTX-nin rəhbər heyəti və əməkdaşları, ali təhsil müəssisələrinin rektorları, millət vəkilləri və təhlükəsizlik orqanlarının veteranları iştirak etmişlər.

Öncə Ümummilli Lider Heydər Əliyevin və Azərbaycan Respublikasının müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərimizin əziz xatirəsi birdəqiqəlik sükutla yad olunmuş, Dövlət himni səsləndirilmişdir.

Sonra Akademiyanın 25 illiyinə həsr edilmiş videoçarx nümayiş etdirilmiş, ardınca çıxış üçün söz DTX-nin rəisi general-polkovnik Əli Nağıyevə verilmişdir.

Qonaqları salamlayaraq Akademiyanın professor-müəllim heyətinə və kursantlarına təbriklərini çatdıran xidmət rəisi 25 il bundan əvvəl - 1998-ci il dekabrın 1-də Ulu Öndər Heydər Əliyevin müvafiq sərəncamı ilə xüsusi xidmət orqanları üçün ali təhsilli kadrların hazırlanması məqsədilə təhlükəsizlik orqanının Akademiyasının yaradılmasının, eləcə də 25 illik yubileyinin məhz Ümummilli Liderin anadan olmasının 100-cü ildönümünün qeyd edildiyi ilə təsadüf etməsinin bu orqanların tarixində mühüm hadisə olduğunu vurğulamış, hazırda təhsil ocağında Heydər Əliyevin peşəkarlıq məktəbinin və vətənpərvərlik irsinin sadiq davamçılarının yetişdirildiyini diqqətə çatdırmışdır. Mənalı ömrünün 25 ilini həsr etdiyi təhlükəsizlik orqanları qarşısında Ulu Öndərin əvəzsiz xidmətlərini nəzərə alaraq, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2005-ci il dekabr ayının 20-də imzaladığı fərmanla Akademiyaya dahi şəxsiyyət Heydər Əliyevin adının verilməsinin isə təhlükəsizlik orqanlarının tarixinə növbəti əlamətdar hadisə kimi daxil olduğunu qeyd edən general-polkovnik Əli Nağıyev bildirmişdir ki, bu gün DTX-nin və Akademiyanın şəxsi heyəti öz fəaliyyətini Ümummilli Liderin amalları və ideyaları üzərində qurmaqdadır.

DTX-nin rəisi Əli Nağıyev Prezident İlham Əliyevin diqqət və qayğısı ilə ötən müddət ərzində Akademiyanın maddi-texniki bazasının təkmilləşdirilməsi, təhsilin müasir tələblərə uyğun şəkildə təşkil edilməsi, çağdaş texnoloji yenilikləri uğurla tətbiq etməklə tədris prosesinin səviyyəsinin yüksəldilməsi yönümündə görülən işlərdən ətraflı danışmış, son illərdə Akademiyanın kursantlarının ölkəmizin aparıcı ali təhsil müəssisələri arasında keçirilmiş müxtəlif bilik yarışlarında ardıcıl olaraq qalib adını qazanmasının qürurverici hal olduğunu demişdir.

Daha sonra digər qonaqlar da çıxış edərək Azərbaycanda təhsil-tədris sahəsində aparılan islahatlardan, Akademiyanın bu strateji sektorun inkişafına verdiyi töhfələrdən bəhs etmiş, professor-müəllim heyətinə və kursantlara çətin və şərəfli yolda uğurlar arzulamışlar.

Tədbirin rəsmi hissəsi başa çatdıqdan sonra qonaqlara mədəniyyət və incəsənət xadimlərinin ifasında bədii proqram təqdim olunmuşdur.

Akademiyanın yaranmasının 25 illik yubileyi ilə əlaqədar silsilə tədbirlər dekabrın 2-də "Dövlət Təhlükəsizliyi Xidmətinin Heydər Əliyev adına Akademiyası Ulu Öndər irsinin daşıyıcısıdır" adlı elmi-praktiki konfransla davam edəcəkdir.

# "Euronews" telekanalı Bakıda keçirilən SPECA-nın Zirvə görüşü haqqında reportaj yayımlayıb

"Euronews" telekanalının efirində bu günlərdə Bakıda keçirilən SPECA Zirvə görüşü haqqında qısa reportaj yayımlanıb.

AZƏRTAC xəbər verir ki, reportajda qeyd olunub: "Bakı BMT-nin Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün Xüsusi Proqramının - SPECA-nın iştirakçı ölkələrinin dövlət və hökumət başçılarının Zirvə görüşünün iştirakçılarını qəbul edib. Tədbir əsnasında liderlər regionun çoxprofilli qlobal qovşağa çevrilməsi məsələsini müzakirə ediblər. SPECA bu il özünün 25 illiyini qeyd edir. Yubiley ilində ilk dəfə SPECA-nın iştirakçı dövlətləri liderlərinin iştirakı ilə Zirvə görüşü təşkil edilib. Bakı görüşünün əsas mövzusu regionun planetin qalan hissəsinə qoşulmaq üçün qlobal logistika mərkəzinə transformasiyası olub".

# Bakıda Beynəlxalq Uroonkologiya Simpoziumu keçirilib

Dekabrın 2-də Bakıda Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Milli Onkologiya Mərkəzinin və Azərbaycan Onkoloqlar Cəmiyyətinin təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş VI Beynəlxalq Uroonkologiya Simpoziumu keçirilib.



Tədbirin əvvəlində Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, Ümummilli Lider Heydər Əliyevin və ərazi bütövlüyümüz uğrunda canından keçən qəhrəmanların əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib. Həmçinin Ulu Öndərin 100 illik yubileyinə həsr edilmiş sənədli film nümayiş olunub.

AZƏRTAC xəbər verir ki, Beynəlxalq Uroonkologiya Simpoziumunu giriş sözü ilə açan Milli Onkologiya Mərkəzinin baş direktor müavini, tibb üzrə elmlər doktoru Fuad Quliyev tədbir iştirakçılarına MOM-un baş direktoru, akademik Cəmil Əliyevin salamlarını çatdırıb və mərkəzin fəaliyyəti ilə bağlı geniş məlumat verib. Tədbirdə Azərbaycanla yanaşı, Türkiyə, ABŞ, Almaniya, Qırğızıstan, Özbəkistan və Gürcüstandan uroonkoloji xəstəliklər üzrə aparıcı mütəxəssislərin də iştirak etdiyi qeyd olunub.

YAP Veteranlar Şurasının üzvü, "91-lər"dən biri, Azərbaycanın Milli Elmlər Akademiyasının müxbir üzvü, tibb üzrə elmlər doktoru, professor Sudeyf İmamverdiyev Ulu Öndərin Azərbaycana rəhbərlik etdiyi dövrlərdə gördüyü işlərdən, ölkəmizi çətin vəziyyətlərdən çıxarmaq üçün apardığı mübarizə və atdığı müdrik addımlardan, Prezident İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuzun qazandığı tarixi qələbədən danışıb. S.İmamverdiyev Ulu Öndərin siyasi xəttinin uğurla davam etdirilməsi nəticəsində bütün sahələrdə dinamik inkişafa nail olunduğunu, o cümlədən səhiyyə sektorunun yeni inkişaf mərhələsinə qədəm qoyduğunu diqqətə çatdırıb.

Simpozium elmi hissə ilə davam edib.

Simpoziumda professor İlker Tinay (Türkiyə), professor Axel Haydenrax (Almaniya), professor David Nikoleişvili (Gürcüstan), tibb elmləri namizədi İlya Tsimafeyeu (ABŞ) kimi dünyaşöhrətli mütəxəssislərin, həmçinin yerli və əcnəbi uroonkoloqların "3D laparoskopik prostatektomiya", "Laparoskopik prostatektomiya: məsləhətlər və fəndlər", "Laparoskopik qismən nefrektomiya: Nəticələri necə optimallaşdırmaq olar?", "Özbəkistanda robot cərrahiyyəsinin ilk təcrübəsi", "Sidik kisəsi xərçəngi üçün limfadenektomiya. Hələ də aktualdır?", "ICG təlimatları ilə pelvik limfadenektomiya", "Radikal sistektomiya: Bu gün haradayıq?", "Sidik kisəsi xərçənginin 3-modality müalicəsi", "Medikal onkoloqun sidik kisəsi xərçənginə baxışı", "UUT üçün endoskopik cərrahiyyədə innovativ texnologiyalar", "Kistik böyrək lezyonlarında böyrək transplantasiyasının rolu", "Böyrək xərçəngi üçün yeni proqnostik nomoqramma", "Sitoreduktiv nefrektomiya: Kimə? Nə vaxt? Niyə?", "Böyrək xərçəngi üçün immunoterapiya imkanları", "Thulium lazerlə prostatın anatomik enukleasiyası", "HoLEP: bunu necə edim?", "BipoLEP vs HoLEP", "Thulium lazer: Reallıq və gözləntilər", "Prostat əməliyyatından sonra uretranın daralması riski" və "Göstərişlər üçün inoperativ ultrasəs" mövzularında məruzələri dinlənilib.

Simpoziumda məruzələr üzrə onkologiyanın aktual problemləri, müasir dövrdə onkoloji xəstəliklərin müalicəsində tətbiq edilən yeniliklər müzakirə olunub, geniş təcrübə mübadiləsi aparılıb, elmi-tədqiqat işlərinin təqdimatının əhəmiyyəti vurğulanıb.

# Azərbaycan və Bolqarıstan XİN-ləri arasında siyasi məsləhətləşmələrin dördüncü iclası olub

Dekabrın 1-də Sofiya şəhərində Azərbaycan Respublikası və Bolqarıstan Respublikası Xarici İşlər nazirlikləri arasında siyasi məsləhətləşmələrin dördüncü iclası keçirilib.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan Respublikasının nümayəndə heyətinə xarici işlər nazirinin müavini Yalçın Rəfiyev, Bolqarıstan Respublikasının nümayəndə heyətinə xarici işlər nazirinin müavini Tixomir Stoyçev rəhbərlik ediblər.

Məsləhətləşmələr zamanı siyasi, iqtisadi, enerji, nəqliyyat və humanitar sahələr üzrə ikitərəfli münasibətlərin, o cümlədən beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın hazırkı vəziyyəti və inkişaf perspektivləri müzakirə edilib. Qarşılıqlı yüksəksəviyyəli səfərlərin ikitərəfli əlaqələrin inkişafında əhəmiyyəti vurğulanıb və bu xüsusda, növbəti il ərzində gözlənilən səfərlərin əməkdaşlığın hazırkı dinamikasına əlavə töhfə verəcəyi bildirilib.

İki ölkə arasında strateji dialoq və siyasi məsləhətləşmələr mexanizmləri, habelə Azərbaycan Respublikası ilə Bolqarıstan Respublikası arasında ticari-iqtisadi və elmi-texniki əməkdaşlıq üzrə Müştərək Komissiyanın fəaliyyətinin əhəmiyyəti qeyd olunub.

Qarşı tərəfə postmünaqişə dövründə bölgədəki vəziyyət, Azərbaycanın işğaldan azad edilmiş ərazilərində mina təhdidləri, ölkəmizin həyata keçirdiyi genişmiqyaslı yenidənqurma, bərpa və şəhərsalma işləri, habelə Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair Dövlət Proqramının icrası barədə məlumat verilib.

İclas zamanı həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər barədə ətraflı fikir mübadiləsi aparılıb.

Bolqarıstan Respublikasına səfəri zamanı xarici işlər nazirinin müavini Yalçın Rəfiyev, habelə Bolqarıstan Respublikası Baş nazirinin müavini və xarici işlər naziri xanım Maria Qabriel, Bolqarıstan Respublikası Xalq Məclisinin Xarici siyasət komitəsinin sədri Boyko Borissov və Bolqarıstan Respublikası Baş nazirinin xarici və təhlükəsizlik siyasəti üzrə müşaviri Draqomir Zakov ilə görüşlər keçirib.

# BMT-nin forumunda Ermənistanın etnik təmizləmə siyasətindən danışılıb

Qərbi Azərbaycan İcması 2023-cü il noyabrın 30-dan dekabrın 1-dək Cenevrədə keçirilmiş BMT-nin Azlıqların Məsələləri üzrə Forumunun XVI sessiyasında təmsil olunub.

İcmadan AZƏRTAC-a bildirilib ki, Qərbi Azərbaycan İcmasının Nəzarət-Təftiş Komissiyasının sədrinin müavini, Milli Məclisin deputatı Şahin İsmayılov tədbirdə iştirak və çıxış edib.

Qərbi Azərbaycan İcmasının nümayəndəsi forumda etdiyi çıxışında Ermənistanın həyata keçirdiyi etnik təmizləmə siyasəti nəticəsində azərbaycanlıların bir milli qrup kimi Ermənistandan tamamilə qovulduğunu və bu ölkənin monoetnik məkana çevrildiyini qeyd edib.

Etnik və mədəni müxtəlifliyin qorunub saxlanmasının davamlı sülhün bərqərar olması və insan hüquqlarının aliliyi baxımından əhəmiyyətini qeyd edən Ş.İsmayılov Ermənistandan qovulmuş azərbaycanlıların təhlükəsiz şəkildə və ləyaqətlə geri qayıdışının təmin edilməsi məsələsinin BMT-nin insan haqları gündəliyində mühüm yer tutmalı olduğunu vurğulayıb.

İcmanın nümayəndəsi forum çərçivəsində BMT üzv dövlətlərinin nümayəndələri, BMT-nin insan hüquqları təsisatlarının rəsmiləri və xüsusi məruzəçilərlə ikitərəfli görüşlər keçirərək Ermənistandan didərgin salınmış azərbaycanlıların problemləri, onların Ermənistanda qalmış mədəni irsinin dağıdılması, icmanın beynəlxalq hüquq çərçivəsində qayıdış hüququ istiqamətində həyata keçirdiyi səylər barədə məlumat verib.

Qeyd edək ki, BMT-nin İnsan Hüquqları Şurasının 2007-ci ildə qəbul etdiyi qətnamə əsasında hər il keçirilən bu forum milli, etnik, dini və linqvistik azlıqlara dair məsələlər üzrə dialoq və əməkdaşlığın təşviq olunması məqsədi daşıyır.

◆ **Müəllifi İlham Əliyevdir**





# İlham Əliyev söndürülən çıraqlarımızı yandırdı

## Laçınlılar bu xoşbəxtliyi onlara yaşadan Müzəffər Ali Baş Komandana minnətdardırlar

**Yolumuz yenə dağlaradır...**

**Otuzillik həsrətmizin vüsalı olan Şərqi Zəngəzura sarı gedirik...**

**Bir yandan Tanrının yaratdığı füsunkar təbiət, əzəmətli dağlar, başı buludlara dirənən şiş qayalar, gurultu ilə axan dağ çayları, bir yandan da insan əli ilə yaradılan gözəlliklər adamı valeh edir.**

**Dolanbac yollarla üzüyuxarı hərəkət edə-edə bu əsrarəngiz mənzərəyə tamaşa etmək ürəyimizi dağa döndərir. Həkəri çayını keçib Şərqi Zəngəzurun əzəmətli dağları qoynunda qərar tutan Laçına yetişirik.**

### Düşmənə gözdağı verən möhtəşəm şəhər

Düz 31 il düşmən tapdağında inlədi, tar-mar edildi, daşı-divarları söküldü, dağıdıldı. Düşmən elə zənn etdi ki, bu dağlarda yenidən həyat qurmaq müşkül məsələdi.

Amma cəmi 20 ilə Azərbaycanı tarixinin ən qüdrətli möhtəşəm dövlətinə çevirən, düşməni 30 il möhkəmləndiyi torpaqlarımızdan 44 günə qovub çıxaran İlham Əliyev 3 ildə elə xarüqələr yaratdı ki, hətta bu gün ermənilərin özləri də heyranlıqlarını gizlədə bilmirlər.

Nəyi nə zaman etməyi hər kəsdən yaxşı bilən, sözü imzası qədər keçərli olan İlham Əliyev Laçına ilk səfərində demişdi ki, şəhərin bütün infrastrukturu yenidən qurulacaq. Laçın nəinki Azərbaycanın dünya miqyasında ən gözəl şəhərlərindən birinə çevriləcək, çox füsunkar təbiəti - meşələri, dağları, çayları olan bu şəhər cənnətməkan olacaq.

İlham Əliyevin səsləndirdiyi bu fikirlərdən cəmi 1 il sonra çətin dağlıq reylefdə yerləşməsinə baxmayaraq, Laçın şəhəri elə quruldu ki, düşmən baxanda bağrı yarıldı.

İndi dağların qoynunda elə bir Laçın salınıb ki, sanki cənnəti xatırladır, barbar haylara, onların havadarlarına gözdağı verir. Küçələrdə, məhəllələrdə təmir-bərpa, abadlıq-quruculuq işləri gedir. Hər tərəfdə yaşıllıqlar salınıb, yolların kənarlarına dekorativ bitkilər əkilib.

Bir sözlə, Laçında bu gün həyat qaynayır. Şəhər yenidən qurulur, ona yaraşan yeni həyat, yeni nəfəs verilir. Bu mənzərəyə şahidlik etmək insanda ruh yüksəkliyi yaradır.














### Laçında 712 obyekt üzrə tikinti-quruculuq işləri davam edir

Şəhərin mərkəzinə yetişib ilk olaraq bütün bu işləri həyata keçirən "Laçın Abadlıq Xidməti"nin ofisinə baş çəkib, direktor müavini Elnur Abdullayevlə söhbətləşirik.

Elnur müəllim deyir ki, hazırda Laçında 712 obyekt üzrə tikinti-quruculuq işləri davam edir. Şəhərdə 75-i inzibati bina, 628-i fərdi, hər biri 144 mənzildən ibarət olan 9 yaşayış binası inşa edilir. Laçının soyuq iqlimini nəzərə alaraq, bütün evlərdə kombi istilik sistemi qurulub. Günəş şüalarının çox olduğu yerlərdə dam örtüklərində elektrik panelləri quraşdırılıb. Bu da alternativ enerji üçün istifadə olunur. Digər tərəfdən Laçın şəhərinin özünün klassik xalq memarlıq üslubu var.

Prezident İlham Əliyev mayın 28-də Laçına səfəri zamanı 20 ailəyə mənzillərinin açarlarını təqdim etmişdi. Həmin vaxtdan etibarən mütəmadi olaraq davamlı köç prosesi aparılır. Noyabrın 29-da şəhərə daha 17 ailə - 63 nəfər köçürülüb. Bununla da Laçın şəhərində 363 ailə, 1389 nəfərin daimi məskunlaşması təmin edilib.

E.Abdullayev deyir ki, şəhərin estetik görüntüsünün pozulmaması üçün bütün kommunikasiyalar yeraltı çəkilib. Noyabrın 7-də şəhərə və Zabux kəndinə mavi qazın verilməsi də təmin edilib. Şəhərin içməli su ilə təminatı tamamilə həllini tapıb. Şəhərdə 9 su anbarı, 3 ədəd yağış sularının toplanma deposu, 1 ədəd çirkli suyun təmizlənmə qurğusu istifadəyə verilib.

### Laçına qayıdanlar işlə necə təmin olunurlar?

Təbii ki, yeni salınan şəhərdə məskunlaşmaq, yaşayıb-yaratmaq üçün insanların məşğulluq məsələsi ilk olaraq həllini tapmalıdır. Bu istiqamətdə də işlər həyata keçirilməkdədir. Direktor müavini deyir ki, bu məsələ dövlətin xüsusi olaraq diqqət etdiyi prosesdir. Ona görə də bununla bağlı əvvəlcədən addımlar atılıb.

Əhalinin sosial durumunun yaxşılaşdırılması üçün Zeyirdi kəndində











52 hektar ərazidə yaradılan Aqro və Sənaye Parkında 46 müəssisənin fəaliyyəti nəzərdə tutulub. Bu da toplam olaraq 1169 vakansiya deməkdir. Artıq orada 7 müəssisə fəaliyyətə başlayıb. Digər müəssisələr də yaxın vaxtlarda işə düşəcək. Hazırda toplam istehsal sahəsi 4800 kvadratmetr olan mebel fabriki, ayaqqabı istehsalı, tekstil, efir yağlarının istehsalı, seleksiya, istixanalar fəaliyyətdədir. 12 istixanada nadir bitkilər yetişdirilir.

Həkəri çayının sahilində "Həkəri" balıqçılıq təsərrüfatı yaradılıb və orada 37 nəfər işlə təmin edilib. Onlar da ixtisaslaşma kurslarını bitirdikdən sonra müəssisədə çalışmağa başlayıblar.

Darıkaha ərazisində peşəyönümlü kurslar açılıb. Burada peşəyönümlü təhsil almaq mümkündür. Qapalı və açıq tipli yarmarkalar təşkil olunub, sakinlər öz məhsullarını sata biləcəklər. Buraya ətraf ərazilərdən mallarını satmaq, yaxud alış-veriş üçün gələnlərdən ötrü gecələmə yeri də var.

Ümumilikdə bu günədək 431 Laçın şəhər sakini işlə təmin edilib. Gələcəkdə insanlar Laçına köçdükcə onların ixtisaslarına uyğun işlərlə təmin olunması diqqət mərkəzindədir.

Müsahibimizlə söhbət zamanı o da bəlli oldu ki, hələ sakinlər Laçına köçməmişdən öncə ailələrlə görüşlər keçirilib və insanların ixtisasları ilə yaxından maraqlanılıb: "Bir çox sakin neft-qaz sektorunda çalışıb. Təbii ki, Laçında neft-qaz sektoru olmadığı üçün onların işlə təminatı ən prioritet məsələ hesab olunurdu. Buna görə də iştisaslaşma kursları təşkil etdik. Hətta Laçın şəhər sakinlərini doğma yurda köçmədən öncə qardaş Türkiyədə, İtaliyada və ölkə daxilində kurslara göndərdik. Çünki onlar əmin olmalı idilər ki, Laçına qayıdanda işlə təminat məsələsində problem yaşanmayacaq. Məqsədimiz dayanıqlı məskunlaşmanın təminidir".

### Ən böyük məscid, tramvay, kinoteatr, analoqu olmayan studiya

Laçın şəhərinin içtimai nəqliyyatla təmin olunması istiqamətində də addımlar atılıb. Yerüstü Nəqliyyat Agentliyi ilə birgə elektron xəritə üzərində marşrut xətləri təyin edilib. Zabux kəndinə də köç olduğu üçün şəhərlə kənd arasında marşrut fəaliyyət göstərəcək. Kəndlə şəhər mərkəzi arasında marşrut xəttinin gediş-dönüş məsafəsi 25,7 kilometrə bərabərdir. Yaxın günlərdə dayanacaqların da təyini məsələsi həllini tapacaq.

Əhalinin mədəni istirahəti üçün də tədbirlər həyata keçirilir. Bu istiqamətdə atılan addımlardan biri 1974-cü ildə şəhərdə istifadəyə verilən, lakin işğal dövründə ermənilərin dağıtdığı kinoteatr binası yenidən qurularaq noyabrın 9-da sakinlərin ixtiyarına verilib. Kinoteatr Laçında olan tikililərin şah əsəridir. 230 yerdən ibarət olan kinoteatr ən son texnologiyalarla təchiz olunub.

Ümumiyyətlə, şəhərdəki Mədəniyyət küçəsində kinoteatr, Teatr binası, Konsert Mərkəzi və Gənclər Mərkəzi fəaliyyət göstərəcək.

Qədimliyi də qorumaq üçün Laçında yenilik olaraq 530 metrlik məsafədə tramvay xətti çəkilir: "Bu, çox maraqlı layihədir. Artıq tramvay sifariş olunub və Laçın şəhərindədir. Xətt tamamən istifadəyə verildikdən sonra şəhərin daxilində tramvayın hərəkəti gözlənilir".

Abdallar məhəlləsində mövcud olan mağarlarda da abadlıq işləri aparılıb, televiziya kanallarının yayımı, internet, mobil operatorların fəaliyyəti təmin olunub.

Hazırda Laçında məscid kompleksi inşa edilir. Yeni məscid işğaldan azad edilən ərazilərdə ən böyük məscidlərdən biri olacaq. Elnur Abdullayev deyir ki, Laçın rayonu ərazisində çoxlu sayda məscid, məbəd inanc yerləri olub, lakin işğal zamanı sözügedən tikililər ermənilər tərəfindən dağıdılıb. Hazırda işğaldan azad olunan ərazilərdə ən böyük məscidlərdən biri məhz Laçında inşa olunur. Məscid kompleksinin ərazisi 1 hektara yaxın sahəni əhatə edəcək. Relyefə uyğun inşa edilən məscid iki mərtəbədən ibarət olacaq, birinci mərtəbədə texniki otaqlar yer alacaq. İkinci mərtəbə isə birbaşa məscidin qarşısındakı eyvana açılacaq ki, bu da əhalinin rahat ibadəti üçün məscidə girişi təmin edəcək. Məsciddə qadınlar və kişilər üçün ayrıca ibadət zalları, dəstəmaz otaqları olacaq. 600 kvadratmetrə yaxın sahəsi olacaq məscid binası 16 metr hündürlükdə bir günbəz və hər biri 24 metr hündürlükdə iki minarə ilə layihələndirilib. Məscid şəhərin hər yerindən görünəcək və azan səsinin şəhər ərazisinə daha rahat yayılmasına imkan yaranacaq. Məscid şəhərin qərb hissəsində girişdə magistral yolun kənarında yerləşir ki, bu da şəhərə gələn turist və qonaqların burada rahat ibadət etməsi üçün nəzərdə tutulub.

Laçında yaradılan "Hoçazfilm" yaradıcılıq studiyasının isə analoqu yoxdur. Studiya Prezident İlham Əliyevin iştirakı ilə avqustun 25-də açılıb. Qarabağın çoxşaxəli nadir yaradıcılıq məkanı layihəsi olan "Hoçazfilm" studiyası iki inzibati binadan və bir çəkiliş pavilyonundan ibarətdir. Studiyanın adı Laçın rayonunun əsas rəmzlərindən sayılan Hoçaz qayalıqlarının adından götürülüb. Studiya Laçın başda olmaqla, ümumilikdə Qarabağ regionunun işğal və işğaldan sonrakı dövrlərinin salnaməsini yaratmaqda regional audiovizual mərkəz kimi fəaliyyət göstərəcək. Studiya həmçinin yerli və xarici media, dövlət təşkilatları, dövlət və özəl kinostudiyalar ilə əməkdaşlıq əsasında regiondan audiovizual kontent təqdim edəcək.

### "İlham Əliyev qürurumuzu və xoşbəxt günlərimizi özümüzə qaytardı"

Müsahibimizlə söhbətimizi yekunlaşdırıb şəhər sakinlərinin təəssüratlarını eşitmək üçün enişli-yoxuşlu yollarla hərəkət edirik. Əlbəttə ki, yeni Laçının ən böyük sərvəti onun sakinləridir. Kimi dindirdiksə, ilk sözü onlara bu sevinci yaşadan, yurd həsrətini sona çatdıran Müzəffər Ali Baş Komandan İlham Əliyevə, ölməz şəhidlərimizə və qazilərimizə minnətdarlıq oldu.

75 yaşlı şəhər sakini Zemfira Fətəliyeva doğma yurda qayıtdığı üçün göydə Tanrıya, yerdə isə Qalib Ali Baş Komandan İlham Əliyevə duaçıdır, şükranlığı sözlərə sığmır, ürəyindən qopub gələn duyğular düşməni diz çökdürən əsgərlərimizin, zabitlərimizin hünərini vəsf edir, öyünür, qürur keçirir. Danışdıqca göz yaşlarını saxlaya bilmir: "Mən Laçında böyümüşəm. Azərbaycan Tibb Universitetini bitirmişəm. Üç övlad böyütmüşəm. Hər biri ali savadlıdır, rus, ingilis dillərini yaxşı bilirlər. İki oğlum ali təhsilli iqtisadçıdır. Qızım Sabir adına Azərbaycan Dövlət Pedaqoji Kollecində dərs deyir. Təəssüf ki, həyat yoldaşım 61 yaşında Laçını görmədən, Laçın həsrətilə bu dünyadan köçdü. Kaş ki, bu günləri görəydi. Təsəllim odur ki, özü görməsə də, adını daşıdığı nəvəsi Laçını gördü. Oturub-durub Prezidentimizə min alqış edirəm. O ki, bizim üstümüzdən qaçqın adını götürdü, Allah onun ömrünə ömür qatsın. İlham Əliyev bizim qürurumuzu, yurdumuzu, evimizi, ocağımızı, xoşbəxt günlərimizi özümüzə qaytardı".

76 yaşlı Əli Əliyev deyir ki, Laçına ilk dəfə gələndə hər şeyi yuxuda gördüyünü zənn edib. Amma evinə daxil olub bir müddət ətrafa boylandıqdan sonra "yuxusu" çin çıxıb: "Ay bala, elə bildim yuxudayam. Axı illərlə Laçını ancaq yuxularımızda görürdük. Bu dəfə yuxu deyil, həqiqətdi. Bu yaşımda məni Laçına gətirən, mənliyimi özümə qaytaran İlham Əliyev var olsun! Heç bir kəsirimiz yoxdur, elə evlər tikiblər ki, biz 10 il də çalışsaq, belə ev tikə bilməzdik. Həm torpağımızı qaytardı, həm də evimizi tikib verdi. 4 otaqlı geniş ev veribər bizə. Belə Prezident dünyanın heç bir yerində yoxdur. Allah İlham Əliyevi bu ölkənin üstündən əskik etməsin".

Dörd aydır Laçında yaşayan Rəfael Məmmədov artıq işlə də təmin olunub. "Laçın Abadlıq Xidməti"ndə sürücü kimi çalışır. 65 yaşlı Rəfael kişi deyir ki, doğma yurdda yaşamağın ləzzəti ayrıdır. Şəhərdə onlar üçün hər şərait yaradılıb. "İllərlə Laçınımıza qovuşacağımız günü səbirsizliklə gözləmişik. Bu xoşbəxt günlərə görə Prezidentimiz İlham Əliyevə, ordumuza minnətdarıq. Laçında yaşamaq və burada çalışmaq bizlər üçün həyatımızın ən gözəl günlərinin yenidən başlanması deməkdir".

24 yaşında Laçını valideynləri ilə tərk edən Namiq Alıyev bu gün doğma yurduna ailəsi ilə geri dönüb. Məcburi köçkünlük həyatını Bakının Suraxanı rayonu Hövsan qəsəbəsində keçirən Namiq deyir ki, min əzab-əziyyət çəksələr də, məşəqqətli günlər yaşasalar da, hər zaman Prezident İlham Əliyevə güvənib və səbirlə bu günü gözləyiblər: "Allaha min şükür ki, bu gün öz elimizdə-obamızdayıq. Ağır günlər, illər keçirdik. Amma hər zaman Prezidentimizə inandıq, güvəndik. Mən əmin idim ki, İlham Əliyev Qarabağı ermənidən bir gün tamamilə təmizləyəcək. Nə xoş ki bizə o günü görmək də nəsib oldu. Burdan çıxanda subay idim. İndi Laçına ailəmlə, iki övladımla geri qayıtmışam. Dövlət hər cür təminatlı 4 otaqlı mənzil verib. Bundan yaxşısı ola da bilməz. Həyat yoldaşım məktəbdə çalışır. Övladlarımızı məktəbə avtobus aparıb-gətirir. Bu xoşbəxt həyatı bizə Prezidentimiz bəxş edib. Biz ömürboyu İlham Əliyevə minnətdar olacağıq".

Laçını bələkdə tərk edən 32 yaşlı Sahib Əhmədzadə 1991-ci il martın 5-də Laçın şəhərində anadan olub. Şəhid övladıdır. Atası Şahin Əhmədzadə Birinci Qarabağ müharibəsində Laçının müdafiəsi uğrunda gedən döyüşlərdə son damla qanınadək savaşıb və 1992-ci il may ayının 9-da şəhərin Bayraq meydanı adlanan küçəsində qəhrəmancasına döyüşərək şəhid olub. Anası Sahibi şəhid atasının yadigarı kimi böyüdüb boya-başa çatdırıb. İndi Sahib doğma yurduna, atasının qanı ilə yoğurduğu Laçına qayıdıb: "Keçirdiyim hissləri sözlə ifadə edə bilmirəm. Laçını heç vaxt görməmişdim. Anam danışırdı, mən də təsəvvürümdə canlandırırdım. Bura mənim üçün müqəddəs torpaqdır. Bu gün ən çox atamın ruhu sevinir. Laçın azaddır və onun övladı doğma elində-obasındadır. Bizi Laçına qaytaran Müzəffər Ali Baş Komandanımız İlham Əliyevə, müqəddəs ruhlu şəhidərimizə, qazilərimizə hər zaman minnətdar olmalıyıq. Bizlər də burada yaşayıb yaratmalı, Laçınımızı göz bəbəyimiz kimi qorumalıyıq". Hazırda "Laçın Abadlıq Xidməti"ndə sahə nəzarətçisi vəzifəsində çalışan Sahib 31 ildən sonra Laçına dönüşün sevincini yaşayır.

Göründüyü kimi, azad olunmuş ərazilərə Böyük qayıdış proqramı uğurla reallaşır, doğma yurda qayıdanların sevinci yerə-göyə sığmır. Bu tükənməz sevincdən minlərlə laçınlıya da pay düşür.

Bu xoş duyğularla Laçını gəzməkdə davam edirik. Yolumuz isə yeni fəaliyyətə başlamış "Həkəri Balıq Təsərrüfatı"nadır...

*(Ardı var)*

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

*Bakı-Laçın-Bakı*

# Antiazərbaycançı şəbəkənin qəsd planı iflasa məhkumdur

## Qarabağda universitetlərin filialları açılacaq

### Yeni layihələr Azərbaycanda elm və təhsilin inkişafına yönəlib

"Xankəndidə Qarabağ Universitetinin açılması Azərbaycan elminin və təhsilinin uğurlarından xəbər verir. Dövlət başçısının sərəncamı onu göstərir ki, Qarabağda quruculuq və bərpa işləri uğurla gedir. Dini, tarixi abidələrin, mədəniyyət abidələrinin bərpası göz qabağındadır. O cümlədən ali təhsil pilləsi üzrə bir müəssisənin açılmasına da ehtiyac var idi".



Bu sözləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Anar İsgəndərov deyib. Deputat bildirib ki, Xankəndidə vaxtilə Pedaqoji Universitetin filialı olmuş, sonra o, müstəqil ali məktəbə çevrilmişdir, bu gün isə universitet Azərbaycan müəllimlərinin və tələbələrin iştirakı ilə yenidən açılır: "Elm və təhsil naziri də çıxışında qeyd etdi ki, 2024-2025-ci tədris ili üçün Dövlət İmtahan Mərkəzi xətti ilə imtahanlar keçiriləcək. 1000 nəfər tələbənin universitetdə təhsil alması nəzərdə tutulur. Təbii ki, universitetdə yaradılacaq ixtisasların ən birincisi tarix olmalıdır. Qarabağın tarixini ixtisasımızdan asılı olmayaraq, hər birimiz əzbər bilməliyik. Ona görə də bu ixtisasların açılması onu göstərir ki, Qarabağ Universitetində tarix fənnini tədris edən müəllim həm kitablardan Qarabağın tarixini öyrədəcək, həm də orada canlı tarixi öz tələbələri ilə bölüşəcək. Təbii ki, Xankəndidə Qarabağ Universitetinin açılması tək ali məktəb olmayacaq. Yəqin ki, Qarabağın bərpası nəticəsində əhalinin mərhələli şəkildə köçürülməsi ilə bağlı yeni ali məktəblər təsis ediləcək, digər universitetlərin filialları da açılacaq. Filialların da olmasına böyük ehtiyac var. Bununla yanaşı, bizim kontingentimiz məhdud olmayacaq. Təkcə Qarabağdakı yaşayanlar deyil, hətta xaricdən bu ali məktəblərə gələnlər olacaq".

Deputatın sözlərinə görə, Qarabağda bir neçə ali təhsil müəssisəsinə ehtiyac var: "Bu gün 4 minə yaxın əhali işğaldan azad olunmuş ərazilərə köçürülüb. Son nəticədə qaçqın və köçkün düşən bütün insanlar bu əraziyə köçürülərsə, onların sayı milyondan yuxarı olacaq. Ona görə də bu ərazilərdə universitetlərin açılması lazımdır".

A.İsgəndərov qeyd edib ki, bu ali məktəblərin yaradılması Azərbaycanda elm və təhsilin inkişafı deməkdir: "Qarabağda yaradılan ali məktəblərin bir məsuliyyəti də o olacaq ki, onlar illər ərzində düşmənin bizə qarşı törətdiyi soyqırımını unutmamaq üçün tarixi mənbələr əsasında öyrədəcək və Azərbaycan gənci xalqımızın düşmənlərini tanıyacaq. Bunun üçün Qarabağ tarixi ilə bağlı nə sənədlər varsa, dünyanın hansı arxivindədirsə, onlar Azərbaycana gətirilməlidir. Hər bir ali məktəb uğur deməkdir, tələbə sevinci deməkdir. Cəbhədə böyük uğur qazanan Azərbaycan əsgəri Qarabağ Universitetinin auditoriyasında da uğura imza atacaq".

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

## Qərbin yalan və riyakar çağırışlarına özlərindən başqa kimsə inanmır

Hələ yaxından tanımadığımız zamanlarda Qərb ölkələrinin tərifini göyün yeddinci qatına qədər qaldırırdılar. Təbiidir ki, əvvəl-əvvəl biz bu deyilənlərə inanırdıq. Amma illər sonra tanış olandan, içini-çölünü dərindən öyrənəndən sonra gördük ki, Qərb ölkələri qətiyyən bu təriflərə layiq deyilmiş.

Xarici havadarlarına arxalanan ermənilər 1988-ci ildən başlayaraq Qarabağda, eləcə də Ermənistanın özündə azərbaycanlıları qətlə yetirəndə, ev-eşiklərini yandıranda, doğma torpaqlarından qovanda tərifi göylərə qaldırılan Qərbdən halal haqqımızı müdafiə edən bir çağırış belə eşitmədik. Əksinə, xalqımız üçün çətin olan o günlərdə Qərb ölkələri baş verən hadisələrə ikiüzlü, qərəzli yanaşaraq işğalçılıq siyasəti yürüdən Ermənistanı dəstəklədi.

O vaxtdan uzun illər keçib. Arada fikirləşirsən ki, bəlkə Qərb ölkələrinin ikiüzlü və qərəzli siyasəti dəyişib. Amma ölkəmizə qarşı sərgilədikləri mövqeyi diqqətlə nəzərdən keçirəndə görürsən ki, yox, heç nə dəyişməyib. Qərb elə həmin Qərbdir. Üstəlik, 2020-ci ildə erməni işğalçıları üzərində qazandığımız tarixi zəfərdən sonra Azərbaycana qarşı ikili standartlar üzərində qurduğu siyasəti və qərəzli mövqeyi daha açıq, daha aqressiv müstəviyə keçirib.

Ölkəmizə qarşı bu cür ədalətsiz yanaşma Qərb ölkələrinin qərəzli və riyakar olduğunun göstəricisidir. Belə olmasaydı, hələ BMT-nin 27 il əvvəl qəbul etdiyi qətnamələr icra olunardı. İstər-istəməz belə bir sual yaranır: necə olur ki, başqa ölkələrə aid olan bu cür qətnamələr cəmi bir neçə gün ərzində, özü də qeyd-şərtsiz icra edildiyi halda, Azərbaycana gələndə, bu, baş vermir?

Təəssüflər olsun ki, vasitəçilik missiyasını üzərinə götürən üç nəhəng dövlət uzun illər işğalçı ilə işğala məruz qalanın statusunu eyniləşdirməkdə, tərəflər arasında ədalətsiz şəkildə bərabərlik işarəsi qoyurdu, Ermənistana qarşı "işğalçı" sözünü işlətmirdi. Belə riyakar münasibətdən yararlanan Ermənistan da işğalçılıq siyasətinin ömrünü bacardığı qədər uzadırdı.

Amma Azərbaycanın separatizmə dözmək üçün səbri tükənməz deyildi. Artıq xalqımızın səbr kasası dolmuşdu. Uzanan "sülh" danışıqları nəticə vəd etmirdi. Nəyin bahasına olursa-olsun, ölkəmizin ərazi bütövlüyü bərpa olunmalıydı, torpaqlarımız erməni işğalından azad edilməliydi, separatizmə son qoyulmalıydı. Ölkəmizə qarşı qərəzli mövqe nümayiş etdirən, erməni separatizmini dəstəkləyən Qərb ölkələrindən Qarabağ məsələsinin həllinə kömək gözləmək isə xəlbirlə su aparmağa bənzəyirdi. Azərbaycan Prezidenti İlham Əliyev "Euronews" televiziyasına verdiyi müsahibəsində erməni separizmini dəstəkləyən Qərb ölkələrinin bizə qarşı xoş olmayan münasibətini xüsusi qabardaraq üzləşdiyimiz reallığı belə ifadə etmişdi: "İndi biz separatizmə qarşı mübarizə aparmaqda Ukraynaya kömək etmək üçün Avropa və Qərbin necə birləşdiyini görürük. Bəs bizə gəldikdə nəyə görə bizim separatizmə qarşı mübarizəmizə fərqli yanaşma sərgilənir? Nəyə görə Gürcüstanın separatçı regionları ilə bağlı yanaşması Qərb cəmiyyəti və siyasətçiləri tərəfindən tamamilə anlaşılır, lakin bizim eyni mənşədən olan separatizmə son qoymaq üçün legitim istəyimiz sual altına alınır?.. Nə üçün biz separatizmə dözməliyik? Biz bunu etməyəcəyik".

Azərbaycan dövləti dəfələrlə bəyan edib ki, Avropa İttifaqının bölgədə sülh və sabitliyin bərqərar olması, Ermənistanla sülh prosesi üzrə danışıqlara verdiyi dəstəyi yüksək qiymətləndirir. Lakin bunun əvəzində məlum Qərb ölkələrinin qərəzli mövqeyi ilə üzləşir. Torpaqlarımızın erməni işğalında olduğu 30 ilə yaxın müddət ərzində biz səsimizi qaldırıb, bir milyondan artıq insanın hüquq və azadlıqlarının pozulduğunu dilə gətirəndə, Qərb bütün deyilənləri və yazılanları qulaqardına vururdu. Ən yaxşı halda münaqişənin sülh yolu ilə həllinə çağırışlar edirdi. Nəhayət, Azərbaycan öz torpaqlarını azad etməyə başlayanda Qərb ölkələri erməni separatçılarının müdafiəsinə qalxaraq "insan hüquq və azadlıqlarının pozulması", "müharibəyə son qoyulsun" kimi çağırışlar səsləndirməyə başladılar. Təbii ki, bütün bunlar riyakarlıqdan, qərəzli münasibətdən başqa bir şey deyil. Qərb ölkələrinin yalandan yoğrulmuş separatizmi dəstəkləyən bəyanatlarına, ikiüzlü çağırışlarına, qərəzli sözlərinə özlərindən başqa kimsə inanmır.



Azərbaycan Prezidentinin bəyan etdiyi kimi, separatizmə dözmədik və Qərb ölkələrinin illərdən bəri bölgədə etməli olduğu beynəlxalq hüququ və tarixi ədaləti özümüz bərpa etdik.

Qarabağda separatizmi məhv edəndən sonra da Qərb ölkələri və onların tabeliklərində olan beynəlxalq təşkilatlar Azərbaycana qarşı qərəzli, riyakar və ikili siyasətlərini davam etdirirlər. Görünən odur ki, İkinci Qarabağ müharibəsindən sonra Azərbaycanın tək regionda deyil, bütövlükdə postsovet məkanında genişlənən nüfuzunu Qərb ölkələri həzm edə bilmirlər. Hətta anlamırlar ki, bu yanaşma Avropa İttifaqı kimi nüfuzlu qurumun Azərbaycan və Ermənistanla yekun sülh razılaşmasının əldə olunması istiqamətində təşəbbüslərinə zərbə vurur.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

## Ermənistan münasibətlərin normallaşmasına hər vəchlə mane olur

### Azərbaycanın həyata keçirdiyi siyasətin əsasında humanizmin və sülhpərvərliyin dayandığının bütün platformalardan dünya ictimaiyyətinə çatdırılması əhəmiyyətli məsələdir

Şimali Makedoniyanın paytaxtı Skopyedə keçirilən Azərbaycan tədqiqatları üzrə II Avropa Konfransında Ermənistanın və havadarlarının revanşist siyasəti və onun nəticələri barədə reallıqlar bir daha dünyaya çatdırılıb.



Konfransda çıxış edən xarici işlər naziri Ceyhun Bayramov Ermənistanın hərbi potensialını gücləndirməyə və bölgədə destruktiv fəaliyyətlə məşğul olan bəzi xarici dövlətlərin qərəzli siyasətinə diqqət çəkib. Tədbirdə belə fəaliyyətin regionda sülh və sabitliyə xidmət etmədiyi, Azərbaycanla Ermənistan arasındakı münasibətlərin normallaşmasına əngəl törətdiyi vurğulanıb.

Bu mövzu ilə bağlı qəzetimizə danışan Milli Məclisin deputatı Arzu Nağıyev bildirib ki, Azərbaycan tədqiqatları üzrə II Avropa Konfransı mühüm əhəmiyyət kəsb edir: "Avropa dövlətlərinin təhlil mərkəzlərinin də iştirakı ilə keçirilən konfransda ölkə həqiqətlərinin Xarici İşlər Nazirliyi səviyyəsində bir daha ictimaiyyətə çatdırılması zəruri idi. Çünki xüsusilə son vaxtlar bir sıra xarici dövlətlərin Azərbaycana qarşı qərəzli münasibəti, Qərbin ölkəmizin güya etnik təmizləmə aparması ilə bağlı ittihamları intensivləşib. Tədbirdə belə əsassız fikirlərlə dünya ictimaiyyətini çaşdırmağa çalışan qüvvələrə dəqiq və faktiki cavabların verilməsi təqdirəlayiqdir. Azərbaycanın apardığı uğurlu daxili və xarici siyasətin əsasında humanizmin və sülhpərvərliyin dayandığının bütün platformalardan dünya ictimaiyyətinə çatdırılması əhəmiyyətli məsələdir".

Deputat konfransda toxunulan mövzulara da diqqət çəkib. Bildirib ki, Azərbaycanın dinc quruculuq işləri və regionda sülhün bərqərar olması istiqamətində atdığı addımların əksinə olaraq, Ermənistan münasibətlərin normallaşmasına hər vəchlə mane olur: "İrəvan ona təklif olunan şərtləri qəbul etmir, sülh müqaviləsinin imzalanmasını gecikdirməyə çalışır. Digər tərəfdən, bir sıra dövlətlər də öz ambisiyaları naminə Cənubi Qafqazda "yerləşmək" üçün Ermənistanı silahlandırmaqla məşğuldurlar. Konfransda da bəzi üçüncü tərəflərin bölgədəki destruktiv fəaliyyətinin sülhə xidmət etmədiyi vurğulandı".

Arzu Nağıyevin sözlərinə görə, son iki ayda atəşkəsə tam şəkildə nail olunması Qərbin bir sıra dairələrini razı salmır: "Ona görə də çıxış yolunu Ermənistanı silahlandırmaqda görürlər. Açıq-aydın ortadadır ki, Ermənistanın hərbi potensialını gücləndirməyə çalışmaq regionda yeni müharibə ocağı yaratmaq niyyətindən doğur. Konfransda bu mövzu ilə bağlı bildirildi ki, antiterror tədbirlərindən sonra ölkəmizə qarşı qərəzli və təxribatçı ittihamlar regiona səfər edən, eləcə də Ermənistanda aktiv fəaliyyət göstərən BMT-nin ixtisaslaşmış qurumlarının nümayəndələrinin hesabat və bəyanatları ilə ziddiyyət təşkil edir. Yəni ölkəmizə qarşı qaldırılan iddiaların əsassız olduğu bir daha sübut olundu".

Deputat yekunda qeyd edib ki, istənilən beynəlxalq konfranslarda iştirakımızın məqsədi ölkə həqiqətlərini və sülhsevər siyasət yürütdüyümüzü dünyaya çatdırmaqdır: "Hər bir dövlət, eləcə də Ermənistan və himayədarları bilməlidirlər ki, biz suverenliyimizi və ərazi bütövlüyümüzü qorumaqda israrlıyıq. Ona görə də daxili və xarici siyasətimiz heç bir xarici təsir olmadan ən uğurlu formada davam etdirilir".

***Nəzrin QAFARZADƏ,***
***"Azərbaycan"***

## Paşinyan Hayastanı rusiyapərəstlərdən təmizləyir

Nikol Paşinyanın hakimiyyətə gəldikdən və postmüharibə dönəmindən sonra demokratiya adı altında ölkənin tanınmış siyasi və ictimai xadimlərinə qarşı olan repressiv vasitələrdən geniş istifadə etməsi və onları bir-bir sıradan çıxararaq zərərsizləşdirməsi heç kimə sirr deyil. O indi özünə potensial siyasi rəqib gördüklərini bir-bir həbsə atır, onları "asfalta uzatmaq"la hədələyir və bunu edir.

Hayastanın baş naziri tərəfindən indiyədək ölkənin keçmiş rəhbərliyinə qarşı silsilə cinayət işləri açılıb, bəziləri həbs olunub. Paşinyan yenə ölkədə avtoritar rejim yaratmağa cəhd göstərir. Gələcəkdə özünə rəqib olacaq və ya rəqib olma ehtimalı yaranan istənilən şəxsi korrupsiya ilə mübarizə ittihamı ilə həbs etməsi Paşinyanın əl-qolunu daha da açır.

Həbslərin bir çoxunda çox ciddi anti-Rusiya əhvalı hiss edilir. Belə ki, müxtəlif qondarma ittihamlarla həbsə atılanlar bir vaxtlar Moskvanın ən yaxın adamları hesab olunanlardır. Onlardan biri sabiq general-mayor Qriqori Xaçaturovdur. Hayastan Müdafiə Nazirliyinin sabiq korpus komandiri külli miqdarda korrupsiya işində ittiham olunur. Birinci instansiya məhkəməsinin qərarından narazı qalan dövlət ittihamçısı Q.Xaçaturov barəsində apellyasiya protesti verib. Məhkəmə iclasında vəsatət rədd edilərək barəsində zaminlik və inzibati nəzarətin tətbiq olunması barədə qərar qəbul edilib.

Qriqori Xaçaturov Ermənistan silahlı qüvvələrinin keçmiş baş qərargah rəisi, KTMT-nin keçmiş baş katibi İqor Xaçaturovun oğludur. Paşinyan hakimiyyətə gələndən sonra İqor Xaçaturovu təqib edib və onun barəsində cinayət işinin qaldırılmasını tapşırıb, vaxtından əvvəl KTMT baş katibi vəzifəsindən geri çağırıb.



Hayastan ordusunun Azərbaycanın Qazax-Tovuz-Gədəbəy rayonları ilə həmsərhəd ərazilərə cavabdeh olan 3-cü ordu korpusunun sabiq komandanı, general Qriqori Xaçaturov həmin vaxt baş qərargah rəisi olan Onik Qasparyanla birlikdə Paşinyanın istefa verməli olduğu haqda bəyanata imza atanlardan idi.

Göründüyü kimi, Paşinyan anti-Rusiya siyasəti yürüdür və Qərbdən gələn göstərişlər əsasında hərəkət edir. Açıq qeyd olunur ki, Paşinyan Hayastanın ənənəvi strateji müttəfiqi olan Rusiya ilə münasibətləri korlamaq xəttini seçib. Bu fonda Hayastanda Paşinyanı diktator hesab edənlərin sayı durmadan artır. Elə buna görədir ki, hazırda Hayastanda siyasi böhran yaşanır. Ölkədə siyasi repressiyalar güclənib və burada Paşinyanın yeganə məqsədi hakimiyyətini daha da möhkəmləndirməkdir.

Qərb institutlarının Hayastanda baş verən qanunsuzluqlara, siyasi repressiyalara, həbslərə, təqiblərə, polis zorakılığına bir dəfə də olsun münasibət bildirməməsi, hansısa bəyanat səsləndirməməsi onların öz fəaliyyətlərində əsasən ikili standartlara üstünlük verdiyini bir daha aydın göstərir.

Sabiq deputat, "Alternativ layihələr" qrupunun üzvü Elinar Vardanyan deyib ki, hakimiyyətin başlatdığı siyasi repressiyaya qarşı cəmiyyətdəki laqeydlik başadüşülən deyil. Onun sözlərinə görə, həlledici məqamlarda öz sözünü deyən vətəndaşlara qarşı həyata keçirilən "siyasi qisas" hallarını passiv şəkildə izləməyə haqqımız yoxdur: "Sünik (Zəngəzur - red.) şəhərlərinin bələdiyyə başçıları ən çətin anlarda hakimiyyətə ciddi müqavimət göstərdilər. Bu günlərdə icma rəhbərləri ilə əlaqəli təzyiqləri cəmiyyətin sükutla qarşılaması qəbuledilməzdir".

Belə vəziyyətdə Hayastanda dövlət orqanlarının və vəzifəli şəxslərin hərəkətlərini tənqid və təkzib edən, şübhə altına alan və ya başqa bir şəkildə dəyərdən salan məlumatların dərci və yayımlanması qadağan olunub. Ölkədə hakimiyyəti, hətta bələdiyyələri belə tənqidə görə yüksək cərimə tətbiq edilir. Buna görə sosial şəbəkə istifadəçiləri və jurnalistlər açıq şəkildə hakimiyyətin özbaşınalığını və cinayətlərini tənqid edə bilmirlər.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

## "Ermənistan hələ də utopiya ilə məşğuldur"

Qərbi Azərbaycan İcması Ermənistanın xarici işlər naziri Ararat Mirzoyanın Azərbaycanı "təcavüz"də, "etnik təmizləmə"də, qeyri-konstruktivlikdə ittiham edən açıqlamalarını şərh edib.

İcmadan AZƏRTAC-a daxil olan açıqlamada bildirilib ki, Ermənistan diplomatiyasının utanmaz davranışının hədd-hüdudu yoxdur. Otuz il ərzində Azərbaycan ərazilərini işğal altında saxlamış, etnik təmizləmə həyata keçirmiş, azərbaycanlıların Ermənistana qayıdış hüququnu belə inkar edən bir ölkənin rəsmisinin belə açıqlaması siyasi əxlaqsızlıqdır.

Bu həmin Ararat Mirzoyandır ki, Vətən müharibəsi zamanı oktyabr ayında başqa bir ölkənin - Azərbaycanın suveren ərazilərində dayanaraq özünə "dahi sərkərdə" siması verib "Biz güclüyük. Biz qalib gələcəyik. Ermənistan ordusuna eşq olsun" kimi açıqlamalar verirdi. 2020-ci il 10 noyabr tarixli kapitulyasiya aktından sonra erməni xalqının qəzəblənərək küçələrə tökülməsinin bir səbəbi də yəqin Ararat Mirzoyan kimilərinin Vətən müharibəsi zamanı boğazdan yuxarı açıqlamaları idi.

"Bir daha vurğulamaq istərdik ki, Ermənistanın uğursuz dövlət olmasının bir səbəbi də daşnak və mağara təfəkkürlü erməni diplomatiyasıdır. Ermənistanın son vaxtlar ortaya atdığı "Sülh kəsişməsi" təşəbbüsünə gəldikdə isə, əvvəlcə qeyd etmək istərdik ki, layihədə nəzərdə tutulan kommunikasiyaların əksəri vaxtilə bizim yaşadığımız, sonradan deportasiya edildiyimiz ərazilərdən keçir. Bundan başqa, Ermənistan uzun müddətdir ki, regionda kommunikasiyaların açılmasına mane olur və bu normativi dəyişmək, öz aləmində guya Azərbaycanın mövqeyini zəiflətmək üçün indi "Sülh kəsişməsi" kimi utopik bir ideyanı ortaya atıb. Ermənistanın bu layihəni reallaşdırmaq üçün heç bir imkanı yoxdur. Ermənistan hələ də utopiya ilə məşğuldur", - deyə icmanın məlumatında bildirilib.

## *Edmondo ÇİRİELLİ:* "Ermənistanda qatı millətçi, Qafqazda sabitliyi pozmaq məqsədi daşıyan qüvvələr var"

"Ermənistanda hələ də qatı millətçi hakim sinif, Qafqazda sabitliyi pozmaq məqsədi daşıyan qüvvələr, Ermənistanın hüdudlarından kənarda yaşayan, problemlərdən və mövcud vəziyyətdən həqiqətən xəbərsiz olan güclü erməni icmaları var. Onlar həm də insanların daha asan qəbul etdikləri səbəblərə istinad edirlər. Çünki onlar erməni diasporunun qatı millətçi və şovinist baxışlara malik övladları və nəsilləridir".

AZƏRTAC xəbər verir ki, bu fikirlər İtaliyanın xarici işlər nazirinin müavini Edmondo Çiriellinin "Formiche" qəzetinə müsahibəsində yer alıb.

Nazir müavini vurğulayıb ki, ermənilərə münasibətdə ötən əsrin əvvəllərində baş verənlərlə azərbaycanlıların heç bir əlaqəsi yoxdur, buna görə azərbaycanlılar heç bir məsuliyyət daşımırlar. Onlar, sadəcə, müsəlman olduqları üçün başqalarının günahlarına görə məsuliyyət daşıya bilməzlər.

"Üstəlik, biz yaxşı bilirik ki, Azərbaycan müsəlman dünyasının ən dünyəvi və tolerant ölkələrindən biridir. Bu, onların fərqləndirici xüsusiyyətidir. Odur ki, dindən xalqlar arasında münaqişə elementi kimi istifadə etməməyə çalışaq", - deyə E.Çirielli əlavə edib.




# Zəfər rəmzimiz, qürur ünvanımız

## Bakıda Vətən Müharibəsi Memorial Kompleksinin və Zəfər muzeyinin yaradılması qəhrəman döyüşçülərimizin qazandığı əbədi qələbəyə misilsiz töhfədir

"Elə bir gənc nəsil yetişdirdik ki, Vətən, torpaq uğrunda ölümə getməyə hazır idi və ölümə də gedirdi. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Biz onların ruhu qarşısında baş əyirik. Biz Azərbaycan xalqı olaraq onlara əbədi borcluyuq. Həm üç il bundan əvvəl, həm son üç il ərzində, həm də sentyabr ayında keçirilmiş antiterror əməliyyatı zamanı Azərbaycan əsgəri, zabiti əsl qəhrəmanlıq, vətənpərvərlik, fədakarlıq göstərmişdir. Biz Ordumuzla, Silahlı Qüvvələrimizlə fəxr edirik, onlar bizim qürur mənbəyimizdir".

2023-cü il oktyabrın 15-də Xankəndidə Azərbaycan bayrağını dalğalandıran zaman Müzəffər Ali Baş Komandan İlham Əliyevin dediyi bu sözlər ana torpağı canlarından çox sevən cəsur oğullarımızın qəhrəmanlığına verilən ən yüksək qiymətdir.

Vətən müharibəsində haqq uğrunda irəli atılan igid övladlarımız canlarını Vətənə sipər edərək qarış-qarış torpaqlarımızı azad etdilər, 44 günün hər birində bizə zəfər sevinci yaşatdılar. İgidlərimiz çıxdıqları Zəfər yolunda yağış, çovğun, çən-çiskin, şaxta bilmədən irəlilədilər, sıldırımlar aşdılar, nə üzərlərinə dolu kimi yağdırılan mərmilər, nə tikanlı məftillər onlara mane oldu. Yaralansalar belə can ağrısı hiss etmədilər, bir an belə döyüşdən çəkilmədilər, doğma torpaqdan aldıqları güclə, haqdan doğan qüvvətlə vuruşdular, çarpışdılar, düşmənin nəfəsini kəsdilər, qələbə qazandılar... Şuşadan, Qarabağın baş tacından düşmənin bağrını yaran Zəfər nərəsi çəkdilər...

Vətən sevdalı Azərbaycan oğulları 2023-cü il sentyabrın 19-20-də cəmi 23 saata suverenliyimizi bərpa etdilər, Xankəndidən, Xocalıdan, Xocavənddən, Ağdərədən, Suqovuşandan "Qarabağ Azərbaycandır" haqq nidasını hayqırdılar...

### Misilsiz qəhrəmanlığın təcəssümü

Azərbaycan xalqı olaraq böyük qəhrəmanlıqla torpaqlarımızı 30 illik işğaldan qurtaran, suverenliyimizi bərpa edən igid oğullarımızla fəxr edirik. Vətən uğrunda canlarını fəda edən şəhidlərimizin ruhuna dərin ehtiram duyur, onların əziz xatirəsini daim uca tuturuq.

Xatırladaq ki, Prezident İlham Əliyevin 2020-ci il dekabrın 3-də imzaladığı sərəncamla Bakıda Vətən Müharibəsi Memorial Kompleksi və Zəfər muzeyi yaradılır. Kompleksin və muzeyin yaradılması Azərbaycan xalqının Vətən müharibəsində göstərdiyi misilsiz qəhrəmanlığın və qazandığı möhtəşəm tarixi Zəfərin yaddaşlarda yaşadılması və ictimaiyyətə nümayiş etdirilməsi, şəhidlərimizin əziz xatirəsinin əbədiləşdirilməsi məqsədi daşıyır.

Artıq kompleksin və muzeyin layihəsi hazırdır. Layihəyə əsasən, torpaqlarımızın azad olunması uğrunda tarixi Qələbəyə gedən yolu, Vətən müharibəsində qəhrəmancasına döyüşmüş əsgər və zabitlərimizin, bütün şəhidlərimizin xatirəsini yaşatmaq məqsədilə kompleksin ərazisində muzeyin yaradılması nəzərdə tutulur. Muzey kompleksində Vətən müharibəsi şəhidlərinin hər birinin adı həkk olunacaq, burada toplanacaq eksponatlar ərazilərimizin işğaldan azad olunması uğrunda mübarizə aparan əsgər və zabitlərimizin igidliyini, xalqımızın əzmini bir daha nümayiş etdirəcək. Kompleks park ilə əhatə olunacaq.

### Birliyin rəmzi

8 Noyabr prospektində inşa olunan Zəfər parkı 9 hektardan çox ərazini əhatə edəcək. Əraziyə girişdə 44 tağ elementindən istifadə edilib. Tağlar Qələbəyə aparan rəmzi yolun başlanğıcını tərənnüm edəcək. Giriş portalındakı tağın hündürlüyü 44, eni isə 22 metr olacaq. Tağın üzərində Vətən müharibəsi qəhrəmanlarının adları həkk ediləcək. Tağın üst hissəsindəki ağac elementi böyüyən Azərbaycan, pöhrələnmə, firavanlıq, yeni həyata və Qələbəyə aparan simvolik yol təsəvvürü yaradacaq.

Zəfər muzeyinin əsas girişində yaradılacaq "dəmir yumruq" simvolunun üzərində Qələbənin tarixi qeyd ediləcək. "Dəmir yumruq" Zəfərin əsasında dayanan Lider, Xalq, Dövlət və Ordu birliyinin rəmzi olacaq. Muzeyin divarında Birinci və İkinci Qarabağ müharibələrində şəhid olmuş əsgər və zabitlərimizin adları həkk ediləcək.

Parka doğru keçid hissədə 8 Noyabr - Zəfər Gününü əks etdirən memorial abidə ucaldılacaq. Abidə iki güclü əlaməti - Zəfər Gününü və sonsuzluğun rəmzi kimi sarsılmaz birliyi təcəssüm etdirəcək. Memorial abidənin ətrafında Qarabağ xalçalarındakı naxış və bəzək elementlərini əks etdirən yaşıllıq salınacaq.

Zəfər parkında həmçinin tematik bağça, kaskad tipli şəlalə, Qarabağ yaddaş bağçası, parka ümumi baxış nöqtəsi yaradılacaq. Parkın sonunda Azadlıq Bayrağı Meydanının inşası nəzərdə tutulur. Yaddaş bağçası parkın aşağı hissəsində yaradılacaq. Bu hissəyə enən cığır hündür haşiyəli çiçək və yaşıllıqlarla əhatə olunacaq. Yaddaş bağçasının ətrafında istirahət guşələri və oturacaqlar qoyulacaq. Su hövzəsinin mərkəzində isə Azərbaycan bayrağı dalğalanacaq. Azadlıq Bayrağı Meydanına gedən yol Vətən müharibəsinin rəmzi kimi 44 bürünc döşəmədən ibarət olacaq.

Qeyd edək ki, bu il sentyabrın 27-də - Anım günündə Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Zəfər parkında aparılan işlərlə tanış olublar.

Xalqımız, dövlətimiz igid döyüşçülərimizin Vətən uğrunda apardıqları Zəfər mübarizəsində göstərdiyi hünəri daim yüksək dəyərləndirir, bu torpaq uğrunda canını qurban verən şəhidlərimizin müqəddəs haqq savaşını sonsuz minnətdarlıq hissi ilə qiymətləndirir.

Vətən sevdalı qəhrəman oğullarımız, Vətən fədailərimiz qürur mənbəyimiz, fəxr ünvanımızdır!

***Yasəmən MUSAYEVA, "Azərbaycan"***

# UNESCO forumunda Ermənistanda Azərbaycan mədəni irsinin dağıdılmasından danışılıb

Qərbi Azərbaycan İcmasının nümayəndəsi UNESCO-nun İrqçiliyə və ayrı-seçkiliyə qarşı 3-cü Qlobal Forumunda iştirak edib. Bu barədə AZƏRTAC-a Qərbi Azərbaycan İcmasından məlumat verilib.

Bildirilib ki, İcmanın Qadınlar Şurasının sədri, Azərbaycan Respublikasının Milli Məclisinin deputatı Məlahət İbrahimqızı UNESCO-nun İrqçiliyə və ayrı-seçkiliyə qarşı 3-cü Qlobal Forumunda Qərbi Azərbaycan İcmasını təmsil edib.

Noyabrın 29-dan dekabrın 1-dək Braziliyanın San-Paolo şəhərində keçirilmiş forumda UNESCO üzv dövlətlərinin yüksək səviyyəli rəsmiləri, qeyri-hökumət təşkilatlarının nümayəndələri və ekspertlər iştirak ediblər. M.İbrahimqızı tədbirdə panelist qismində çıxış edib və Ermənistandan azərbaycanlıların didərgin salınması, bunun irqi ayrı-seçkilik aspektləri barədə məlumat verib, irqi ayrı-seçkiliyə qarşı mübarizə sahəsində beynəlxalq səylərin, o cümlədən UNESCO forumunun əhəmiyyətini qeyd edib.

İrqi ayrı-seçkiliyin ən mənfur formalarından birinin mədəni irsə qarşı hücumlar olduğunu diqqətə çatdıran M.İbrahimqızı Ermənistanda Azərbaycan mədəni irsinin dağıdılması barədə ətraflı məlumat verib. O, çıxışında mədəni irsin qorunması sahəsində UNESCO-nun rolunu qeyd edərək, bu qurumun Ermənistandakı Azərbaycan mədəni irsinin vəziyyətini hərtərəfli qiymətləndirmək üçün Ermənistana missiya göndərməyə dair İcmanın çağırışını yeniləyib.

İcmanın nümayəndəsi etnik və mədəni müxtəlifliyin qorunduğu, bütün insanların ləyaqət və sülh şəraitində yaşayacağı, irqçilik və ayrı-seçkiliyə yer olmayan dünya uğrunda UNESCO ilə əməkdaşlığa hazır olduğunu bildirib.

M.İbrahimqızı tədbir çərçivəsində üzv dövlətlərin və beynəlxalq təşkilatların yüksək səviyyəli nümayəndələri ilə də görüşlər keçirib.

Qərbi Azərbaycan İcmasının forumda iştirakı onun öz insan haqları gündəliyinin beynəlxalq aləmdə irəlilədilməsi istiqamətində mühüm addımdır. İcma Ermənistandan qovulmuş azərbaycanlıların qayıdış hüququnun müvafiq beynəlxalq formatlarda təqdim edilməsi istiqamətində səylərini davam etdirəcək.



# Azərbaycan-BƏƏ: həmrəyliyə və etimada əsaslanan tərəfdaşlıq

**Bu gün Azərbaycanın xarici siyasətində müxtəlif qitələrdən olan, müxtəlif dinə və inanca, irqə malik olan böyüklü-kiçikli dövlətlərlə əlaqələrə xüsusi önəm verilir. Onların arasında elə ölkələr var ki, Azərbaycanla daha sıx əməkdaşlığa malikdirlər və birgə layihələri, inkişaf planlarını uğurla həyata keçirirlər.**

Üstəlik ölkənin ərazisinə, iqtisadi infrastrukturuna, əhalisinin sayına və qonaqpərvərliyinə görə Azərbaycana daha yaxın ölkə də var. Belə bir gözəl diyar ərəb dünyasının parlaq günəşi, dünya turistlərinin can atdığı Birləşmiş Ərəb Əmirliyidir. Vaxtilə dəvə karvanlarının, balıqçı qayıqlarının gözə dəydiyi bu məmləkətdə indi başqa bir mənzərə, qaynar həyat canlanır. Ərəblər Tanrının lütfü ilə onlara bəxş edilmiş zəngin yeraltı sərvətləri qısa zaman kəsiyində mənəvi və maddi kapitala, resurslara çevirə bildilər.

Bu ölkə beynəlxalq hava və su yollarının kəsişməsində, mühüm logistika marşrutlarının üzərində yerləşdiyinə görə də xüsusi əhəmiyyət kəsb edir. Bu gün son texnoloji nailiyyətləri şaxələndirilmiş iqtisadiyyat sahələrinə tətbiq etməyə çalışan BƏƏ bu sahədə böyük uğurlar qazanmışdır. Son illər Prezident Şeyx Məhəmməd bin Zayed Al Nəhyanın rəhbərliyi ilə Birləşmiş Ərəb Əmirliyi mühüm uğurlara imza atmış, ciddi texnoloji nailiyyətlər əldə etmişdir.

Bununla belə BƏƏ iqtisadiyyatı dövlət gəlirlərinin əksəriyyətini və demək olar ki, bütün valyuta gəlirlərini, habelə ticarət və təkrar ixracı təmin edən xam neft və qazın istehsalı və ixracına əsaslanır. Neft hasilatı sutkada təqribən 2,2 milyon barel səviyyəsində qiymətləndirilir ki, onun da böyük hissəsi Əbu-Dabi əmirliyində hasil edilir.

2022-ci ilin məlumatına görə, BƏƏ ümumi daxili məhsulun həcminə (503,9 milyard dollar) görə dünyada 32-ci, adambaşına düşən ümumi daxili məhsulun miqdarına (47,793 dollar) görə isə dünyada 20-ci yerdədir.

Əmirliyin İqtisadiyyat Nazirliyinin məlumatına görə, 2023-cü ilin birinci rübündə BƏƏ-də iqtisadi artım 3,8 faiz təşkil edib və ümumi daxili məhsul 113,9 milyard dollara yüksəlmişdir.

Bu ilin ilk altı ayında BƏƏ ümumi daxili məhsulda 3,7 faiz artım əldə edib ki, bu da Körfəz ölkələrində bu sahədə ən yüksək artım sürəti deməkdir. Bu, iqtisadiyyatın qeyri-neft sektorunda 5,9 faizə çatan əhəmiyyətli artım templəri ilə əlaqədardır.

BƏƏ iqtisadiyyatında qeyri-neft sektorunun payı təqribən 70 faizdir ki, bu da hökumətin iqtisadiyyatın şaxələndirilməsi üzrə səylərinin uğurunun sübutudur. BƏƏ-nin turizm sektorunun davamlı artımı və 300 milyardlıq sənaye strategiyası və Əbu-Dabi Sənaye Strategiyası kimi təşəbbüslər vasitəsilə ölkənin sənaye bazasının inkişafı qeyri-neft sektorunun yüksək sürətlə böyüməyə davam etməsini təmin etmişdir.

Nəqliyyat və depolar, anbar bölmələri iqtisadiyyata 21,8 milyard dirhəm töhfə verərək ən yüksək faiz artımını təmin etdi. Bu, illik hesablamada təxminən 11 faiz çoxdur. 2023-cü ilin birinci yarısında Dubay iqtisadiyyatı isə ötən ilin müvafiq dövrü ilə müqayisədə 3,2 faiz artıb.

BƏƏ-nin hazırkı iqtisadi göstəriciləri artan regional və qlobal gərginliyə baxmayaraq, ölkə iqtisadiyyatının yeni sektorlarına investisiyalar sayəsində gözləntiləri üstələyib. Məlumata görə, ərəb dünyasının ikinci ən böyük iqtisadiyyatı olan BƏƏ davamlı inkişafa və qlobal miqyasda iqlimə nəzarət edəcək və ölkənin gələcək inkişafını müəyyən edəcək əsas sənaye sahələrinin inkişafına sərmayə qoymağa davam edəcək.

Birləşmiş Ərəb Əmirlikləri Azərbaycan Respublikasının dövlət müstəqilliyini 1991-ci il dekabrın 26-da tanımış, 1992-ci il sentyabrın 1-də ölkəmizlə diplomatik münasibətlər qurmuşdur. İki ölkə arasında əlaqələrin inkişafında dövlət liderlərinin şəxsi münasibətlərinin və qarşılıqlı səfərlərinin böyük rolu olmuşdur. Məhz Ümummilli Lider Heydər Əliyev və Şeyx Zayed bin Sultan Al Nəhyan tərəfindən əsası qoyulmuş BƏƏ-Azərbaycan ikitərəfli əlaqələri ildən-ilə inkişaf edir.

Prezident İlham Əliyev hakimiyyətə gələndən sonra dünyanın müxtəlif ölkələri ilə qarşılıqlı münasibətləri davam etdirdi və onu keyfiyyətcə yeni mərhələyə yüksəltdi. Prezident İlham Əliyevin təşəbbüsü ilə başlanan "Bakı Prosesi" müsəlman ölkələri ilə Avropa dövlətlərini bir araya gətirməklə mədəniyyətlərarası dialoqun dünya miqyasında təbliğinə güclü təkan verib. Bu proses çərçivəsində Azərbaycan tərəfindən iki ildənbir Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu təşkil edilir. Bütövlükdə bu proses çərçivəsində də ərəb dünyası ilə, xüsusilə BƏƏ ilə münasibətlər daha müntəzəm və faydalı hal almışdır.

Təsadüfi deyil ki, Prezident İlham Əliyev cari ilin yanvarında Birləşmiş Ərəb Əmirliklərinə işgüzar səfəri zamanı qarşılıqlı münasibətlərin inkişafından razı qaldığını vurğulamışdır. O, cari ilin martında Birləşmiş Ərəb Əmirliklərinin Ali Şurasının üzvünü qəbul edən zaman da qarşılıqlı əməkdaşlığın müsbət məcrada inkişafını vurğulamışdı.

Bu il oktyabrın 28-də Prezident İlham Əliyevin Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyana zəng edib müəyyən məsələləri müzakirə etməsi də qarşılıqlı əlaqələrin qaynarlığından xəbər verir. Xüsusilə bu danışıqlar zamanı investisiyalar, iqtisadi-ticari əlaqələrin genişləndirilməsi, bərpaolunan enerji, turizm və digər sahələrdə əməkdaşlıq məsələləri müzakirə olunmuşdu.

BƏƏ həmçinin BMT, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı və digər təsisatlar çərçivəsində də Azərbaycanla əməkdaşlıq edir və digər beynəlxalq kürsülərdən xalqımızın haqq işinin müdafiə olunmasında istifadə edir. Xüsusilə BMT Təhlükəsizlik Şurasında Cənubi Qafqaz regionuna aid müzakirələrdə BƏƏ-nin Azərbaycana dəstəyi təqdirəlayiq haldır.

Son illər ərzində Azərbaycan ilə BƏƏ arasında siyasi, iqtisadi, təhlükəsizlik və digər sahələrdə sıx əməkdaşlığın həyata keçirilməsi müsbət haldır. Prezident İlham Əliyevin Əbu-Dabidə keçirilən Dayanıqlılıq Həftəsinin 2023-cü il üzrə rəsmi açılış mərasiminə dəvət edilməsi Birləşmiş Ərəb Əmirlikləri tərəfindən Azərbaycanın dövlət başçısına etimadın yüksək təzahürüdür. Xatırladaq ki, ötən il keçirilmiş Əbu-Dabi Davamlılıq Həftəsində150 ölkədən yüksək səviyyəli nümayəndə heyətləri iştirak etmişdi.

Qeyd etmək lazımdır ki, Dubayda Azərbaycan Ticarət Evinin fəaliyyət göstərməsi qarşılıqlı ticarət dövriyyəsinin artmasına münbit zəmin yaradır. Eyni zamanda Azərbaycan Ticarət Evi müxtəlif sahələr üzrə Azərbaycana dair müfəssəl məlumat təminatı rolunu oynayır. Qiymətləndirmələr göstərir ki, Ticarət Evinin fəaliyyəti BƏƏ-yə qeyri-neft ixracatını artıracaq. Burada 600-dən artıq Azərbaycan məhsulu mövcuddur. Əlavə edək ki, bizim ölkəmiz Birləşmiş Ərəb Əmirliklərində təşkil edilən investisiya forumlarının fəal iştirakçılarından biridir. Azərbaycanın iqtisadi həyatında 233 BƏƏ investisiyalı şirkət fəaliyyət göstərir.

Bu gün Azərbaycan nəinki öz enerji tələbatlarını təmin edir, o cümlədən xam nefti, neft məhsullarını, təbii qazı, neft-kimya məhsullarını və elektrik enerjisini ixrac edir. Bərpaolunan enerji ilə bağlı proqram tamamilə fərqli gündəliyə malikdir. Əməkdaşlığımızın möhkəm hüquqi bazası vardır. Bu günədək iki ölkə arasında 40-dan çox sənəd və saziş imzalanmışdır. Bu sənədlər əməkdaşlıq üçün yeni imkanlar açır.

Ölkələrimiz arasında iqtisadi əlaqələr yüksək səviyyədədir. Azərbaycan Respublikası Hökuməti ilə Birləşmiş Ərəb Əmirlikləri Hökuməti arasında iqtisadi, ticarət və texniki əməkdaşlıq üzrə birgə Hökumətlərarası Komissiya fəaliyyət göstərir.

Ölkələrimiz arasında ticarət və investisiya sahəsində əməkdaşlığın inkişafı üçün bir sıra mexanizmlər tətbiq olunur. Azərbaycanın Birləşmiş Ərəb Əmirliklərində ticarət nümayəndəsi və Dubayda Azərbaycan Ticarət Evi fəaliyyət göstərir. Ölkəmiz Birləşmiş Ərəb Əmirliklərində təşkil edilən investisiya forumlarının fəal iştirakçılarından biridir.

BƏƏ-nin ölkəmizə yatırdığı 2,1 milyard dollarlıq investisiyanın 1,3 milyard dolları neft sektoruna, 806 milyon dolları isə qeyri-neft sektoruna yönəldilib. Azərbaycan tərəfindən isə BƏƏ-yə 330 milyon dollar sərmayə yatırılıb. Hazırda Azərbaycanda 300-ə yaxn BƏƏ şirkəti fəaliyyət göstərir".

Azərbaycan BƏƏ-yə əsasən meyvə, meyvə şirələri, qoz-fındıq, qida və metal məhsullar ixrac edir. BƏƏ isə Azərbaycana əsasən elektronika, yüksək texnologiya məhsulları, tikinti materialları və sənaye məhsulları, o cümlədən polietilen polimer, mebel, maşın hissələri ixrac edir.

Birləşmiş Ərəb Əmirliklərinin iş adamlarının Azərbaycanda yaradılmış əlverişli biznes və investisiya mühitindən yararlanması onları sənaye zonalarına investisiya yatırmağa sövq edir. Xoş haldır ki, hər iki ölkənin Dördüncü Sənaye İnqilabı Mərkəzləri şəbəkəsinə qoşulması da bu sahədə əməkdaşlıq üçün yeni perspektivlər açır.

Dövlətimizin başçısı Qaradağ Günəş-Elektrik Stansiyasının Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkəti tərəfindən Azərbaycanda inşa olunmasının önəmini qeyd edib. 230 meqavat gücündə olan stansiya regionda ən böyük günəş-elektrik stansiyası və Azərbaycanda xarici sərmayə ilə tikilən ilk bərpaolunan enerji stansiyasıdır. Həmçinin Qaradağ Günəş-Elektrik Stansiyası Xəzər regionunda və MDB məkanında ən böyük günəş-elektrik stansiyasıdır. Stansiya 262 milyon ABŞ dolları dəyərində xarici sərmayə hesabına tikilib. "Masdar" ilə aparılan əməkdaşlıq Azərbaycanı "yaşıl enerji"nin çox mühüm ixrac mənbəyinə çevirəcəkdir.

Prezident İlham Əliyev tərəfindən təsdiqlənmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" yaxın 10 ildə ölkəmizin sosial-iqtisadi inkişafına dair 5 milli prioriteti əsas götürüb: dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat; dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət; rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı; işğaldan azad olunmuş ərazilərə Böyük qayıdış; təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi. Bütün bu sahələrdə səmərəli fəaliyyət üçün etibarlı tərəfdaş ölkələrə böyük ehtiyac yaranır. Belə ölkələrdən biri BƏƏ-dir.

İki ölkə arasında hərbi sahədə də əməkdaşlıq inkişaf edir. Bu ilin fevralında Əbu-Dabidə keçirilmiş "İDEX-2023" Beynəlxalq Müdafiə Sərgisi və Konfransında Azərbaycan Müdafiə Sənayesi Nazirliyinin nümayəndə heyəti də iştirak etdi. Turizm sahəsində də əlaqələr durmadan davam edir. Azərbaycana ən çox turistin gəldiyi ölkələrdən biri də məhz BƏƏ-dir. Azərbaycanda da əsas səfər istiqamətlərindən biri kimi Dubay hələ də öz populyarlığını saxlayır.

Əminliklə demək olar ki, Azərbaycanın BƏƏ ilə münasibətləri qarşılıqlı etimada və maraqlara əsaslanır. Bu münasibətlər tərəfdaşlıq səviyyəsinə yüksələrək strateji sahələri də əhatə edir. İnanırıq ki, bu iki müsəlman, dost ölkənin münasibətləri digər ölkələr üçün də nümunə olacaqdır.

***Atamoğlan MƏMMƏDLİ, BDU-nun dosenti***

# Laçında Şərqi Zəngəzur və Qarabağın ən böyük məscidlərindən biri tikilir

## Bu, vəhşilikləri sərhəd bilməyən erməni vandalları ilə fərqimizin müqəddəs abidəsi olacaq

Təcavüzkar Ermənistan 30 illik işğal dövründə Qarabağda və Şərqi Zəngəzurda bütün tarixi və mədəni abidələrimizi məhv etmiş, məscidlərimizi, məbədlərimizi dağıdaraq xalqımızın milli-mənəvi dəyərlərini Yer üzündən silmək istəmişdir. Həmçinin Azərbaycana məxsus mədəni və dini mülkiyyətimiz talan edilərək Ermənistana daşınmışdır.



Rəsmi məlumatlara görə, işğal altındakı torpaqlarımızda mövcud olan tarixi-dini abidələrin sayı 403-dür. Onlardan 67-si məscid, 144-ü məbəd, 192-si ziyarətgahdır. Vaxtilə Qarabağ və Şərqi Zəngəzur ərazilərində fəaliyyət göstərmiş 67 müsəlman məscidinin (Şuşada 13, Ağamda 5, Füzulidə 16, Zəngilanda 12, Cəbrayılda 5, Qubadlıda 8, Laçında 8) 63-ü tamamilə, 4-ü isə qismən dağıdılaraq yararsız hala salınmışdır.

Bütün bu dini abidələr Azərbaycan xalqının milli-mədəni irsidir. Yüz illəri adlayıb gələn bu abidələri yox etməyə çalışan erməni xislətindəki iyrəncliyin həm islam dininə, həm də islam ölkələrinə bir ləkə olduğunu bildirən Prezident İlham Əliyev demişdir: "Zəngilanın işğaldan azad edilmiş ərazilərinə səfərim zamanı mən tamamilə dağıdılmış məscidə baş çəkdim. Şuşada onlar bütün məscidləri tamamilə dağıdıblar, bir məsciddən başqa. O da yarımçıq dağıdılmışdı, lakin sonra islama aid mədəni və dini məkanları qoruduqlarını nümayiş etdirmək adı altında onlar bəzi təmir işləri görməyə çalışmışdılar. Əfsuslar olsun ki, bir xarici şirkət bu təxribatçı təşəbbüsə qoşulmuş və bizim icazəmiz olmadan qanunvericiliyimizi, sərhədlərimizi pozaraq Şuşaya gəlmişdi. Həmin xarici şirkət Azərbaycan hökumətinin icazəsi olmadan, Dağlıq Qarabağda həmin vaxt mövcud olan qanunsuz rejimin himayədarlığı altında bəzi təmir işləri görmüşdü. Beləliklə, onlar cinayətkarlarla əlbir oldular, çünki ermənilər işğal edilmiş ərazilərdə, demək olar ki, 70 məscidi dağıdıblar".

Şübhəsiz, ermənilərin barbarlığı adi müharibə cinayəti deyil. Onlar bunu məqsədli şəkildə ediblər. Qarabağda məscidlərin dağıdılması, təhqir edilməsi islam dininə qarşı ən böyük cinayətdir. Erməni vəhşiliyinin bir sübutu da onların qəbirləri söküb sümükləri daşıyıb aparmasıdır. Dövlət başçısının da söylədiyi kimi, onlar bu goreşənliyi Azərbaycan mədəniyyətinin izini itirmək, Qarabağ torpaqlarını yaddaşımızdan silmək və həmin ərazilərin mənşəyini dəyişdirmək məqsədilə ediblər.

Hayların 30 ildə törətdikləri vəhşilik təkcə məscidləri dağıtmaqla bitməyib. Onlar Şuşada Vaqifin məqbərəsi, Bülbülün ev muzeyi, Qaraağac qəbiristanlığındakı yerli əhəmiyyətli memarlıq abidəsi olan Uğurlu bəyin türbəsi də daxil olmaqla XIX əsrə aid 4 türbəni də tamamilə məhv etmişlər. Ağdam şəhərində yerləşən Pənahəli xanın və Mehdiqulu xanın türbələri dağıdılmış, İbrahimxəlil xanın türbəsi yerlə yeksan olunmuş, Kəlbəcərdə XIII əsrə aid Xudavəng monastırının mədəniyyət nümunələri və qədim əlyazmalar, habelə Ağdam rayonunun Şahbulaq qalası yaxınlığında qanunsuz arxeoloji qazıntılar zamanı tapılan qiymətli mədəniyyət nümunələri Ermənistana daşınmış, məşhur Azıx mağarasında qanunsuz qazıntılar aparılmışdır.

Nə yaxşı ki, işğaldan azad edilmiş ərazilərə həyat yenidən qayıdır. Zəfərdən dərhal sonra Heydər Əliyev Fondu Qarabağ ərazisində olan dini abidələrin, məscidlərin bərpası üzrə layihəyə start verib. Layihə çərçivəsində yerli və xarici mütəxəssislərin iştirakı ilə bölgədəki məscidlər bərpa olunur və yenidən qurulur.

Ötən 3 ildə Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva azad Qarabağdakı məscidləri dəfələrlə ziyarət etmiş, bərpa işlərinin gedişi ilə maraqlanmış, lazımi tapşırıqlarını və tövsiyələrini vermişlər.

Azad olunmuş ərazilərdə dağıdılmış ibadət yerlərinin bərpası, yenidən qurulması ilə yanaşı, yeni məscidlər də tikilir. Belə inanc yerlərindən biri hazırda Laçın şəhərində tikilir. Bu məscid layihəyə əsasən Qarabağ və Şərqi Zəngəzurda ən böyük məscidlərdən biri olacaq. Məscid kompleksinin ərazisi 1 hektara yaxın ərazini əhatə edəcək. "Laçın Abadlıq Xidməti" ASC-nin direktor müavini Elnur Abdullayevin dediyinə görə, relyefə uyğun inşa edilən məscid iki mərtəbədən ibarət olacaq. Birinci mərtəbədə texniki otaqlar yer alacaq. İkinci mərtəbə isə birbaşa məscidin qarşısındakı eyvana açılacaq ki, bu da dindarların rahat ibadəti üçün məscidə girişi təmin edəcək. Məsciddə qadınlar və kişilər üçün ayrıca ibadət zalları, dəstəmaz otaqları olacaq. 600 kvadratmetrə yaxın sahəsi olacaq məscid binası 16 metr hündürlükdə bir günbəz və hər biri 24 metr hündürlükdə iki minarə ilə layihələndirilib. Məscid şəhərin hər yerindən görünəcək və azan səsinin şəhər ərazisinə daha rahat yayılmasına imkan yaranacaq. Məscid şəhərin qərb hissəsində girişdə magistral yolun kənarında yerləşir ki, bu da şəhərə gələn turist və qonaqların burada rahat ibadət etməsi üçün nəzərdə tutulub.

Onu da deyək ki, erməni vandalları Qarabağda müsəlman ibadət yerləri ilə yanaşı, xristian ziyarətgahlarına qarşı da vəhşilik törətmişlər. O sıradan 1894-cü ildə Xocavənd rayonunda tikilmiş rus provaslav kilsəsi erməni vəhşiliyinin qurbanı olmuşdur. Rayonun Tuğ kəndində yerləşən İohann kilsəsində isə ermənilər dəyişikliklər etmək istəmişlər. Onlar həmçinin Laçın rayonunda yerləşən Alban (Qafqaz) Apostol Müstəqil kilsəsinə əl gəzdirmişlər. Amma həmin ibadətgahlar -Tuğdakı qədim Alban məbədi, Laçın rayonundakı "Ağoğlan" monastırı artıq bərpa edilərək ziyarətçilərin ixtiyarına verilmişdir.

***Züleyxa ƏLİYEVA,***
***"Azərbaycan"***

# *Fu HUA:* "Sinxua və AZƏRTAC müasir çağırışlar fonunda əməkdaşlığı daha da dərinləşdirməlidir"

Çinin Quancou şəhərində keçirilən 5-ci Dünya Media Sammitində iştirak edən Azərbaycan nümayəndə heyətinin dekabrın 2-də Çinin Sinxua Xəbər Agentliyinin prezidenti Fu Hua ilə görüşü olub.




AZƏRTAC xəbər verir ki, görüşdə qarşılıqlı dostluq və etimad prinsiplərinə əsaslanan Azərbaycan-Çin münasibətlərinin illərin sınağından keçdiyi və möhkəm təməl üzərində qurulduğu vurğulanıb, dövlətlərimizin başçıları İlham Əliyevin və Si Cinpinin səyləri nəticəsində münasibətlərimizin dinamik, hərtərəfli inkişaf dövrünü yaşadığı və keyfiyyətcə yeni səviyyəyə yüksəldiyi diqqətə çatdırılıb.

Ölkələrimizin dostluq münasibətlərinin inkişafında AZƏRTAC və Sinxuanın əvəzolunmaz rol oynadığını vurğulayan Fu Hua rəhbərlik etdiyi agentliyin AZƏRTAC ilə əlaqələrin daha da genişlənməsinə böyük əhəmiyyət verdiyini diqqətə çatdırıb. O, iki agentliyin artıq neçə illərdir bir çox istiqamətdə uğurla əməkdaşlıq etdiyini vurğulayaraq müasir çağırışlar fonunda əməkdaşlığın, xüsusən də xəbər mübadiləsi sahəsində daha da dərinləşdirilməsi zərurətinin yarandığını deyib. Sinxua prezidenti Azərbaycanın və Çinin media qurumlarının iqtisadi mövzularda sıx xəbər mübadiləsinin ölkələrimizin iqtisadi-ticari əməkdaşlığına töhfə verdiyini, iki ölkənin müvafiq sahədə dövlət və özəl sektor üçün faydalı məlumat mənbəyi rolunu oynadığını deyib.

Fu Hua Sinxuanın təşəbbüs və layihələrində AZƏRTAC-ın yaxından iştirakını məmnunluqla vurğulayıb, Quancou şəhərində keçirilən 5-ci Dünya Media Sammitində Azərbaycan nümayəndə heyətinin iştirakına görə təşəkkür edib.

Azərbaycan Dövlət İnformasiya Agentliyinin - AZƏRTAC-ın İdarə Heyətinin sədri Vüqar Əliyev ölkələrimiz arasında münasibətlərin bütün sahələrdə olduğu kimi, media sahəsində də qarşılıqlı faydalı şəkildə inkişaf etdiyini bildirib.

AZƏRTAC və Sinxua arasında əməkdaşlığın bu il 20 illiyinin tamam olduğunu diqqətə çatdıran V.Əliyev xəbər və təcrübə mübadiləsinin, layihələrdə birgə iştirakın, beynəlxalq platformalarda qarşılıqlı dəstəyin agentliklərimizin sıx əməkdaşlığının göstəricisi olduğunu deyib. O, AZƏRTAC ilə Sinxuanın media sahəsində əməkdaşlığının nümunəvi xarakter daşıdığını, işbirliyinin daha da dərinləşdirilməsi üçün qarşılıqlı səfərlərin və birgə tədbirlərin əhəmiyyətini vurğulayıb.

Azərbaycan nümayəndə heyətinə Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov, Prezident Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsinin Xarici media ilə iş sektorunun müdiri Orxan Səttarov daxildir.

# Moskva Dövlət Universitetinin Bakı filialında "Açıq qapı" günü olub

Dekabrın 2-də M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin (MDU) Bakı filialında 2024-2025-ci tədris ili üçün bu ali məktəbə qəbulun şərtləri və qaydaları ilə tanışlıq məqsədilə "Açıq qapı" günü keçirilib. Tədbirə 800-dən çox şagird qatılıb.



AZƏRTAC xəbər verir ki, tədbiri açan MDU-nun Mexanika-riyaziyyat fakültəsinin Ümumi topologiya və həndəsə kafedrasının müdiri, fizika-riyaziyyat elmləri doktoru, professor Yuri Sadovniçiy bu ali təhsil müəssisəsinin Rusiyada xüsusi statusu və özünün təhsil proqramı olduğunu bildirib. O, diqqətə çatdırıb ki, əgər digər ali məktəblər tələbə qəbulunu vahid dövlət imtahanı əsasında həyata keçirirlərsə, Moskva Dövlət Universiteti tələbə qəbulunu özünün qəbul imtahanına əsasən həyata keçirir. MDU-nun diplomları Rusiyada və dünyanın hər yerində tanınır. MDU Rusiyanın ən yaxşı ali təhsil müəssisələrindən biri olduğu kimi, onun Bakı filialı da Azərbaycanda ən yaxşı ali təhsil müəssisələrindən biridir.

Y.Sadovniçiy həmçinin 15 il bundan öncə Azərbaycan Respublikası Prezidentinin Bakı şəhərində M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin filialının açılması haqqında sərəncam imzaladığını xatırladıb. Qeyd edilib ki, əgər 2008-ci ildə Bakı filialı üç fakültə - Tətbiqi riyaziyyat, Kimya və Filologiya fakültələri ilə fəaliyyətə başlamışdısa, sonralar Psixologiya, İqtisadiyyat və Fizika fakültələri də açılıb. Filialın bütün fakültələri üzrə magistratura təhsili almaq mümkündür. Ali təhsil müəssisəsinin bu və digər uğurları MDU-nun Bakı filialının rektoru akademik Nərgiz Paşayevanın böyük xidmətləri sayəsində reallaşıb. Filial təkcə təhsil müəssisəsi deyil, eyni zamanda Azərbaycanda nüfuzlu elmi-tədris mərkəzidir. Yəni burada elmi tədqiqatlar da aparmaq mümkündür.

2012-ci ildən etibarən Bakı filialında tədris Xocəsəndə yerləşən mükəmməl kampusda aparılır. Burada tələbələrin təhsili və istirahəti üçün hər cür şərait yaradılıb. Tədris rus dilində, əyani təhsil formasında, M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin tədris planları və proqramları əsasında müasir innovasiya texnologiyaları və tədris üsullarının tətbiqi ilə keçirilir. Məzunlara dünyada tanınan M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin diplomu verilir.

Yuri Sadovniçiy daha sonra "Açıq qapı" günündə iştirak edən professor-müəllim heyətini təqdim edib.

"Açıq qapı" günündə Qəbul komissiyasının məsul katibi, Mexanika-riyaziyyat fakültəsinin Diferensial həndəsə və tətbiqlər kafedrasının dosenti, fizika-riyaziyyat elmləri namizədi Denis İlyutko qəbul qaydaları haqqında ətraflı məlumat verib.

Tədbirdə filologiya elmləri namizədi, MDU-nun Filologiya fakültəsinin İber-roman dilçiliyi kafedrasının dosenti Anna Urjumtseva, Tətbiqi-riyaziyyat fakültəsinin elmi-tədris işinin əlaqələndirilməsinə məsul, MDU-nun Bakı filialının Mexanika-riyaziyyat fakültəsinin Ümumi topologiya və həndəsə kafedrasının assistenti, fizika-riyaziyyat elmləri namizədi Nina Slavina, Fizika fakültəsinin elmi-tədris işinin əlaqələndirilməsinə məsul, Ümumi fizika kafedrasının professoru, fizika-riyaziyyat elmləri doktoru Aleksandr Saletskiy, Kimya fakültəsinin elmi-tədris işinin əlaqələndirilməsinə məsul, Fiziki kimya kafedrasının aparıcı elmi işçisi, kimya elmləri namizədi Yekaterina Altova, İqtisadiyyat fakültəsinin elmi-tədris işinin əlaqələndirilməsinə məsul, Dünya iqtisadiyyatı kafedrasının dosenti, iqtisad elmləri namizədi Ceyhun Hüseynov, Psixologiya fakültəsinin elmi-tədris işinin əlaqələndirilməsinə məsul, Psixologiya fakültəsinin Ümumi psixologiya kafedrasının baş müəllimi Leonid Babanin çıxış ediblər.

Diqqətə çatdırılıb ki, Bakı filialının Kimya və Fizika fakültələrinin laboratoriyaları ən müasir avadanlıqla təchiz edilib. Tələbələr nəzəriyyə ilə yanaşı, təcrübi biliklərə ən yüksək səviyyədə nail olurlar. Filialın elmi-tədqiqat işi müasir elektron kitabxananın bazası, habelə ən qabaqcıl avadanlıqlarla təchiz edilmiş laboratoriyalar və linqafon kabinet əsasında aparılır.

Vurğulanıb ki, məzunlar Azərbaycanda və xaricdə müxtəlif nüfuzlu qurumlarda çalışırlar.

"Açıq qapı" günündə çıxış edənlər tədbir iştirakçılarının çoxsaylı suallarını cavablandırıblar. Sonra onlara xüsusi avtobuslarda Xocəsəndə MDU-nun Bakı filialının kampusuna getmək imkanı yaradılıb. Bu məkanda həmçinin MDU-nun Bakı filialının məzunları uğurla karyera təcrübələrini bölüşüblər.

Beləliklə, tədbir iştirakçıları bu ali təhsil müəssisəsinin Filologiya, Tətbiqi riyaziyyat, Kimya, Psixologiya, İqtisadiyyat və Fizika fakültələrində bakalavr və magistr hazırlığı ilə bağlı hərtərəfli məlumat əldə ediblər.

# Beynəlxalq Əlilliyi olan Şəxslər Gününə həsr edilmiş uşaq festivalı keçirilib

Dekabrın 2-də "Regional İnkişaf" İctimai Birliyi, Sosial Xidmətlər Agentliyi və Zirə Mədəniyyət Mərkəzinin və ekoparkın birgə təşkilatçılığı ilə 3 Dekabr - Beynəlxalq Əlilliyi olan Şəxslər Gününə həsr edilmiş uşaq festivalı keçirilib.

AZƏRTAC xəbər verir ki, festival sağlamlıq imkanları məhdud uşaqların cəmiyyətə inteqrasiyası, xüsusi bacarıqlarının inkişafına dəstək verilməsi və potensiallarının üzə çıxarılması, eyni zamanda əlil şəxslərə qarşı bərabərsizliyin, cəmiyyətdə olan stereotiplərin aradan qaldırılması məqsədilə təşkil edilib.

Tədbirin açılışında çıxış edənlər bu günün beynəlxalq səviyyədə qeyd olunmasının əhəmiyyətinə toxunub, əlilliyi olan şəxslərə dövlət tərəfindən göstərilən diqqət və qayğıdan, bu istiqamətdə ictimai birliklərin üzərinə düşən vəzifələrdən, ölkədə inklüziv cəmiyyətin inkişafına yönəlmiş sosial layihələrdən danışıblar. Xüsusilə də əlilliyi olan uşaqlara bərabər imkanların yaradılmasının, onların istedad və bacarıqlarının inkişaf etdirilməsinin və davamlı dəstəklənməsinin vacibliyi diqqətə çatdırılıb.

Sonra "Ümid var" Yaradıcılıq Qrupunun və Sosial Xidmətlər Agentliyinin 1 saylı 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslər üçün sosial xidmət müəssisəsinin uşaqlarının ifasında milli rəqs nümunələri və səhnəciklər nümayiş olunub, müxtəlif sahələrdə uğur qazanmış simaların uğur hekayələri dinlənilib.

Tədbir gülçülük, rəssamlıq, xalçaçılıq və digər sahələr üzrə masterklaslar, həmçinin şahmat müsabiqəsi ilə davam etdirilib, uşaqlara xoş əhvali-ruhiyyə bəxş edən musiqili-əyləncəli proqramla başa çatıb.

Tədbirdə iştirak edən Kənan Firizadə bildirib ki, əlilliyi olan uşaqları, ilk növbədə valideynlər, daha sonra böyüklər istiqamətləndirməlidirlər. "10 yaşımdan əlilliyim var. Bütün bunlara baxmayaraq, cəmiyyətdə öz yerimi tapa bilmişəm. Əlilliyi olan insanları heç bir halda təcrid etmək olmaz. Çünki onda fərd heç bir nailiyyət qazana bilməz. Gənc ailələr öz övladlarına diqqətli olmalıdırlar, çünki fiziki məhdudiyyətlərə baxmayaraq, onlar böyük şəxsiyyətlərə çevrilə bilərlər. Buna dünyanın bir sıra alimlərini, paralimpiyaçılarını misal gətirmək olar. Cəmiyyətimiz bu cür insanlara mütləq şəkildə dəstək olmalıdır", - deyə o əlavə edib.

Bu cür tədbirlərin keçirilməsinin onlara çox müsbət təsir bağışladığını deyən Elvin Astanov isə bildirib: "Mən avtomobil qəzasından sonra əlil oldum. Bu vəziyyətdən sonra dostlarımın və yaxınlarımın məsləhəti ilə paralimpiyada özümü sınamağa qərar verdim. Yüngül atletika yarışlarında iştirak etmişəm. Uşaqların gələcəyi üçün biz də öz tövsiyələrimizi veririk. Uşaqların inkişafının, ruh yüksəkliyinin təmin olunması üçün bütün şərait yaradılır. Əlillik var deyə evdə oturub halımıza yanmamalıyıq, əksinə, cəmiyyətimiz üçün çalışmalı və faydalı işlər görməliyik".

# Əlahiddə Ümumqoşun Orduda istismarda olan avtomobil texnikalarının sazlığı yoxlanılıb

Baxış-müsabiqəsində qış aylarında bölmələrin yüksək döyüş qabiliyyətində saxlanılması, eləcə də şəxsi heyətin soyuq iqlim şəraitində gecə və gündüz heç bir çətinlik çəkmədən xidmət aparması üçün istismarda olan arxa təminatı avtomobil texnikalarının sazlığı yoxlanılıb.



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, hərbi qulluqçuların yemək və su tələbatını ödəmək üçün təyin edilmiş arxa təminatı avtomobil texnika və qurğularının, səyyar soyuducuların, səyyar tipli çörək zavodlarının, su çənlərinin və səhra mətbəxlərinin cəlb edildiyi baxış-müsabiqəsində texnikalara gündəlik texniki xidmətin göstərilməsi ardıcıllığına, onların texniki göstəricilərinin yüksək səviyyədə saxlanılmasına, həmçinin təlimata uyğun istifadə və istismar olunmasına xüsusi diqqət yetirilib. Baxış-müsabiqəsinin sonunda ən yaxşı nəticəni göstərən hərbi hissələr mükafatlandırılıb.

# Qarabağ Regional DOST Mərkəzində Reabilitasiya Məntəqəsi istifadəyə verilib

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi tərəfindən Bərdə şəhərindəki Qarabağ Regional DOST Mərkəzində "RehaPoint" - Reabilitasiya Məntəqəsi istifadəyə verilib.



Nazirliyin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, məntəqədə bölgədə yaşayan əlilliyi olan şəxslərə ambulator formada müalicəvi bədən tərbiyəsi, əmək terapiyası, psixoloq və loqoped xidmətləri göstərilir, eləcə də onların ehtiyac duyduqları reabilitasiya vasitələri ilə təminatı aparılır.

Məqsəd regionlarda əlilliyi olan şəxslərin reabilitasiya xidmətlərinə əlçatanlığının və vətəndaş məmnunluğunun artırılması, bərpa prosesində əldə edilən nəticələrin davamlılığının təmin edilməsi və regionlarda reabilitasiya infrastrukturunun gücləndirilməsidir.

Həmçinin 3 Dekabr - Beynəlxalq Əlilliyi olan Şəxslər Günü ilə əlaqədar "RehaPoint"də "Açıq qapı" günləri keçirilir. Həmin günə qədər nəzərdə tutulan "Açıq qapı" günlərində Bərdə və ətraf rayonlarda yaşayan əlilliyi olan şəxslər, müharibə veteranları, şəhid ailələri və müharibədən zərər çəkmiş vətəndaşlar üçün sosial-psixoloji xidmətlər göstərilir.

Tədbir çərçivəsində uşaq və böyüklər üçün ilkin psixoloq və loqoped konsultasiya və müayinəsi, ailələrin maariflənirilməsi həyata keçirilir.

"RehaPoint" - Reabilitasiya Məntəqəsi infrastrukturunun yeni yaradılacaq regional DOST mərkəzləri üzrə genişləndirilməsi nəzərdə tutulur.

# REGİONLAR

## "Azərbaycan dünyaya günəş kimi doğacaq"

**Samuxda "Azərbaycan dünyaya günəş kimi doğacaq" adlı tədbir keçirilmişdir. Tədbir iştirakçıları əvvəl Ulu Öndərin abidəsini ziyarət etmişlər. Sonra Mərkəzi mədəniyyət evində keçirilən tədbirdə Heydər Əliyevin həyat və fəaliyyətindən bəhs edən videoçarx nümayiş olunmuşdur.**

Tədbiri giriş sözü ilə rayon icra hakimiyyətinin başçısı Firdovsi Əliyev açaraq diqqətə çatdırmışdır ki, bu gün dünyanın aparıcı dövlətləri də etiraf edirlər ki, Azərbaycan ən qüdrətli ölkəyə çevrilib. Söz yox ki, əldə etdiyimiz bütün uğurların təməlində Ümummilli Lider Heydər Əliyevin uzaqgörən siyasəti və müdrikliyi dayanır. Natiq sonra demişdir ki, Ulu Öndərin siyasi kursu Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Onun gərgin əməyi sayəsində ölkəmiz sosial-iqtisadi yüksəlişə nail olmaqla müasir və inkişaf edən dövlətə çevrilib. Ümummilli Lider Heydər Əliyevin müdrikcəsinə söylədiyi "Azərbaycan dünyaya günəş kimi doğacaq" fikri bu gün artıq reallıqdır.

Sonra YAP rayon təşkilatının sədri Gündüz Bayramov, rayondakı Heydər Əliyev Mərkəzinin direktoru Nuranə Həsənova, AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutunun əməkdaşları - Heydər Əliyev irsinin tədqiqatçısı, fəlsəfə doktoru Sənan Həsənov və fəlsəfə doktoru Füzuli Qurbanov, AMEA-nın Tarix İnstitutunun əməkdaşı, fəlsəfə doktoru İlham Həsənov və başqaları çıxış edərək bildirmişlər ki, Azərbaycan Heydər Əliyev yolu ilə gedərək bundan sonra da istər daxili, istərsə də xarici siyasətdə böyük uğurlar qazanacaq.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

## Tərtərdə növbəti iməcilik keçirilmişdir

**Tərtər bölgənin ən təmiz və səliqə-sahmanlı şəhərlərindən biridir. Qarabağ savaşında əsl qəhrəmanlıq nümunəsi göstərən tərtərlilər doğma şəhərin abadlığı üçün də ürəklərinin odunu, əllərinin hərarətini əsirgəmirlər.**

"Heydər Əliyev İli" çərçivəsində rayon mərkəzində növbəti iməcilik keçirilmişdir. Şəhərin Heydər Əliyev prospektində və bir sıra küçələrində keçirilən iməcilikdə Kommunal Təsərrüfatı İdarəsinin və "DOST" İş mərkəzinin əməkdaşları xüsusi fəallıq göstərmişlər. Onların da iştirakı ilə müxtəlif küçələrdə təmizlik işləri aparılmış, səkilər təmizlənmiş, qurumuş ağaclar ərazidən götürülmüş, mövsümlə əlaqədar ağac və kollarda budama aparılmış, yaşıllıqların ətrafı bellənmişdir. Ərazidə ətraf mühit, insan sağlamlığı üçün zərərli olan müxtəlif məişət və polietilen tullantıları təmizlənərək, xüsusi nəqliyyat vasitələri ilə daşınmışdır.

*L.QULİYEV,*
*"Azərbaycan"*

## Pambıqçılıq üçün hava şəraiti əlverişsiz olsa da...

**Artıq iki aya yaxındır Arana, o sıradan Muğana yağış yağmır. Belə halda hava şəraitinin pambıqçılıq üçün əlverişli olduğu göz önündədir.**

Amma pambıqçılıq üçün mühüm dövr olan sentyabrı və oktyabrın birinci ongünlüyünü də yada salaq. Həmin vaxtlar yağan aramsız yağışlar nəticəsində yarı açılan daban qozaların məhsulu çürüyərək yox oldu. Maşınla yığılması üçün defaliyasiya aparılmış sahələrin kimyəvi preparatlarını yağış suyu yuyub apardı. Bir çox sahədə pambıq kolları göyərərək yenidən boy atmağa başladı. Bütün bunlar yığımın sürətini və müddətini uzatdı. Fermerlər sahələri təkrar dərmanlamalı oldular. Dediklərimiz isə itki, məhsuldarlığın aşağı düşməsi, əlavə xərclər, yəni maya dəyərin baha başa gəlməsi deməkdir.

Lakin oktyabrın ikinci ongünlüyündən bu günədək havaların fəslə uyğun keçməməsi, o üzdən yağışların ara verməsi pambıqçıların işinə yarayır. Onlar bundan istifadə edərək itirdiklərinin yerini doldurmağa çalışırlar. Hər gün günçıxandan günbatanacan sahələrdə olur, müqavilə bağladıqları şirkətin sahə aqronomlarını çağırıb, nə vaxt ona pambıqyığan maşının veriləcəyini müəyyənləşdirirlər. Yeri gəlmişkən, deyək ki, hazırda maşınla ikinci yığım aparılır. Birinci yığımı qalan sahə çox deyil. Hər kəs çalışır ki, əziyyətlə yetişdirdiyi məhsulu son qozasınadək yığıb təhvil versin. Fermerin başlıca məqsədi, istəyi odur ki, pambıqçılıq üçün əlverişsiz olan bu il kiməsə borclu qalmasın.

Fermer Ülvi Abdiyev - Neftçala rayonunun Aşağı Surra kənd sakinidir. Muğanda doğulub boya-başa çatan adam kimi pambığın nə olduğunu yaxşı bilir. Onun söhbətinə qulaq



asanda yeniyetməliyim, orta məktəbdə oxuduğum illər gəlib gözlərim önündən keçir. Yay tətilinə çıxanda pambığın becərilməsi işlərinə qatılıb, qazandığım "əməkgünü" hesabına sentyabrın 1-nə - dərslər başlayan günə qədər paltarlarımı, kitab-dəftərimi alardım. Ülvi Abdiyev də eyni həyatı yaşayıb. Onun sözləridir:

- Orta məktəbi bitirib kəndimizdəki təsərrüfatda çalışmağa başladım. Kolxoz təsərrüfatı dağılanda çoxları kimi mən də bir müddət işsiz qaldım. Torpaqların paylanması bizim üçün iş yeri oldu. Bəzi adamlar sabahı fikirləşmədən torpaqlarını dəyər-dəyməzinə satdılar. Boyüklərin məsləhəti ilə mən torpaqdan, necə deyərlər, bərk yapışdım. Zaman keçdikcə dövlət tərəfindən kəndlilərə subsidiya, güzəştli qiymətə gübrə verildi. Bir müddət keçəndən sonra pambıqçılıqla məşğul olan şirkətlər yarandı. "Fermer" sözü torpaqla, mal-qara ilə məşğul olan adamlara yeni ruh, yeni əhvali-ruhiyyə gətirdi. Sovetlər dağılandan sonra Yuxarı Qaramanlıdakı pambıq zavodu bu dəfə "MKT" MMC-nin Neftçala filialı kimi fəaliyyət göstərməyə başladı. Əvvəllər bu müəssisədə direktor işləmiş Bahəddin Leysanov yenə də müəssisəyə rəhbər təyin edildi. Görünür, "MKT" MMC-nin rəhbərləri onun bacarığını, təşkilatçılığını, insanlarla xoş rəftarını, həmişə zəhmətkeş insanların yanında olduğunu, əlindən gələn köməyi heç kəsdən əsirgəmədiyini bilib onu bu vəzifəyə təyin etmişdilər. Hamı kimi mən də B.Leysanovun bu keyfiyyətlərini nəzərə alıb filialla hər il müqavilə bağlayıram. 2023-cü ildə 10 hektar sahədə pambıq əkmişəm. Filial əkindən tutmuş yığıma kimi həmişə bizə kömək edib. Texnika, toxum, mineral gübrələr, ziyanvericilərə qarşı dərmanlar, becərmə zamanı avansla təmin edib. Sahə rəisi, aqronomu hər cür kömək göstərib, mütəxəssis göstərişlərini veriblər. Çəkdiyimiz zəhmətin nəticəsində indiyədək hər hektardan 45 sentner məhsul götürmüşəm. Yığım hələ davam edir. Bir məsələni də qeyd etmək istəyirəm. Bu il pambıqçılıq üçün ağır il, mən deyərdim ki, sınaq ili oldu. Suvarma suyunun nisbətən az olmasına baxmayaraq, bütün fermerlərimiz çalışıb yaxşı məhsul yetişdirmişdilər. Lakin sentyabrın əvvəllərindən başlayıb oktyabrın 10-nadək davam edən aramsız yağışlar bizə çox ziyan vurdu. Məhsulun mühüm bir hissəsi, daban qozaların pambığı, çiyidi çürüdü, ələ gəlmədi. Çox yerdə yağışlardan sonra pambıq kolları kükrəyib qalxdı. Bu da aşağı hissələrdəki qozalara hava dəyməyə qoymadı. Yağışlar həm də yarpaq tökmək üçün vurulan dərmanı yudu. Dediklərim həm yığıma, həm də məhsuldarlığa çox mənfi təsir göstərdi. Hamı çalışır şirkətin borcunu versin. Neyləmək olar? Təsərrüfat işi havaya bağlıdır. Bir il belə olur, gələn il başqa. Şükürsüz deyilik. Qazananlar da çoxdur. Hələ dövlətin subsidiyası da var.

Fermerlərdən Aşağı Qaramanlı kənd sakini Ağamirzə Mustafayev, Tatarməhəllə kənd sakini Məsrəf Hüseynov, Xolqarabucaq kəndindən Mübariz Məlikov və başqaları da həmkarları Ülvi Abdiyevin fikrinə şərik çıxdıqlarını, pambıqçılıq üçün o qədər də münasib olmayan builki mövsümdə yenə bütün çətinliklərə rəğmən hərəyə 45-50 sentner məhsul tədarük etdiklərini dedilər.

Ümumilikdə bu ilin əvvəllərində 922 nəfər torpaq mülkiyyətçisi "MKT" MMC-nin Neftçala filialı ilə müqavilə bağlayaraq 4 min 229 hektarda pambıq yetişdirmişdir. Hektar hesabı ilə bu rəqəm keçən ildəkindən 400 hektar az olmasına baxmayaraq, intensiv əkinçilik üsuluna üstünlük verən fermerlər hər hektarın məhsuldarlığını orta hesabla 31,3 sentner səviyyəsinə çatdırmışlar. Tədarük olunan məhsulun 89 faizi maşınlarla yığılmışdır. Toplanılan 13 min 212 ton pambıq tayalara vurularaq oddan, yağışdan etibarlı şəkildə qorunur. Mahlıc çıxımı 42,9 faiz təşkil edir ki, bu da keçən ildəkindən çoxdur. Dörd növbədə işləyən zavodda indiyədək 6 min tonadək mahlıc istehsal olunmuşdur.

Bütün bunlar bir daha onu göstərir ki, Neftçala fermerləri hava ilə bağlı müəyyən çətinliklər olsa da, ruhdan düşməyərək öz peşəkarlıqlarını sübuta yetirməyi, yüksəkkeyfiyyətli məhsul yetişdirməyi bacarırlar.

*Seyran CAVADOV,*
*"Azərbaycan"*

## Mingəçevir: abadlıq işləri mərkəzdən məhəllələrə keçir



**Energetiklər şəhəri Mingəçevir ilin bütün fəsillərində gözəldir. Şəhər bu payız günlərində libasının rəngini dəyişib, yaşıl park və xiyabanlar saralaraq qapıda olan qışı gözləyir.**

Mingəçevir Şəhər İcra Hakimiyyətinin tədbirlər planına uyğun olaraq, bir sıra yaşayış binalarında və digər ərazilərdə aparılan əsaslı təmir işlərinə baxış keçirilmişdir. Ərazilərdə təmir aparan kommunal xidmət idarələrinin rəhbərləri, ictimaiyyət nümayəndələri, mətbuat işçiləri tədbirə cəlb olunmuşdular. Baxış 127-ci məhəllədəki 34 nömrəli binada aparılan işlərlə tanışlıqdan başladı. Burada kanalizasiya xəttinin yenilənməsi başa çatmış, ərazidə oturacaqlar qoyulmuş, bordürlər səliqəyə salınmışdır. Binanın giriş hissələrində təmir işləri ilə yanaşı, plastik şüşəbəndlər, seyf qapıları qoyulmuş, giriş hissələri suvanaraq rənglənmişdir. Sakinlərin arzu və istəyi ilə binaların fasad hissələri diqqəti cəlb edən tərtibata uyğunlaşdırılmışdır.

Baxışın gedişində şəhər icra hakimiyyətinin başçısı İlham İsmayılov mövcud olan bir sıra problemlərin aradan qaldırılması barədə müvafiq təşkilatların rəhbərlərinə yerindəcə göstərişlər vermiş, təmir briqadalarına işlərini nümunəvi görmələrini tapşırmışdır. Müşahidə olunan bəzi problemləri aradan qaldırmaq üçün su-kanal idarəsinin, kommunal xidmət idarələrinin rəhbərlərinə də əlavə göstərişlər verilmişdir. Xətai küçəsindəki bəzi yaşayış binalarına baxış zamanı məlum olmuşdur ki, bu binalarda müəyyən işlər görülsə də, kanalizasiya sisteminin tam bərpa olunmasında çatışmazlıqlar var. Yəni binanın zirzəmisi ilə ümumi kanalizasiya xətti arasında birləşmə bərpa edilməyib.

Aydın Məmmədov küçəsindəki 7a nömrəli binanın qarşısında yaradılmış idman meydançası, uşaq əyləncə sistemi diqqəti cəlb edirdi. Ərazi sözün əsl mənasında sakinlərin istirahəti üçün rahat məkana çevrilmişdir.

Baxış zamanı sakinlər ŞİH-in başçısına yaxınlaşaraq aparılan işlərə görə əməyi olan hər kəsə minnətdarlıqlarını ifadə etdilər. İ.İsmayılov sakinləri əmin etdi ki, bu qəbildən olan işlər ardıcıllıqla davam edəcək. Hazırda şəhərin digər küçələrində də abadlıq və quruculuq işləri həyata keçirilir. Məqsəd Mingəçeviri başdan-başa nümunəvi şəhərə çevirmək, şəhər sakinlərinin həyat şəraitini yaxşılaşdırmaqdır. Prezidentin qarşıya qoyduğu tapşırıq da budur.

*Lazım QULİYEV,*
*"Azərbaycan"*

### Şirvandan iki xəbər

## Regional konfransda "Müasir çağırışlar və qarşıda duran əsas hədəflər" müzakirə olunub

**Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) təşkilatçılığı ilə Şirvan şəhərində "Müasir çağırışlar və qarşıda duran əsas hədəflər" mövzusunda regional konfrans keçirilib.**

Konfransı giriş sözü ilə açan ŞİH başçısının müavini Aynur Fərzəliyeva milli-mənəvi dəyərlərimizin dövlətçiliyimizin möhkəmləndirilməsində oynadığı roldan danışıb, ölkəmizdə demokratik, hüquqi, sivil və açıq cəmiyyət qurulduğu bir vaxtda milli-mənəvi dəyərlərin qorunması və gənc nəslə aşılanmasının aktuallıq kəsb etdiyinə diqqət çəkib.

DQİDK-nın əməkdaşı Yaqut Əliyeva isə ölkədə dövlət-din münasibətlərinin yüksək səviyyədə tənzimlənməsi, dini etiqad azadlığının təmin olunması, müxtəlif dinlərə və məzhəblərə etiqad edən ölkə vətəndaşlarının qarşılıqlı hörmət və əməkdaşlıq ənənələrinin daha da gücləndirilməsi məqsədilə keçirilən konfransın mövzusuna diqqət çəkərək qloballaşma dövrünün çağırışlarından söz açıb. Bildirib ki, dinin dünyada mədəni-əxlaqi dəyər çərçivəsindən çıxaraq kəskin şəkildə siyasiləşməsi



cəhdləri, dünyəvilik və dini dəyərlərin bir-birinə qarşı qoyulması yolverilməzdir.

Şəhər 21 saylı orta məktəbin direktoru Səadət Quliyeva milli birliyin möhkəmlənməsində mənəvi dəyərlərin rolu barədə danışaraq bildirib ki, tarixin ən çətin dövrlərində belə xalqımız öz milli-mənəvi dəyərlərini qoruyub saxlamağı, müqəddəs məqsədləri uğrunda birləşməyi, vəhdət olmağı bacarıb.

Sonda DQİDK-nın sifarişi ilə çəkilmiş "Müasir çağırışlar və qarşıda duran əsas hədəflər" adlı videoçarx nümayiş edilib. Konfrans işini müzakirələrlə yekunlaşdırıb.

## Beynəlxalq Əlillər Günü qeyd edilib

**Şirvan Şəhər İcra Hakimiyyətinin və Şirvan Reabilitasiya Mərkəzi Publik Hüquqi Şəxsin birgə təşkilatçılığı ilə 3 Dekabr - Beynəlxalq Əlillər Gününə həsr olunmuş "Biz birlikdə güclüyük!" adlı tədbir keçirilib.**

Heydər Əliyev Mərkəzində keçirilən tədbirdə öncə Dövlət himni səsləndirilib, Ümummilli Lider Heydər Əliyevin və şəhidlərin ruhları birdəqiqəlik sükutla yad edilib.

Şəhər icra hakimiyyətinin başçısı İlqar Abbasov ölkəmizdə əlillərə göstərilən diqqət və qayğıkeşlikdən söz açıb. Bildirib ki, əlillərin təhsilə, əmək fəaliyyətinə cəlb olunması, sosial rifahının yaxşılaşdırılması istiqamətində dövlət tərəfindən silsilə tədbirlər görülür, bu qəbildən olan insanların sosial rifahının



yüksəldilməsi istiqamətində mühüm addımlar atılır. Qeyd edib ki, ölkəmizin ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə yaralanmış hərbi qulluqçulara yüksək səviyyədə tibbi xidmət göstərilir.

YAP Şirvan şəhər təşkilatının sədri Zahir Qəhrəmanov da dövlətin əlilliyi olan vətəndaşlara göstərdiyi diqqətdən, verdiyi hər cür dəstəkdən, bu istiqamətdə həyata keçirilən işlərdən danışıb. Bildirib ki, əlilliyi olan şəxslərə, xüsusən uşaqlara qayğı cəmiyyətimizin hər bir üzvünün borcudur. O, əlilliyi olan şəxslərin inklüziv cəmiyyətdə yaşamasının ən önəmli faktor olduğunu bildirib.

Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin əməkdaşı Nabat Abdulova isə son illər reabilitasiya xidmətləri sahəsində görülən işlər barədə danışıb, reabilitasiya infrastrukturunun genişləndirilməsi, gələcək hədəflər barədə məlumat verib.

Sonda Şirvan Şəhər Musiqi Məktəbinin kollektivi və əlilliyi olan şəxslərin birgə musiqi ifaları və əl işləri təqdim edilib.

*S.CAVADOV,*
*"Azərbaycan"*

## ASF Şəkidə sığorta ödənişlərinə başlayıb

**Aqrar Sığorta Fondu (ASF) Şəki rayonunda baş vermiş təbiət hadisələri nəticəsində fermerlərə ödənişlərin verilməsinə başlayıb.**

Hadisə baş verən əkin sahələrinə ASF-nin təyin etdiyi müstəqil aqrar sığorta ekspertləri tərəfindən 2 dəfə baxış keçirilib, əkin sahələrinə dəyən zərər hesablanıb və sığorta ödənişi təyin edilib.

Əkin sahəsində sığorta hadisəsi baş verən fermerlərə ASF tərəfindən müvafiq SMS bildirişlər göndərilib. Ödəniş barədə SMS alan Şəki fermerləri Aqrar Sığorta Fondunun Şəki rayonundakı filialına müraciət edərək sığorta tələbi üçün razılıq ərizəsi və bank rekvizitlərini təqdim edirlər.

Bu il də baş verən təbiət hadisələri - qasırğa, fırtına, sel-subasma və dolu səbəbindən əkin sahələrinə çoxsaylı zərərlər dəyib və ASF bu zərərlərin ödənişinə başlayıb.

İlkin məlumatlara görə, bu il Şəkidə 800 torpaq sahəsində hadisə qeydə alınıb, bu hadisələr üzrə gözlənilən ödənişlərin ümumi məbləği təqribən 800 min manat təşkil edəcək.

Xatırladaq ki, 2022-ci ildə də Şəkidə böyük sayda sığorta hadisələri qeydə alınıb və ödəniş verilib. Belə ki, ötən il rayonda 185 fermerə ümumilikdə 500 min manat ödəniş edilib. Bu il isə həm ödəniş edilən fermerlərin sayı, həm də ödənişin məbləği kəskin artıb.





# Vətən deyəndə...





**Qarabağ Azərbaycandır!**

## Kürdəmirin ölməz şəhidləri

**Xankəndidə keçirilən unudulmaz Zəfər paradı dünya üçün tutarlı bir dərs olmaqla qatil, qaniçən düşmənlərimizə və onların havadarlarına əsl gözdağı oldu. Bununla da 200 il davam edən erməni təcavüzünə, erməni vəhşiliyinə son qoyuldu.**

Antiterror tədbirləri zamanı fədakarlıqla döyüşüb şəhid olmuş igidlərimizdən 6 nəfəri Kürdəmir rayonunun yetirməsidir. Yazıda onlardan 3-ü haqqında söz açacağıq.

Əliyev Toğrul İlyas oğlu 17 aprel 1995-ci ildə rayonun Muğanlı kəndində anadan olub. Kənd məktəbində təhsil aldıqdan sonra Kürdəmirdəki texniki peşə məktəbində oxuyub. Hərbi xidmətini başa vuraraq Azərbaycan Ordusunun təlim mərkəzindəki müddətdən artıq xidmət kursuna qəbul olunub, burada hərbi biliklərə və döyüş taktikasına yiyələnib.

Toğrul hərbi xidmət sahəsində fəaliyyət göstərməyi özü üçün daimi peşə yolu seçmişdi. Ona görə də könüllü olaraq Komando briqadasına yazılmış və antiterror tədbirləri başlananda öndə gedən döyüşlərdə iştirak etmişdir.

Bunu döyüş yoldaşlarından eşitmişik: "Toğrul həmişə deyirdi ki, biz ancaq irəli getməliyik, geridə qalmağa heç birimizin haqqı yoxdur. Biz necə olur-olsun düşmənlərin ayağını torpaqlarımızdan birdəfəlik kəsməliyik ki, onlar bir də nə vaxtsa baş qaldıra bilməsinlər. Elə etməliyik ki, bizdən sonra övladlarımız əziyyət çəkməsinlər".

Döyüş yoldaşları deyir ki, Toğrul olduqca mərd, cəsur, xüsusilə də ölümlə qarşılaşanda soyuqqanlı idi: "Bədəncə nisbətən zəif olmasına baxmayaraq, çox dözümlü idi. İdmançılara xas olan xarakteri vardı. Qorxu nə olduğunu bilmirdi. O, axıra qədər döyüşdü, qələbəyə az qalmış şəhid oldu".

Toğrul Xocavənd, Xankəndi uğrunda gedən döyüşlərdə şəhid oldu. Özündən sonra vətən üçün 3 oğul - gələcəyin 3 əsgərini yadigar qoyub getdi.

Toğrul Qızılgül ananın gözünün ağı-qarası bircə övladı idi. Ana onun haqqında ürəkdolusu danışır, qəlbində yaşatdığı xatirələri yada salır, oğlunun uşaq yaşlarından zəhmətsevər olduğundan, narçılıq təsərrüfatında çalışdığından danışır. Deyir ki, oğlu ağlı kəsəndən, əli iş tutandan torpağa, əkin-biçinə, bağ-bağata həvəs göstərib, işgüzar olub.

Əhmədov Vüsal İlqar oğlu 24 yanvar 1993-cü ildə Qarasu kəndində anadan olub. Orta məktəbi bitirdikdən sonra həqiqi hərbi xidmətə gedib. Azərbaycan Ordusunun təlim-tədris mərkəzində müddətdən artıq xidmət kursunu bitirərək yenidən hərbi xidmətə başlayıb və 2022-ci ilin sentyabr döyüşlərində iştirak edib.










Həyatını hərbi xidmətə bağlayan Vüsal bu il sentyabrın 19-20-də keçirilən antiterror tədbirlərində də ən fəal döyüşçülərdən biri olub və Ağdərə uğrunda gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalıb.

Vüsalla eyni bölükdə xidmət etmiş kəşfiyyat qrupunun komandiri gizir Sakit Aslanov döyüş yoldaşı haqqında fəxrlə, ağızdolusu danışdı. Dedi ki, bir xeyli müddət Vüsalla bir yerdə xidmət etmişik, birlikdə döyüşmüşük. Vüsal ən çətin, ən təhlükəli kəşfiyyat və döyüş tapşırıqlarının yerinə yetirilməsində xüsusi fədakarlıq göstərirdi. O, çox ləyaqətli, dosta, yoldaşa sadiq, vətənpərvər bir insan idi. Nümunəvi hərbi xidmətinə görə 2 dəfə fəxri fərmanla təltif olunmuşdu.

Atası deyir ki, Vüsal çox ağıllı, zirək, qətiyyətli uşaq idi: "Zəhmətə uşaq yaşlarından alışmışdı. Elə o vaxtdan mənim yaxın köməkçim olmuşdu. Diqqətindən heç nə yayınmazdı. Həyət-bacada, bağ-bağatda bir iş görəndə həmişə yanımda olurdu. Uşaq da olsa, mənə ağıllı məsləhətlər verirdi".

Vüsalın yaşyarımlıq bir oğul övladı var. Atası dedi ki, uşağı tez-tez Vüsalın əkdiyi meyvə ağaclarının yanına aparıb orada gəzdirirəm: "Uşaq ləhcəsi ilə ona başa salıram ki, bu ağacları ata sənin üçün əkib. O da ağaclara əl vura-vura "ata-ata" deyib, dili dolaşa-dolaşa mənim sözlərimi təkrarlayır".

Vüsal şəhadətə qovuşsa da, əvəzində bu ailədə Eşqin adlı bir oğlan uşağı, gələcəyin bir mərd əsgəri böyüyür.

Əkbərov Şahid Natiq oğlu 22 oktyabr 1996-cı ildə Məhərrəmli kəndində anadan olub. Bakı şəhəri Xətai rayonunun Əhmədli qəsəbəsindəki 64 nömrəli orta məktəbdə oxuyub. Sonra Kürdəmirdəki texniki peşə məktəbini bitirib. Hərbi xidmətini başa vurduqdan sonra Azərbaycan Ordusunun təlim-tədris mərkəzindəki müddətdən artıq hərbi xidmət kursunda oxuyub. Sonra Komando briqadasına yazılıb və ön cəbhəyə yollanıb. Sentyabrın 19-20-də keçirilən antiterror tədbirlərində fədakarlıqla döyüşərək şəhid olub.

Atası deyir ki, Şahid çox sakit, mehriban, ata-ana qədri bilən, sözeşidən, ümumiyyətlə, yaxşı mənada qeyri-adi xasiyyətli bir gənc idi.

Söhbət etdiyimiz şəhid valideyinlərinin hamısı eyni sözü deyirdilər: "Düzdür, övladlarımızın itkisi bizim üçün çox ağırdır. Bu itki nə qədər ağır, nə qədər çətin olsa da, təsəlli tapırıq ki, övladlarımız vətən, xalqımızın əmin-amanlığı yolunda canlarını qurban verib şəhid olublar. Bizi səbirli, təmkinli, dözümlü olmağa vadar edən də budur".

***Tofiq ABDULLAYEV,***
***Azərbaycan Jurnalistlər Birliyinin üzvü***

**Ölməzliyə qovuşanlar**

## Şəhid Vüsal Kazımovun xatirəsi anılıb

**Lənkəran şəhər Heydər Əliyev Mərkəzində şəhid Vüsal Kazımovun xatirəsinə həsr olunan tədbir keçirilib. Tədbirdə şəhər rəhbərliyi, rayonun hüquq-mühafizə orqanlarının nümayəndələri, şəhid ailələrinin üzvləri, Vətən müharibəsi əlilləri və müharibə iştirakçıları iştirak ediblər.**





Dövlət himninin səsləndirilməsindən, torpaqlarımızın azadlığı, suveren hüquqlarımızın müdafiəsi, sərhədlərimizin bərpası və qorunması uğrunda əbədiyyətə qovuşan şəhidlərimizin xatirəsi birdəqiqəlik sükutla yad olunduqdan sonra tədbirin rəsmi hissəsi başlayıb.

Mərasimdə çıxış edənlər bildiriblər ki, şəhidlərimizin adının əbədiləşdirilməsi, xatirəsinin əziz tutulması və keçdikləri döyüş yollarının gələcək nəsillərə davamlı şəkildə təbliğ olunması dövlətin prioritet məsələlərindən biridir. Vətən müharibəsində lənkəranlı gənclərin əzm və cəsarətlə döyüşdüyünü, düşmənin hücumlarının qarşısını mərdlik və qəhrəmanlıqla dəf etdiklərini vurğulayan Lənkəran ŞİH-in başçısı Taleh Qaraşov Vətənin yalnız müəyyən sərhədlər daxilində coğrafi məkan olmadığını, onun xüsusi sevgi və hörmətə layiq müqəddəs torpaq olduğunu ifadə edib. "Vətən sevgisi əxlaqi keyfiyyətdir, onun uğrunda şəhid olub əbədiyyətə qovuşanlar bu sevginin ən kamil formasını yaşayanlardır" deyən natiq qeyd edib ki, şəhidlərimizin xatirəsinin əziz tutulması daha çox mənəvi məsələdir. Şəhid ailələrinə xüsusi qayğı və diqqətin göstərilməsi, Vətən uğrunda canından keçən qəhrəmanlarımızın adlarının əbədiləşdirilməsi daim Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın diqqət mərkəzindədir.

Sonra şəhidin həyat yoldaşı Aysel Kazımova və atası Kamran Kazımov çıxış ediblər. Şəhid ailəsinin üzvləri dövlətin qayğısı ilə əhatə olunduqlarını, bütün müraciətlərinə diqqət və həssaslıqla yanaşıldığını vurğulayıblar.

Çıxışlardan sonra Çinarə Ömürayın şəhidimizin həyatından bəhs edən "Vüsal hicrandan acıymış" adlı sənədli filmi nümayiş olunub.

***"Azərbaycan"***

**Tədbir**

## Hərbi qulluqçular arasında bilik yarışması keçirilib

**Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzində Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünə həsr edilən "İntellekt" adlı bilik yarışması keçirilib.**

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən verilən məlumata görə, əvvəlcə Ulu Öndər Heydər Əliyevin və Vətənimizin suverenliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi birdəqiqəlik sükutla anılıb. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbirdə çıxış edənlər Ümummilli Liderin həyat və fəaliyyəti, ordu quruculuğuna verdiyi töhfələr barədə geniş məlumat veriblər. Bildirilib ki, Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin müvafiq sərəncamı ilə 2023-cü ilin ölkəmizdə "Heydər Əliyev İli" elan olunması Ulu Öndərə olan ümumxalq sevgisinin təcəssümü, böyük ehtiramın göstəricisidir.

Plana uyğun olaraq üç turdan ibarət bilik yarışmasına Heydər Əliyev adına Hərbi İnstitutun və Cəmşid Naxçıvanski adına Hərbi Liseyin kursantlarından, eləcə də Bakı Qarnizonunun hərbi qulluqçularından ibarət doqquz komanda qatılıb.



Bilik yarışmasının keçirilməsində əsas məqsəd şəxsi heyətin intellektual səviyyəsinin inkişafı, dünyagörüşünün artırılması, xalqımızın milli-mənəvi dəyərlərinin öyrənilməsi, həmçinin asudə vaxtının səmərəli təşkilidir.

Gərgin bilik mübarizəsi şəraitində keçən yarışmada Hərbi Dəniz Qüvvələrinin matrosları birinci, Heydər Əliyev adına Hərbi İnstitutun kursantları ikinci, "N" hərbi hissəsinin əsgərləri isə üçüncü yerə layiq görülüblər.

Sonda qalib komandalara mükafatlar təqdim edilib.

**Tarix yazan oğullar**

## Tarını silaha dəyişdi

### "Ata, düşmən qaçır, tezliklə qələbə qazanacağıq…"



**Onun barmaqları mizrab tutmaq, tarın zərif pərdələri üzərində gəzdirmək, əbədiyaşar muğam və təsniflərimizi səsləndirmək üçün yaranmışdı. Elə evdə valideynləri tərəfindən də bu mənada qorunar, əllərinin fiziki işlərdə bərkiməsinə imkan verilməzdi.**




Amma dar gündə vətənin müdafiəsinə yetişmək - 30 il işğalda inləyən torpaqları azad etməkdən ötrü özü nəinki tarzən barmaqlarını, bütöv vücudunu əsirgəmədi, canından-qanından keçərək ən ali zirvə olan şəhidliyə yüksəldi.

İsizadələr ailəsi 3 ildən çoxdur ki, Elvinli xatirələrlə yaşayır. Əlamətdar günlərdə hamı bir süfrə başına toplaşanda oxuyan o tar indi şəhidin xatirə guşəsində sükut içindədir. Doğmaları, dostları həmin tanış, məhrəm musiqi sədalarını yalnız audio-video lentlərdən dinləyirlər. Yeganə təsəlliləri isə Zəfər simfoniyamız, Qələbə himnimizdir.

2001-ci il sentyabrın 4-də Ağdam rayonunun Qaradağlı kəndində doğulmuş İsizadə Elvin Azim oğlu Asəf Zeynallı adına musiqi kollecində təhsil alırdı. Sevimli tarını silaha dəyişərək haqq savaşına qoşulan Elvin Füzuli, Xocavənd, Cəbrayıl, Qubadlı istiqamətində gedən döyüşlərdə iştirak edib.

Şəhidin atası Azim Quliyev oğlunun bir qarabağlı kimi Vətən müharibəsində qələbə əzmi ilə döyüşdüyünü deyir: "Elvin 2018-ci ildə kollecə qəbul olundu. 2019-cu ildə hərbi xidmətə getdi. İstəyirdi ki, hərbi xidməti başa vurduqdan sonra təhsilini davam etdirsin. Arzularından biri də Konservatoriyaya qəbul olmaq idi. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsi zamanı Füzuli, Cəbrayıl, Qubadlı və Xocavənd istiqamətində gedən döyüşlərə qatıldı. Böyük ruh yüksəkliyi ilə döyüşürdü. Döyüş yoldaşları onun qorxmaz, cəsur əsgər olduğunu, sərrast atəş açdığını bildirirlər. Deyirdi, ata, düşmən qaçır, tezliklə qələbə qazanacağıq. Oktyabrın 26-da Füzuli istiqamətində gedən döyüşlərdə şəhidlik məqamına yüksəldi".

Anası Gülbəniz İsizadə də onun musiqi sahəsində fitri istedadından söhbət açır: "Elvin uşaqlıqdan hamının sevimlisi olub. Çox ağıllı, tərbiyəli, nümunəvi idi. Musiqiyə böyük maraq göstərirdi. Tarzən kimi fitri istedada malik idi. Böyük arzuları vardı. Heyif ki, hər şey yarımçıq qaldı. Bizim üçün çox ağırdır. Amma onunla fəxr edirik. Ucadan uca məqamda, zirvədədir. Allah bütün şəhidlərimizə rəhmət eləsin".

Şəhid Elvin İsizadə Vətən müharibəsində göstərdiyi şücaətə görə ölümündən sonra "Vətən uğrunda" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilib.

"44 günlük Zəfər mücadiləsində həyatlarından keçən şəhidlərin, qazilərin sırasında incəsənət sahəsində çalışanların, təhsil alanların sayı yüzlərlədir. Elvin İsizadə də onlardan biri idi. Sosial şəbəkələrdə şəhidimizin instrumental çalğısında Bəhram Mansurovun məşhur "Qal, sənə qurban!" bəstəsi geniş yayılıb. Gözəl ifadır: "Əgər üz çevirib getsən uzağa, qalmaz aşiqində hal, sənə qurban..." Həqiqi Azərbaycan sevdalıları heç vaxt ondan aralı düşmədilər, əksinə, uzaqdakılar da yaxına gəlib Şuşa, Laçın, Kəlbəcər, Ağdam, Zəngilan təşnəli ürəklərinin yarasına bir məlhəm kimi vətən torpağı qoydular, İsa bulağından, İstisudan, Turşsudan su səpdilər... Və sonda həmin müqəddəs məkanları bağrılarına basıb arzularına, sevgilərinə qovuşdular.

***Qurban MƏMMƏDOV,***
***"Azərbaycan"***

**Şəhidlər ölməz, Vətən bölünməz!**

## Qazaxda 5 küçəyə şəhidlərin adı verilmişdir

**Sentyabrın 19-20-də Azərbaycan Respublikasının Silahlı Qüvvələri tərəfindən keçirilən lokal xarakterli antiterror tədbirləri zamanı Qazax rayonunun 5 nəfər igid oğlu şəhidlik zirvəsinə ucalmışdır.**

Yuxarı Salahlı kəndindən gizir Şəmşiyev İlham Şakir oğlu, Qarapapaq kəndindən gizir Əhmədov Elvin Qələndər oğlu, Qazax şəhərindən baş çavuş Hüseynov Ramin Rövşən oğlu, əsgər Nəbiyev Fərid Kamran oğlu və Canalı kəndindən əsgər Nəsibov Aqşin Vasif oğlu antiterror tədbirləri zamanı qəhrəmanlıq göstərərək adlarını xalqımızın qəlbinə əbədi həkk etmişlər. Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə xalqımızın bu igid oğulları 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni və "Vətən uğrunda" medalı ilə təltif olunmuşlar.

Qədirbilən qazaxlılar digər şəhidlər kimi, onların da adlarını əbədiləşdirməyi qərara almışlar. Rayon icra hakimiyyəti başçısının sərəncamı ilə Qazax şəhərindəki adsız küçələrə bu igidlərin adları verilmişdir. Bu günlər rayon icra hakimiyyətinin başçısı Rəcəb Babaşov şəhidlərimizin ailələri ilə görüşmüşdür. Söhbət zamanı Vətən uğrunda canından keçən şəhidlərimizin qanının yerdə qalmadığı, qisaslarının alındığı diqqətə çatdırılmışdır. Rayon rəhbəri yeni adlandırılan küçələrdə ünvan lövhələrinin yerləşdirilməsi, eləcə də digər məsələlərin həll edilməsi üçün lazımi addımlar atılacağını onların diqqətinə çatdırmışdır.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

**Xəbər**

## Şəhid övladlarının Heydər Əliyev Mərkəzinə ekskursiyası təşkil olunub

**Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyi tərəfindən bir qrup şəhid övladının Heydər Əliyev Mərkəzinə ekskursiyası təşkil olunub.**



Nazirliyin İctimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, uşaqlar Ulu Öndər Heydər Əliyevin həyat və fəaliyyətinin bütün dövrlərini əhatə edən video və fotoarxiv, sənədlər, kitablar, eləcə də müxtəlif eksponatlarla tanış edilib.

Ekskursiya çərçivəsində uşaqlar mərkəzdə Azərbaycanın qədim tarixini, zəngin mədəniyyətini, tükənməz təbii sərvətlərini əks etdirən sərgi ilə də tanış olublar.





# Mədəniyyət





Kino xadimlərimiz

# Azərbaycan kinosunun "Ad günü"

## Rasim Ocaqov 72 illik həyatında bir gün də "Özgə ömür" yaşamadı

**Adının Azərbaycan kino sənətinin səhifələrinə əbədi yazılmasının əsas səbəbi, əlbəttə ki, istedadı və həddindən artıq zəhmətsevərliyi oldu. Xalq artisti, Dövlət mükafatı laureatı Rasim Ocaqovu bu uğurlara çatdıran yol isə kino sənətinə vurğunluqdan başlamışdı...**



### "Sehir"li aləmlə tanışlıq

O, 1933-cü ildə Şəkidə dünyaya gəlib. Uşaqlıq illərinin qayğısız keçməsinə dövr, zaman imkan verməyib. Sovet hakimiyyətinin repressiya siyasətinin Azərbaycana vurduğu yaralar sağalmamış İkinci Dünya müharibəsi başlayıb. Müharibə dərd üstünə dərd gətirib. Evlərə "qara kağızlar"la gələn ah-nalələri, qəm-qüssəni, müharibənin düçar etdiyi maddi sıxıntıları, yoxsulluğu görüb.

Dünyanın o qarışıq vaxtlarında təhsil almağa başladı. 1941-ci ildə Şəkidə orta məktəbin rus şöbəsinə getdi. Uşaq vaxtlarından foto ilə maraqlandı, həvəslə şəkillər çəkməyə başladı. O vaxtlar geoloq olacağı günlərin xəyalını qururdu. Bu arzuya Şəkinin dağlarına neft axtarmağa gələn mütəxəssisləri gördükdən sonra düşmüşdü. Amma yenə də fotoqrafiya ilə ciddi məşğul olmağı unutmadı.

Bir gün Şəkiyə sənədli film çəkən qrup gəldi. O zaman 9-cu sinifdə oxuyan Rasim onların işlərinə baxmaq üçün yanlarına getdi. Sirli kino aləmi onu özünə cəlb etdi. Elə o vaxtdan daha bu aləmdən ayrıla bilmədi. Sənət arzusu dəyişdi. Valideynləri bundan xəbər tutanda razı olmadılar. Ancaq oğullarını da fikrindən döndərə bilmədilər.

Orta məktəbi 1951-ci ildə bitirən Rasim həmin il Moskvaya yollandı. Orada Ümumittifaq Dövlət Kinematoqrafiya İnstitutunun Kinooperatorluq fakültəsinə qəbul olundu. Təhsil illərində dərs aldığı böyük sənətkarların sayəsində kino sənətinin möcüzəli aləmini yaxından tanıdı. Bu sənətə yenidən vuruldu.

Ümumittifaq Dövlət Kinematoqrafiya İnstitutunu 1956-cı ildə bitirən R.Ocaqov Bakıya gəldi. "Azərbaycanfilm" Kinostudiyasında quruluşçu-operator kimi çalışmağa başladı. İlk dəfə 1957-ci ildə operator kimi "Bir məhəlləli iki oğlan" filmini lentə aldı. Filmdə baş operator Marqarita Pilixina idi.

1958-ci ildə çəkdiyi "Onun böyük ürəyi" filmi quruluşçu operator kimi Rasim Ocaqovun ilk sərbəst işi oldu. Film Sumqayıt metallurqlarının həyatına həsr edilmişdi. Ekran əsərində ağır peşə adamları olan qəhrəmanların keçirdiyi hisslərin, onların xoşbəxt anlarının, sarsıntılarının, məşəqqətlərinin inandırıcı şəkildə, ustalıqla əks olunmasında operator kimi Rasim Ocaqovun da böyük əməyi vardı.

Bu filmdən sonra da Rasim Ocaqov quruluşçu operator kimi yeni filmlərin çəkilişində iştirak etdi. "Əsl dost", "Bizim küçə", "Mən rəqs edəcəyəm", "Sən niyə susursan?", "Bir cənub şəhərində", "Skripkanın sərgüzəşti", "Ömrün iki saatı", "Ən vacib müsahibə" kimi ekran əsərlərində işi ilə Azərbaycan kinosunda operatorluq sənətinin ən layiqli nümunələrindən biri olduğunu təsdiq etdi.

### Dövranı keçməyən filmlərin rejissoru

Sənət yolunu belə də davam etdirə bilərdi. Ancaq o, rejissor kimi filmlər çəkməyə can atırdı. Mirzağa Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunun (indiki Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti) Rejissorluq fakültəsinə daxil oldu. Amma ali təhsilli rejissor olduqdan sonra da film çəkmək arzusunu tezliklə həyata keçirə bilmədi. Ona film çəkilişi həvalə olunmurdu. Bir gün "Azərbaycanfilm"in rəhbəri onu çağırıb Moskvanın qəbul etmədiyi bir filmi - "Gəncəbasarlı qisasçı" filmini yenidən işləməyi tapşırdı. Bu, Rasim Ocaqovun rejissorluq sənətində ilk imtahanı, ilk özünütəsdiqi olacaqdı.

O, tarixi-qəhrəmanlıq janrında çəkilən filmin ssenarisini yenidən işlədi, qəhrəmanların ifaçılarını dəyişdi. Qatır Məmməd obrazını görkəmli aktyor Şahmar Ələkbərova həvalə etdi. 1974-cü il mayın 26-da filmə ictimai baxış keçirildi. Müəyyən iradlar bildirilsə də, film bütövlükdə uğurlu hesab olundu. 1975-ci ildə onun rejissoru olduğu başqa bir film - "Tütək səsi" tamaşaçılara təqdim edildi. Orijinal səhnələri, çəkiliş manerası, mövzunun bədii həlli baxımından Azərbaycan kinosuna bir sıra yeniliklər gətirən bu film Rasim Ocaqovu istedadlı rejissor kimi sənət aləminə yenidən tanıtdı.

Rejissor 1977-ci ildə "Ad günü" filmini çəkdi. 1978-ci il yanvarın 26-da ilk dəfə ümumittifaq televiziyası ilə nümayiş olunan bu film "Azərbaycanfilm"in böyük uğuru hesab edildi. "Ad günü" filmi 1978-ci ildə Azərbaycan Dövlət mükafatına layiq görüldü. 1979-cu ildə Bakıda VIII Ümumittifaq televiziya filmləri festivalında ekran əsərinə birinci mükafat, 1980-ci ildə isə Berlində ADR televiziyasının diplomu verildi. Bu uğurlardan sonra R.Ocaqova yeni filmlərin çəkilişləri həvalə olunurdu.

Rasim Ocaqov həm də ekran əsərlərinə aktyorları çox böyük ustalıqla seçən rejissorlardan biri sayılır. Odur ki, kino sənətində yeni məktəb yaradan rejissorun ən böyük xidmətlərindən biri də istedadları üzə çıxarması, onları sənətə gətirməsidir. Həmin istedadların bir çoxu məhz onun çəkdiyi filmlərdə oynadığı rollarla aktyorluq fəaliyyətinə başlamışdı. O həm də elə rejissorlardan idi ki, istedadlı aktyoru bir filmdə çəkdikdən sonra onu unutmurdu. Növbəti filmlərin çəkilişlərinə də dəvət edir, uyğun rol verirdi. Həmin aktyorların əksəriyyəti bu gün Azərbaycanın tanınmış sənətkarlarıdır.

"Özgə ömür", "Park", "Təhminə", "Bağlı qapı", "Həm ticarət, həm ziyarət", "Ölsəm, bağışla", "İstintaq" filmləri ilə Rasim Ocaqovun rejissorluq yaradıcılığı zənginləşdi. "Otel otağı" isə rejissorun sonuncu filmi oldu. Bu ekran əsərləri Azərbaycan bədii filmlərinin ən dəyərli nümunələridir. İllər ötsə də, dövr, tamaşaçı zövqləri dəyişsə də, həmin filmlərə maraq azalmır.




Kinorejissor, kinooperator, ssenarist, Xalq artisti, Dövlət mükafatı laureatı Rasim Ocaqov 2006-cı il iyulun 11-də, 72 yaşında dünyadan köçdü. İşıqlı xatirələri və Azərbaycan kino sənətinə xidmətləri isə xatirələrdə yaşayır və yad olunur.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

Yeni nəşrlər

# Kitabın kiçiyi olmur

## Bugünkü və gələcək nəsillər üçün qiymətli hədiyyə

**Müdriklər kitabı bəşəriyyətin ən böyük kəşfi adlandırıblar. Haqlı da olublar. Çünki dünya binə olandan bütün tarixi hadisələr kitablara köçürülüb. Bəşər nəsli hələ kitabı kəşf etməmişdən əvvəl fikir və düşüncələrini müxtəlif rəmzlərlə daşların və qayaların üzərinə yazıb. Beləcə, ilk kitabələr yaranıb. Yaranıb ki, keçmişin olaylarını gələcəyə çatdırsın.**




Yenicə çapdan çıxmış kitabları ilk dəfə vərəqləyəndə xoş hisslər keçiririk. Xüsusilə nəfis tərtibatı ilə diqqəti cəlb edən miniatür kitabları... Bu nəşrlər zövqləri oxşayır, gözəl, nadir çap üsulu ilə hamını heyrətləndirir. Kiçik kitablarda böyük dünyanı görürük.

Bu günlər "Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycan Respublikasına dövlət səfəri" adlı yeni miniatür kitab işıq üzü görmüşdür. Nəfis tərtibatla çap olunmuş kitab oxucular üçün qiymətli bir hədiyyədir. Kitabın ön səhifələrində qardaş ölkələrin aylı-ulduzlu bayraqları və ərazilərinin miqyasını göstərən xəritələrin şəkilləri verilib. Növbəti səhifələrdə isə Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azəbaycan Respublikasına səfərinin tarixi haqqında məlumatla tanış oluruq. Məlumatdan sonra qardaş ölkələrin prezidentlərinin - Rəcəb Tayyib Ərdoğanın və İlham Əliyevin ölkələrinin bayraqlarının önündə şəkillərini görürük.

Kitabın növbəti səhifələrində oxuculara Türkiyə Prezidentinin Azərbaycana dövlət səfəri haqqında ətraflı məlumat verilib. Oxucu kitabı oxuduqca öyrənir ki, 13 iyun 2023-cü ildə Azərbaycana dövlət səfərinə gəlmiş Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan rəsmi qarşılanmadan sonra Fəxri xiyabana gedərək Ümummilli Lider, müasir Azərbaycanın memarı və qurucusu Heydər Əliyevin və Ulu Öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın xatirələrini ehtiramla anmış, məzarları üzərinə tər güllər düzmüşdür.

Daha sonra kitabda sayın Rəcəb Tayyib Ərdoğanın Azərbaycana dövlət səfərinə geniş yer ayrılır. Kitabı maraqla oxuyan hər kəs qardaş ölkənin dövlət başçısının ölkəmizə ikigünlük səfəri haqqında geniş məlumat alır. Topluda həmçinin Türkiyə Prezidentinin qarşılanmasını, keçirdiyi rəsmi görüşləri əks etdirən şəkillər də dərc olunub. Şəkillər kitabı daha da oxunaqlı edib.

Miniatür Kitab Muzeyinin xətti ilə "İndiqo" nəşriyyatında çapdan çıxmış kitabda materiallar həm Azərbaycan, həm də ingilis dillərində verilib.

*V.MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

Ustad sənətkarlarımız

# Azərbaycan xalçaçılıq tarixinin Lətif Kərimov səhifəsi

**Azərbaycanın mədəniyyət və incəsənət tarixində elə insanlar var ki, adları çəkiləndə gördüyü işlər, yaratdığı sənət nümunələri kino lenti kimi gözlərimiz önündən gəlib keçir. Belə sənətkarlardan biri də Azərbaycan xalçaçılığının inkişafında böyük xidmətləri olmuş Lətif Kərimovdur. L.Kərimov incəsənət tariximizdə çox nadir şəxsiyyətlərdəndir ki, yaradıcılığında praktika ilə nəzəriyyəni paralel inkişaf etdirmişdir.**



Lətif Kərimov 1906-cı ildə Şuşa şəhərində dünyaya göz açmışdı. Onların nəsli - bütün "Allahverənlər" tayfası toxuduqları bənzərsiz xalçaları ilə Qarabağ mahalında məşhur olmuşdu. 1912-ci ildə onların ailəsi İranın Məşhəd şəhərinə köçmüşdü. Xalça sənətinə olan məhəbbət Lətifi məşhur xalçaçı Mirzə Ələkbər Hüseynzadənin şəhərdəki emalatxanasına gətirib çıxarmışdı. Gənc Lətif Təbriz, Ərdəbil kimi məşhur xalça mərkəzlərini gəzib, hər sənətkardan, hər toxucudan bir təkrarsız ilmə vurmaq, bir naxış salmaq öyrənir, bu sahəyə böyük maraq göstərirdi. Bir müddət sonra onlar geriyə - vətənə dönmüşlər.

Şuşa şəhərindəki "Qarabağxalça" artelində təlimatçı işləyən Lətif Kərimov yerli xalçatoxuma işlərinin sirlərini dərindən mənimsəyirdi. Getdikcə bilik və bacarığını təkmilləşdirən, zənginləşdirən L.Kərimov 1930-cu ildən xalça sənəti mütəxəssisi kimi "Azərbaycanxalça" birliyində rəssam-təlimatçı vəzifəsində çalışmağa başlamışdı. İlk dəfə olaraq məhz onun təşəbbüsü ilə Bakıda və Qubada xalça məktəbləri açılmışdır. Sənətinin bilicisi olan Lətif Kərimov təkcə xalçaçılıq sahəsində deyil, dekorativ tətbiqi sənətin başqa sahələrində də çalışır, uğurlar qazanırdı. Ömrünün 1930-1940-cı illəri Lətif Kərimovun yaradıcılığında mühüm yer tutur. Bu illərdə yaratdığı bədii tərtibatlarda və başqa sahələrdə Şərqin bədii sənət xəzinəsindən ilham almış ustad əlinin izləri açıq-aydın görünür.

Həmin illərdən başlayaraq Lətif Kərimovun xalçaları Azərbaycandan uzaqlarda da böyük rəğbət və maraqla qarşılanır. Onun böyük şair Firdovsinin anadan olmasının 1000 illiyinə həsr etdiyi xalçası 1934-cü ildə Parisdə keçirilən dünya sərgisində nümayiş etdirilmiş və böyük uğur qazanmışdır. Böyük əziyyətlərə qatlaşan sənətkar əsrlərin dərinliklərindən üzü bəri Azərbaycan xalçalarının növlərinə aid müxtəlif kompozisiya və naxışları toplamış, beləliklə, Quba, Şirvan, Bakı, Qazax, Gəncə, Qarabağ, Təbriz və Borçalı xalça qruplarına daxil olan 150-dən artıq xovlu və xovsuz xalça məmulatı çeşidlərinin rəngli reproduksiyasını hazırlamışdır. Onun bu tədqiqat əsərləri Azərbaycanın xalça sənətinin tarixinə qızıl hərflərlə yazılmışdır.




Lətif Kərimov tanınmış rəssamlarımız K.Kazımzadə, İ.Axundov və başqaları ilə birlikdə 1940-1941-ci illərdə dahi Azərbaycan şairi Nizami Gəncəvinin yubileyinə həsr edilmiş beş xalça hazırlamışdır. Baxanların, görənlərin diqqətini çəkən bu xalçalarda böyük Azərbaycan şairinin "Xəmsə"sinə daxil olan poemalardan götürülmüş bir-birindən maraqlı epizodlar təsvir edilmişdir.

Lətif Kərimovun "Azərbaycan xalçalarında ornament" kitabı xalçalarımızdakı naxışların, ornamentlərin öyrənilməsi baxımından misilsiz əhəmiyyətə malikdir. Böyük elmi əhəmiyyəti olan bu əsərə görə 1950-ci ildə Lətif Kərimova Leninqrad şəhərində sənətşünaslıq namizədi alimlik dərəcəsi verilmişdir. Onun monumental tədqiqat işlərindən biri də çoxcildli "Azərbaycan xalçası" monoqrafiyasıdır. 1972-ci ildə Bakıda Xalça muzeyinin yaradılması da L.Kərimovun təşəbbüsü ilə olmuşdur.



Lətif Kərimov AMEA-nın Memarlıq və İncəsənət İnstitutunda şöbə müdiri işləmiş, 1960-cı ildən indiki Mədəniyyət və İncəsənət Universitetində pedaqoji fəaliyyət göstərmişdir. Onun eskizləri əsasında və rəhbərliyi ilə "Əfşan" (1931, 1957), "Qonaqkənd" (1939), "Ləçəkturunc" (1952, 1982), "Şuşa" (1953), "Göygöl" (1958), "Qarabağ" (1960), "İslimi" (1964), "Butalı" (1965), "Bahar" (1967, 1977), "Ağaclı" (1974) "Şəbi-hicran" (1975) və onlarca başqa süjetli xalçalar toxunmuşdur. Görkəmli xalçaçı rəssam və xalçaşünas alimin üçcildlik "Azərbaycan xalçası" adlı kitabı, xüsusən də birinci cildi nəşr olunandan qısa müddət sonra bütün dünyaya yayılmış və sənət biliciləri arasında yüksək rəğbət qazanmışdır. Avropa, Amerika, Şərq ölkələrindən məşhur xalçaşünas alimlər və ekspertlər ona çoxsaylı məktublar göndərərək kitab haqqında qiymətli fikirlərini bildirmişdilər.

Böyük sənətkar Lətif Kərimovun xidmətləri layiqincə qiymətləndirilmişdir. Müxtəlif illərdə "Azərbaycan SSR Xalq rəssamı", "Azərbaycan SSR Əməkdar incəsənət xadimi" fəxri adlarına, "Stalin" mükafatına, 2 dəfə "Qırmızı Əmək Bayrağı", həmçinin "Xalqlar dostluğu", "Şərəf nişanı" ordenlərinə, "1941-1945-ci illər Böyük Vətən müharibəsində rəşadətli əməyə görə", "1941-1945-ci illər Böyük Vətən müharibəsində Almaniya üzərində qələbəyə görə" medallarına və Azərbaycan SSR Ali Sovetinin fəxri fərmanına layiq görülmüşdür.

1991-ci il sentyabrın 8-də vəfat edən dəyərli alim Lətif Kərimov 1-ci Fəxri Xiyabanda dəfn olunmuşdur.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

Xəbər

# Praqada Azərbaycana həsr edilmiş filmin təqdimatı olub

**Praqada Azərbaycan Respublikasının Çexiyadakı səfirliyinin dəstəyi ilə Ostrava televiziyasının hazırladığı Azərbaycana həsr edilmiş filmin təqdimat mərasimi keçirilib. Qeyd edək ki, "Azərbaycan Petr Voldanın gözü ilə" adlı layihənin məhsulu olan 13 hissədən ibarət qısametrajlı filmdə Azərbaycanın müxtəlif guşələri, mədəniyyəti, tarixi və xalqın gündəlik həyatı təsvir edilib.**



Təqdimat mərasimində çıxış edən ölkəmizin Çexiyadakı səfiri Adış Məmmədov filmin rejissoru Petr Voldana, filmin hazırlanmasında əməyi olan hər kəsə, xüsusilə də Çexiya televiziyasının rəhbərliyinə təşəkkürünü bildirib. Sonra səfir mədəniyyətin xalqların tanınmasındakı rolundan danışıb, bu xüsusda son illərdə Azərbaycan səfirliyinin birbaşa təşkilatçılığı və dəstəyi ilə Azərbaycan yazıçılarının əsərlərindən ibarət 3 kitabın çex dilinə tərcümə edilərək çap edildiyini diqqətə çatdırıb. Geniş çex auditoriyasına təqdim olunan filmin də Azərbaycanın tanıdılması və təbliğ olunması işinə böyük töhfə verəcəyinə əminliyini vurğulayan A.Məmmədov bu layihənin gələcəkdə Azərbaycan haqqında müxtəlif mövzuları əhatə edən yeni-yeni filmlərin çəkiləcəyi ilə davam etdirilməsinə də ümidvar olduğunu bildirib.

Sonra A.Məmmədov Azərbaycanda mövcud olan tolerant və multikultural cəmiyyətin başqa xalqlar və ölkələr üçün nümunə olduğundan danışıb. Bu gün Azərbaycanın Prezident İlham Əliyevin rəhbərliyi ilə regionun iqtisadi və siyasi həyatında oynadığı roldan və dünya iqtisadi sisteminə verdiyi töhfələrdən danışıb. Sonra Petr Voldan və filmin yaradıcı heyəti çıxış edərək, Azərbaycan haqqında təəssüratlarını bölüşüblər. Sonda isə filmə baxış keçirilib.

Qeyd edək ki, təqdimatda diplomatik korpusun üzvləri, çex ictimaiyyətinin nümayəndələri, Karlov Universitetinin müəllim heyəti və həmvətənlərimiz iştirak ediblər.

# Banklar niyə bağlanır?




Son illər bankların müflis elan olunaraq bağlanması halları ilə tez-tez rastlaşırıq. Hətta mütəxəssislər yaxın vaxtlarda digər xırda bankların da iflasa uğraya biləcəyini proqnozlaşdırırlar.

Lisenziyası ləğv edilən banklarda yerləşdirilən əmanətlərlə bağlı vətəndaşlar üçün heç bir təhlükə olmasa da, bu hal cəmiyyətdə ümumi bank sektoruna olan inamı sarsıdır. Ona görə də kreditləşməsi lazımi səviyyədə olmayan və ya maliyyə yardımına ehtiyacı olan bankların bağlanması ən sonuncu çıxış yolu olmalıdır.

Bəs ölkəmizdə bir sıra bankların lisensiyasının ləğv edilməsini zəruri edən amillər hansılardır? Həmçinin bu göstəricinin minimuma endirilməsi üçün çıxış yolu nədir?

## Banklara əmanət yerləşdirməyə maraq azdır

Son dövrlər bankların maliyyə vəziyyətinin çətinləşməsinin, onların aktivlərinin həcminin və öhdəliklərinin yerinə yetirilmə səviyyəsinin aşağı düşməsinin bir sıra səbəbləri var. İlk səbəb odur ki, inflyasiya nəticəsində vətəndaşların gəlirləri əvvəlki kimi sərbəst vəsaitlərin formalaşmasına şərait yaratmır. Həmçinin bankların vətəndaşlara xüsusi fürsət tanımamaları da cəmiyyətdə əmanət yerləşdirməyə marağı azaldır. Bankların bu sahədə xüsusi yenilik tətbiq etməməsi isə vəziyyəti daha da çətinləşdirir. Bundan başqa, ölkədə banklar tərəfindən depozitlər üzrə təklif olunan gəlirlilik səviyyəsinin aşağı olması da buna səbəb olan faktorlardandır.

Mövzu ilə bağlı "Azərbaycan" qəzetinə danışan Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Vüqar Bayramov deyib ki, bankların bağlanmasının digər səbəbi də bank sektorunda uzun müddət şəffaflıqla bağlı güclü nəzarətin olmamasıdır. Bu, həmin banklarda korporativ idarəetmənin formalaşmasına imkan vermir. Nəticədə isə həm aktivlərdə azalmalara, həm də maliyyə problemlərinin yaranmasına gətirib çıxarıb. Belə olan halda da bank sektoruna ziyan vura biləcək və ya faydası sıfra bərabər olan bankların lisenziyası ləğv edilir.

İqtisadçılar deyirlər ki, bir sıra bankların bağlanma səbəbləri arasında onların maliyyə pozuntularına yol verməsi halları da var. Həmin bankların vaxtında ləğv olunmaması isə daha çox pul batmasına səbəb ola bilər.

## Çıxış yolu nədir?

Bu yaxınlarda müflis elan olunaraq bağlanan "Muğan Bank" aktivlərinin həcminə görə 24 bank arasında 16-cı idi. Bu statistika növbəti aylarda hələ bir neçə bankın da bağlanacağı ilə bağlı ehtimalları doğruldur. Lakin iqtisadçılar hesab edirlər ki, siyahıda adı "Muğan Bank"dan sonra gələn bankların hər birini bağlamaq lazım olduğu qənaətinə gəlinməməlidir. Onların bəzilərinin ölkənin bank sektorundakı əhəmiyyəti çox aşağı səviyyədə olsa da, lisenziyalarının ləğvinə gedilməməlidir.

Deputat Vüqar Bayramov bildirib ki, ümumiyyətlə, bankların müflis elan olunaraq bağlanması vəziyyətdən çıxış yolu deyil. Əsas bank sisteminin sağlamlaşdırılmasıdır. Hətta bağlanan bankların sektordakı payı yüksək olmasa da, həm aktivlərdə, həm də kredit portfelində kiçik paya malik olsalar da, onlardan hansısa birinin müflis elan olunması bütövlükdə bank sektoruna zərbə vurur.

Deputat təklif edib ki, bankların sağlamlaşdırılması ilə bağlı Mərkəzi Bank tərəfindən ayrıca dövlət proqramının qəbul edilməsi və həmin proqram çərçivəsində bu gün problemli hesab olunan, eləcə də aktivlərində azalma müşahidə edilən bankların sağlamlaşdırılması ilə bağlı tədbirlərin həyata keçirilməsi məqsədəuyğun hesab edilir.

"Sonuncu dəfə müflis elan olunaraq bağlanan "Muğan Bank"ın aktivlərinin həcminə görə 24 bank arasında 16-cı olması ondan xəbər verir ki, hələ sağlamlaşdırılmasına ehtiyac olan bir çox bank var. Ona görə də zəif bankların sektordakı mövqeyini qorumaq, eləcə də müflisləşməsinin qarşısını almaq üçün lazımi tədbirlər görmək şərtdir. Ümumiyyətlə, dövlət proqramı qəbul edərək bu problemin həllinə çalışmaqla həm də bütövlükdə bank sektorunda maliyyə dayanıqlığı təmin edilə bilər", - deyə deputat bildirib.

## Bankların bağlanması vətəndaşlara necə təsir göstərir?

Məlumatlara əsasən, bu günədək müflis elan olunaraq bağlanan bankların heç birində vətəndaşların müvafiq şərtlər çərçivəsində yerləşdirdikləri əmanətlər batmayıb. Bankların bağlanmasının birbaşa vətəndaşlara təsirlərindən danışan iqtisadçı Əkrəm Həsənov da təsdiqləyib ki, bunun vətəndaşlar üçün, demək olar ki, heç bir təhlükəsi yoxdur. Çünki Azərbaycanda vətəndaşların bankda 100 min manata qədər əmanəti sığortalanandır.

İqtisadçı onu da qeyd edib ki, əvvəllər Əmanətlərin Sığortalanması Fondu müflisləşən banklarda əmanətlərin qaytarılmasını xüsusi hallarda 6 aya qədər uzada biləcəyi halda, ümumiyyətlə, 3 ay ərzində kompensasiya etməli idi. Bir neçə ay əvvəl qanuna edilən dəyişikliyə əsasən isə bu müddət bir aya endirildi. Yəni bank bağlanacağı halda vətəndaşın əmanəti 1 ay ərzində geri qaytarılmalıdır. Əmanətçilər üçün bu baxımdan da təhlükə yoxdur. Əkrəm Həsənov əlavə edib ki, amma bankların bağlanması şirkətlər üçün müəyyən qədər risklidir. Çünkü belə olan halda onlar pul vəsaitlərini itirə bilərlər.

"Nəzərə almaq lazımdır ki, Azərbaycan Mərkəzi Bankı bir qayda olaraq bankların lisenziyasını ləğv etməzdən əvvəl onlara müəyyən qədər vaxt verir. Bankların sahiblərinə və səhmdarlarına vəsait qoymaları, yaxud da yeni səhmdar tapmaları üçün şans tanıyır. Lakin təəssüflər olsun ki, ölkədə bankların birləşdirilməsi təcrübəsinə, demək olar ki, rast gəlinmir", - deyə iqtisadçı bildirib.

İqtisadçı həmçinin deyib ki, sektorda şəffaflığın təmin olunması və sağlam rəqabət mühitinin yaradılması problemlərin həlli baxımından faydalıdır.

*Nəzrin QAFARZADƏ,*
*"Azərbaycan"*

# Qeyri-neft-qaz sektoru üzrə məhsul ixracı 11,1 faiz artıb

## 10 ay ərzində "Azərkosmos"un xidmətlərindən 46 ölkə istifadə edib

Həyata keçirilən iqtisadi islahatların əsas hədəflərindən biri olan qeyri-neft-qaz sektorunu inkişaf etdirmək üçün ölkədə bu sektor üzrə məhsul ixrac etməyə imkan verən yüksək texnologiyalı müəssisələr yaradılır. Məqsəd bu növ məhsullarla daxili tələbatı ödəməklə yanaşı, ixracın artmasına nail olmaqdır. Son dövrlərin statistikasına nəzər yetirdikdə görürük ki, həmin məqsədə nail olunur, yəni ixracda qeyri-neft-qaz sektoruna aid məhsulların çəkisi ildən-ilə artır.



İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin təqdim etdiyi "İxrac icmalı"nın noyabr sayında bildirilir ki, cari ilin yanvar-oktyabr ayları ərzində Azərbaycanın ümumi ixracının dəyəri 29,3 milyard dollar, qeyri-neft sektoru üzrə ixracın dəyəri isə ötən ilin müvafiq dövrü ilə müqayisədə 11,1 faiz artaraq 2,7 milyard dollar təşkil edib. Hesabat dövründə yeyinti məhsulları üzrə ixracın dəyəri 706,9 milyon dollara çatıb. Cari ilin 10 ayı ərzində spirtli və spirtsiz içkilərin, elektrik enerjisinin ixracı 2,9 dəfə, plastmas və ondan hazırlanmış məmulatların ixracı 24,6, qara metal məmulatlarının ixracı 19,8, meyvə-tərəvəz ixracı isə 11,5 faiz artıb.

Bu dövr aqrar və aqrar-sənaye məhsulları üzrə birgə ixracın statistik dəyəri 9,2 faiz artaraq 733,8 milyon dollar təşkil edib. Qeyri-neft-qaz ixracının tərkib hissəsində əhəmiyyətli yer tutan aqrar-sənaye məhsullarının yaratdığı dəyər ötən ilin müvafiq dövrü ilə müqayisədə 12,9 faiz artaraq 162,7 milyon dollar olub.

Həmin aylar ərzində ixrac edilən qeyri-neft sektoruna aid malların siyahısında elektrik enerjisi birinci, pomidor (tomat) ikinci, qızıl isə üçüncü yerdə qərarlaşıb. Hesabat dövründə qeyri-neft sektoruna aid ən çox mal Rusiya Federasiyasına, Türkiyəyə, Gürcüstana, İsveçrə Konfederasiyasına, Qazaxıstana ixrac olunub.

Təkcə oktyabrda ölkə üzrə qeyri-neft məhsullarının ixracının dəyəri 15,4 faiz artaraq 278,2 milyon dollara çatıb. Yeyinti məhsulları üzrə ixracın dəyəri 24,1 faiz artımla 90,6 milyon, qeyri-yeyinti məhsulları üzrə ixrac dəyəri isə 11,6 faiz artımla 187,7 milyon dollar olub.

Oktyabr ayında qeyri-neft sektoruna aid ən çox mal ixrac edilən ölkələrin siyahısında Rusiya Federasiyası birinci, Türkiyə ikinci, Gürcüstan üçüncüdür. Həmin ayda ixrac edilən qeyri-neft sektoruna aid malların siyahısında xurma birinci, elektrik enerjisi ikinci və qızıl isə üçüncü yerdə qərarlaşıb. "İxrac icmalı"nda göstərilib ki, bu ilin 10 ayında "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi vasitəsilə həyata keçirilən qeyri-neft məhsullarının ixracının dəyəri 221,4 milyon, noyabr ayında isə 42 milyon dollar olub.

İcmal tərəfindən qeyri-neft sektoru üzrə cari ilin yanvar-oktyabr aylarında həyata keçirilmiş ixracla bağlı həm qeyri-dövlət, həm də dövlətə məxsus ixracatçı subyektlərin reytinqi də tərtib edilib. Qeyri-dövlət ixracatçı subyektlərin reytinqində ilk onluqda Şirinov Elvin Valeh oğlu, "MKT İstehsalat Kommersiya" MMC, "Baku Steel Company" QSC, "Azərbaycan İnterneyşnl Mayninq Kompani Limited Şirkəti"nin Azərbaycan Respublikasındakı nümayəndəliyi, "Best Logistik" MMC, "STP Global Cable" MMC, "My Fruit" MMC, "P-Aqro" MMC, "Mors Trading" MMC, "Azərbaycan Şəkər İstehsalat Birliyi" MMC yer alıb. Qeyri-neft sektoru üzrə ixrac əməliyyatlarında iştirak edən dövlətə məxsus şirkətlərin siyahısına isə "Azərenerji" ATSC başçılıq edir. Daha sonra siyahıda ARDNŞ-nin Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi, "SOCAR Polymer" MMC, "Azəralüminium" MMC, "AzerGold" QSC, "Azərpambıq Aqrar Sənaye Kompleksi" MMC, "Azərbaycan Hava Yolları" QSC, "Azəripək" MMC, "Azərbaycan Dəmir Yolları" QSC, Naxçıvan MR Dövlət Energetika Xidməti təmsil olunublar.

Cari ilin 10 ayında Azərbaycan Respublikasının Kosmik Agentliyi ("Azərkosmos") tərəfindən dünyanın 46 ölkəsinə 16,1 milyon dollar dəyərində peyk telekommunikasiya xidmətləri ixrac edilib. "Azərkosmos"un xidmət ixracından əldə etdiyi gəlir onun ümumi gəlirlərinin 78 faizinə bərabər olub. Oktyabr ayında isə "Azərkosmos" dünyanın 42 ölkəsinə 1,7 milyon dollar dəyərində xidmət ixracını həyata keçirib. 10 ay ərzində "Azərkosmos"un peyk telekommunikasiya xidmətlərindən ən çox Birləşmiş Krallıq, Lüksemburq, BƏƏ, ABŞ, Almaniya və Nigeriya istifadə edib.

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*




# Betondakı çatları aradan qaldıran məhsul



ABŞ-nin Dreksel Universitetinin mütəxəssisləri bioloji liflərə sahib xüsusi material hazırlayıblar. Hazırlanmış material bakteriyalar vasitəsilə betondakı mikroskopik çatları aradan qaldırır. Bu, binaların, körpülərin və digər infrastruktur obyektlərinin təmiri zamanı texniki xidmətə qənaət edəcək.

"BioFiber" adlı material polimer liflərdən təşkil edilib. Həmin liflər isə endosporlardan (yatmış şəkildə yaşayan bakteriyalar) ibarət hidrogel örtüyünə sahibdir. Sözügedən bakteriyalar ekstremal vəziyyətlərə tab gətirərək ətraf mühitin münasib olduğu hallarda oyanırlar.

Betonda çatın əmələ gəldiyi halda onun su ilə qarşılıqlı əlaqəsini gözləmək lazımdır. Bu hidrogel genişlənir və qabığından çıxır. Bakteriyalar isə yuxudan oyanaraq onları əhatə edən betondakı karbon və kalsium ilə qidalanmağa başlayır. Nəticədə onlar betondakı çatları sementləşdirən material qismində çıxış edən kalsium karbonatı formalaşdırırlar.

"BioFiber" betondakı çatı 1-2 günə aradan qaldırır.

# Ginnesin Rekordlar Kitabına düşən smartfon kolleksiyası

**Dünyanın ən böyük mobil telefon kolleksiyası Ginnesin Rekordlar Kitabına əlavə edilib. Kolleksiya özündə 3000-dən çox müxtəlif mobil telefonu birləşdirir. Yeni rekord noyabrın 3-də qeydə alınıb.**



Kolleksiyanın sahibi rumın Andrey Bilbiy Argentisdir. O, Rumıniyanın Kluj-Napoka şəhərində yaşayır. A.B.Argentis mobil telefonlar kolleksiyasını 2018-ci ildən yığmağa başlayıb. Ginnesin Rekordlar Kitabı nümayəndələrinin sözügedən kolleksiyanın sahibinə müraciət etdikləri zaman onun kolleksiyasında artıq 3456 ədəd müxtəlif mobil telefon mövcud idi. Təqdim edilmiş fotodan da görmək olar ki, mobil cihazlar kolleksionerin evində xüsusi stendlərdə yerləşir.

# Yerə bənzəyən ekzoplanet aşkarlanıb



Amerikalı alimlər təsdiqləyiblər ki, Yerdən cəmi 22 işıq ili uzaqlığında planetimizə bənzər ekzoplanet yerləşir. "LTT 1445 Ac" adlı ekzoplanet "TESS" teleskopu vasitəsilə 2021-ci ildə tranzit üsulu sayəsində kəşf edilib.

Belə ki, ekzoplanet öz ulduzu qarşısından keçən zaman onun parlaqlığını aşağı salır və alimlər bunun sayəsində bu və ya digər ulduz sistemindəki planeti təyin edə bilirlər.

"Hubble" teleskopu sayəsində məlum olub ki, "LTT 1445 Ac" Yerdən 1,37 dəfə ağırdır. Onun radiusu isə Yer kürəsinin radiusundan 1,07 dəfə böyükdür. Bununla yanaşı, məlum olub ki, ekzoplanetin sıxlığı hər kub santimetrə 5.9 qram təşkil edir.

Yəni ekzoplanet öz ulduzuna olduqca yaxın məsafədə yerləşir. Onun ulduzunun sadəcə qırmızı cırtdan (Günəşdən daha soyuq ulduz) olmasına baxmayaraq, "LTT 1445 Ac"ın səthində temperatur göstəricisi müsbət 260 dərəcəyə çatır.

# Yüksək enerjiyə malik kosmik hissəcik kəşf edilib

**Yaponiyanın Osaka Metropolitan Universitetinin alimləri son dərəcə yüksək enerjiyə malik kosmik hissəcik kəşf ediblər. O, yapon Günəş ilahəsinin şərəfinə "Amaterasu" adını alıb.**



Kosmik şüalar mənbələri kosmosda olan yüklü hissəciklərin axınlarıdır. Fövqəladə nadir şüalar bir exaelektronvoltun (EeV) enerjisinə çata bilir ki, bu da bəşəriyyət tərəfindən yaradılmış ən güclü hissəcik sürətləndiricilərinin enerjisindən təxminən bir milyon dəfə çoxdur.

Beynəlxalq alimlər qrupu 2008-ci ildən "Teleskop Array" eksperimentini aparır. Bu kosmik şüa detektoru 507 yerüstü stansiyadan ibarətdir. 27 may 2021-ci ildə bu layihə çərçivəsində tədqiqatçılar 244 EeV nəhəng enerji səviyyəsinə malik "Amaterasu" hissəciyini kəşf ediblər. Zərrəciyin gəldiyi istiqamətdə kainatda lokal boşluq var. Ən yüksək enerjiyə malik olan "Oh-My-God" (Oh-My-God) 1991-ci ildə kəşf edilib, onun enerjisi isə 320 EeV olub.

Kosmik şüaların gəldiyi istiqamətdə heç bir əhəmiyyətli astronomik obyekt aşkar edilməyib ki, bu da naməlum astronomik hadisələrin mövcudluğunun mümkünlüyünü göstərir.

# Qədim və unikal su qurğusu

**İraqın cənubunda yerləşən qədim Girsu şəhərində şumerlər 4 min il əvvəl quraqlıqdan xilas olmaq üçün su kanalı üzərində qurğu düzəldiblər. Şəhər sakinləri Dəclə və Fərat çaylarından bu kanala gələn sudan kənd təsərrüfatında istifadə ediblər.**



Britaniya muzeyinin alimləri dronlar vasitəsilə aparılan tədqiqatlar zamanı 19 kilometr uzunluqdakı kanalda qədim qurğunu aşkar ediblər. O, su hövzəsinin üzərindən keçdiyi üçün ən qədim körpü olduğu da iddia edilir. Qurğu Girsunun ucqar yerlərinə suyun çatdırılması üçün istifadə edilən novdan ibarətdir. Burada aşkar edilmiş daş lövhələr su böhranı və son xilas cəhdindən bəhs edir.

Qeyd etmək lazımdır ki, qədim şumerlər qurğudan istifadə zamanı Venturi effektindən - təzyiqin azalmasından və dar borudan keçən suyun sürətinin artmasından istifadə ediblər. İndiyədək bu effektin XVIII əsrdən istifadə olunduğu hesab olunurdu.

# Marsda yeraltı çatlar

**Çinin Marsa göndərilən Curonq araşdırma qrupu planetin səthində radar skanlarında qeyri-müntəzəm yeraltı çatların olduğunu aşkarlayıb.**



Çin Elmlər Akademiyasının Geologiya və Geofizika İnstitutunun tədqiqatçıları planetdə iqlim dəyişiklikləri və su aktivliyi ilə bağlı yeni sübutlar təqdim ediblər. Araşdırmanın nəticələri "Nature Astronomy" jurnalında dərc olunub.

Kosmik kəşfiyyat gəmisi Marsın şimal yarımkürəsindəki böyük düz ərazidəki fəaliyyəti zamanı təxminən 1,2 kilometrlik xətdə yerin 35 metr altında 16 çoxbucaqlı çatın mövcudluğunu aşkar edib. Tədqiqatçılar diametri bir neçə santimetrdən on metrə qədər dəyişən çatın donma-ərimə dövrləri nəticəsində əmələ gəldiyini təxmin edərək, yaş çöküntü təbəqələrinin və ya lavanın soyuması və çatlaması nəticəsində meydana çıxa biləcəyini də qiymətləndiriblər.

# Ən böyük qalaktikalar

**"James Webb" kosmik teleskopu ən uzaq məsafədə yerləşən qalaktikaları kəşf edib. Bu qalaktikaların Böyük partlayışdan 300-400 milyon il sonra formalaşdığı müəyyən olunub.**



Alimlər detallı müşahidə aparmaq üçün Yerdən təqribən 3.5 milyard işıq ili uzaqlığında yerləşən "Abel 2744" adlı qalaktikalar qruplaşması ətrafındakı zonanı seçiblər. 2023-cü ilin fevralında qalaktikalar ətrafındakı zonada aparılan 30 saatlıq müşahidə nəticəsində 10 min yeni işıq mənbəyi aşkar edilib. Alimlər bu müşahidələr əsasında həmçinin ən uzaq məsafədə yerləşən iki qalaktikanı da təyin ediblər. Onlardan birinə "UNCOVER z-13", digərinə isə "UNCOVER z-12" adı verilib. Yer kürəsindən ən uzaq məsafədə yerləşən obyektlər arasında müvafiq olaraq ikinci və dördüncü yerləri tutan "UNCOVER z-13" və "UNCOVER z-12" erkən kainatda kəşf edilmiş ən böyük qalaktikalardır.

*Hazırladı:*
*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

Demoqrafiya

# İndi də şəhərdən kəndə axın var

**Azərbaycanda əhalinin son siyahıyaalınmasının nəticəsi əsasında 2023-cü il oktyabr ayının 1-i vəziyyətinə əhalinin hesablanmış sayı 10 milyon 168 min 369 nəfər təşkil edib.**





Dövlət Statistika Komitəsi Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələrinin məlumatlarına əsaslanaraq bildirir ki, cari ilin yanvar-sentyabr aylarında ölkə üzrə 85 min 352 körpə anadan olub. Bu göstərici ötən ilin müvafiq dövrü ilə müqayisədə əhalinin hər 1000 nəfərinə hesabı ilə azalaraq 12,4-dən 11,2-yə düşüb. Doğulan körpələrdən 2574-ü əkiz, 102-si üçəm, 4-ü isə dördəm olub.

Doğumun səviyyəsi əvvəlki illərə nisbətən aşağı olsa belə, əhali əsasən təbii artımla və bir qədər də digər ölkələrdən köçub gələnlərin hesabına çoxalır. Təbii artım təzə doğulan uşaqların sayının dünyasını dəyişən insanların sayını üstələməsi deməkdir və belə hal heç də hər ölkədə baş vermir. Azərbaycanda isə bu xoşbəxtlik həmişə var! Rəqəmlər göstərir ki, cari ilin 9 ayında da dünyaya göz açan körpələrin sayı həyatdan köçənlərin sayını iki dəfəyə qədər üstələyib.

Yeri gəlmişkən: rəqəmlər 2022-ci ilin müvafiq dövrü ilə müqayisədə ölümün səviyyəsinin aşağı düşdüyünü də təsdiqləyir. Belə ki, bu ilin 9 ayında ölkədə 45 min 16 ölüm halı qeydə alınıb. Əhalinin hər 1000 nəfərinə düşən göstəriciyə görə, ölümün səviyyəsi 6,1-dən 5,9-a enib.

Prezident İlham Əliyev "Siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır" deyir. Bu sözlərin arxasında Azərbaycan xalqının gündən-günə yüksələn rifah halını, dövlətin öz vətəndaşına sonsuz qayğısını ifadə edən böyük bir həqiqət dayanır. Bu həqiqəti bir çox fakt təsdiqləyir ki, onlardan biri də məhz ölüm hallarının azalmasıdır. Ötən müəyyən dövr ərzində koronavirus pandemiyası və erməni cəlladlarının cinayətləri nəticəsində yarımçıq qırılan ömürləri istisna etməklə, son illər ölkədə, ümumiyyətlə, ölümün səviyyəsi aşağı düşür, yaxud sabit qalır. Bunun səbəblərindən biri, əlbəttə ki, insanın gün-güzəranının yaxşılaşmasıdır. Bu mənada əhalinin gəlirlərinin çoxalması, əməkhaqqının getdikcə yüksəlməsi, pensiya və müavinətlərin artması böyük rol oynayır.

Azərbaycan vətəndaşının sağlamlığının qorunması dövlətin qarşıya qoyduğu ən mühüm vəzifələrdən biridir. Təsadüfi deyil ki, son illər əhaliyə göstərilən tibbi xidmətin səviyyəsi xeyli yüksəlib, müayinələrin sayı artıb, xəstələrin dərmanla təchizatı əhəmiyyətli dərəcədə yaxşılaşıb. Dövlət büdcəsində səhiyyənin inkişafına ayrılan vəsaitin məbləği ilbəil artır. Ölkədə yeni müasir müalicə ocaqları inşa edilib və əvvəlkilər yenidən qurulub, tibbi sığorta tətbiq olunub.

Bütün deyilənlərlə yanaşı, insanı yaşadan digər amillər də var. Bunlar xalqımızın milli-mənəvi dəyərləridir. Çətin gündə bir yerdə olmaq, bir-birinin dərdinə şərik çıxmaq, xoş hadisələr baş verəndə sevinci bölüşmək, yaşa dolmuş valideynlərə övladların qayğısı ömrü uzadan amillər sırasındadır.

Söhbət doğulanların və ölənlərin sayından düşmüşkən, anadan olan oğlan və qız uşaqlarının xüsusi çəkisini göstərən rəqəmlərə də diqqət yetirək. Dünyaya göz açan körpələrin 53,3 faizini oğlan, 46,7 faizini qız uşaqları təşkil edib. Oğlan və qızların xüsusi çəkisində təbiətin özünün yaratdığı mütənasiblik yenə də pozulmaqdadır. Qeyd edək ki, bu hal bir sıra digər ölkələrdə də müşahidə edilir. Hətta bu ölkələrdən bəziləri körpələrin cinsinin arzuedilən olmadığı üçün hələ ana bətnində ikən məhv edilməsinə qanunla qadağa qoyulub. Fikrimizcə isə, vəziyyətdən çıxış yolu məsələyə şüur və vicdanla yanaşmaqdır. Konkret olaraq, dünyaya göz acacaq qız övladının məhvinə qərar verən valideyn əməlinin günah və cinayət olduğunu dərk etməlidir. Belə gənc ata-analar bir həyat həqiqətini unutmamalıdırlar - o körpənin bircə dırnağı üçün burnunun ucu göynəyənlər, illərlə müalicə alaraq varından-yoxundan çıxanlar, hətta ailəsi dağılanlar var.

Yeni doğulanların cins tərkibinin süni surətdə pozulması gələcəkdə genofondumuz üçün də böyük təhlükə yarada bilər. Bunun fəsadları indidən aydın görünməkdədir. Hazırda ölkədə kişilərin xüsusi çəkisi 49,8 , qadınların xüsusi çəkisi isə 50,2 faizdir. Halbuki on-on beş il əvvəl qadınların xüsusi çəkisi bundan böyük idi.

Təəssüf doğuran hallardan biri də boşanmaların artmasıdır. Onlar bir ara səngisə də, yenidən artıblar. Qeyd edək ki, sözügedən dövrdə yeni qurulan ailələrin də sayı azalıb. Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri cari ilin yanvar-sentyabr ayları ərzində 39 min 134 nikah və 16 min 226 boşanma halları qeydə alıb ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə əhalinin hər 1000 nəfərinə nikahların sayının azalaraq 6-dan 5,1-ə düşməsi, boşanmaların sayının isə 1,6-dan 2,1-ə qədər artması deməkdir.

Dövlət Statistika Komitəsinin açıqlamasında ölkə əhalisinin şəhər və kəndlərdə yerləşməsi haqqında rəqəmlər də öz əksini tapıb. Belə ki, hazırda əhalinin ümumi sayında şəhər əhalisinin xüsusi çəkisi 54,6 , kənd əhalisinin xüsusi çəkisi 45,4 faizdir. Bu rəqəmləri Prezident İlham Əliyevin cari il sentyabrın 29-da Zəngilanda keçirilən 2-ci Azərbaycan Milli Şəhərsalma Forumundakı çıxışında dediyi sözlərlə şərh edək: "Bu gün hər kəs urbanizasiyadan danışır. Bizdə də bu mövzu var. Bizim bu problemimiz uzun illərdir yaşanır - insanlar bölgələrdən, kəndlərdən şəhərə can atır. Çünki şəhərdə daha çox iş yerləri, məşğulluq imkanları var və özləri üçün daha yaxşı şərait yaratmaq istəyirlər. Amma bu gün biz onun şahidiyik ki, Bakıdan, Sumqayıtdan, Gəncədən, Mingəçevirdən, digər şəhərlərdən kəndlərə axın baş verir. Bu isə ilk növbədə Azərbaycan xalqının öz Vətəninə nə dərəcədə bağlı olduğunu göstərir. Onlar öz vətənlərində, əcdadlarının vətənlərində də yaşamaq istəyirlər".

Qaldı ki Azərbaycanda daimi yaşamağa gələnlərin və ölkədən biryolluq köçənlərin sayına, bu sahədə də saldomuz müsbət - 888 nəfərdir. Belə ki, başa vurmaqda olduğumuz ilin ilk 9 ayında Daxili İşlər Nazirliyi və Dövlət Miqrasiya Xidmətinin müvafiq qurumları həmişəlik yaşamaq üçün Azərbaycana 2860 nəfərin gəldiyini, 1972 nəfərin isə ölkədən birdəfəlik getdiyini qeydə alıblar. Bu faktların isə geniş şərhə ehtiyacı yoxdur. Onlar özləri də təsdiqləyir ki, Azərbaycanda yaşamaq və işləmək xoşdur.

***Flora SADIQLI,***
***"Azərbaycan"***


# OXUCULARIN NƏZƏRİNƏ!

"AZƏRBAYCAN" *qəzetinə*

*2024-cü il üçün abunə yazılışına başlanılır!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |


AZƏRBAYCAN
Prezident İlham Əliyev Dünya İqlim Fəaliyyəti Sammitində iştirak edib
Tərəfdaşlığımızın əhatə dairəsi genişlənir
Azərbaycan-Rumıniya münasibətləri xoş ənənələrə malikdir
Zəfər xərcləri
Sülh gündəliyi dəyişmir

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*


# Şimali Koreya peyklərinə müdaxiləni müharibə elanı kimi qiymətləndirəcək

Xəbər verildiyi kimi, Pxenyan ilk kəşfiyyat aparatını noyabr ayında uğurla orbitə çıxarıb. Ölkənin Mərkəzi Xəbər Agentliyi tərəfindən dərc edilmiş KXDR Müdafiə Nazirliyinin rəsmi nümayəndəsinin bəyanatında deyilir: "ABŞ Kosmik Qüvvələrinin KXDR peykinə qarşı düşmən və təhlükəli mövqeyini gözardı etmək olmaz. Bu, bizim suverenliyimizə açıq-aşkar çağırış, daha dəqiq desək, respublikamıza müharibə elan etməkdir".



"Kommersant"ın məlumatına əsasən, Pxenyan söz verib ki, əgər Birləşmiş Ştatlar müasir texnologiyadan silah kimi istifadə edərsə və suveren dövlətin hüquqlarına qəsd həyata keçirərsə, o zaman Şimali Koreya Amerika peyklərinin həyat qabiliyyətini azaltmaq və ya onların tamamilə məhv edilməsi üçün cavab tədbirləri nəzərdən keçirəcək.

KXDR rəhbərliyinin fikrincə, əgər Vaşinqton Şimali Koreyanın peykini məhv edilməli olan hərbi təhlükə hesab edirsə, o zaman Koreya yarımadasının səmasında daim dolaşan və bizim əsas strateji aktivlərimizi izləyən çoxsaylı Amerika peykləri prioritet hədəfə çevrilməli və silahlı qüvvələrimiz tərəfindən məhv edilməlidir.

Qeyd edək ki, KXDR Müdafiə Nazirliyinin bəyanatı ABŞ Kosmik Komandanlığının nümayəndəsinin şərhindən sonra verilib. Bir müddət əvvəl qurum rəsmisi Vaşinqtonun Şimali Koreya peykinin kəşfiyyat əməliyyatlarını dayandırmaq imkanına malik olub-olmaması ilə bağlı suala cavab verərək bildirmişdir ki, ABŞ müxtəlif vasitələrdən istifadə etməklə düşməni kosmosdakı imkanlardan məhrum edə bilər.

Xatırladaq ki, Şimali Koreya iki uğursuz cəhddən sonra noyabrın 21-də "Malligön-1" kəşfiyyat peykini uğurla orbitə buraxdığını elan edib. Aparat Yerin orbitinə çıxıb. O, Cənubi Koreya və ABŞ-də obyektlərin fotolarını çəkib.

"Malligön-1" kəşfiyyat peykinin uğurla orbitə buraxılması nəticəsində KXDR silahlı qüvvələrinin fəaliyyətində tamamilə yeni mərhələ açılıb. "Silahlı qüvvələrimiz bütün dünyada zərbə endirmək qabiliyyətinə malik olmaqla öz qüdrətini gücləndirdi və həqiqətən də dünyanın ən güclüsü oldu", - Şimali Koreyanın baş naziri Kim Dok Hun bildirib. Öz növbəsində KXDR lideri Kim Çen In Aerokosmik Texnologiyalar üzrə Dövlət Baş İdarəsində aerokosmik sənaye işçilərini təbrik edib və bildirib ki, "Malligön-1" peyki hərbi təhdidləri və düşmən qüvvələrin fəaliyyətini izləmək üçün "kosmosun keşikçisi"dir.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

# 2024-cü il Olimpiya Oyunları ərəfəsində Paris sakinlərinin narazılığı artır

Parislilər 2024-cü il iyulun 26-dan avqustun 11-dək bu şəhərdə keçiriləcək Olimpiya Oyunları ilə bağlı məyus olublar. Belə ki, son iki həftədə dərc olunan silsilə mənfi xəbərlərdən sonra onların narazılığı daha da artıb.




AZƏRTAC Fransa KİV-nə istinadla xəbər verir ki, əvvəlcə Paris meri Ann İdalqo gözlənilmədən bəyan etdi ki, şəhər nəqliyyatı Olimpiya Oyunları üçün vaxtında hazır olmayacaq. Sonra elan olundu ki, yarışlara biletləri olanlar üçün avtobuslar və metro pulsuz olmayacaq ( bu, Parisin Oyunlara müraciətində vəd edilmişdi), gediş-gəliş qiymətləri isə Olimpiya və Paralimpiya oyunlarının keçiriləcəyi altı həftə ərzində, demək olar ki, iki dəfə bahalaşacaq.

Fransız polisinin rəhbəri bildirib ki, onun tərtib etdiyi təhlükəsizlik planı ən azı hər bir Olimpiya obyektinin ətrafındakı dörd ayrı-ayrı qadağa zonasını əhatə edir. Bu bəyanata cavab verən hotel sahiblərinin Həmkarlar İttifaqının başçısı Rolan Eqi bəyan edib ki, onun polis rəisinin sözləri ilə bağlı sadəcə "başı ağrıyıb".

"Odoxa" sosioloji şirkətinin ictimai rəyin öyrənilməsi üzrə sorğusunun nəticələri göstərib ki, indi təxminən hər iki parislidən biri Oyunları "pis hoqqa" hesab edir. Paris sakinləri deyirlər: "Paris dözülməz şəhər olacaq. Maşını parklamaq, hərəkət etmək, bir iş görmək mümkün olmayacaq. Oyunlara hazırlaşmaq üçün yetərli büdcəsi olmayan madam İdalqo Parisi dağıdıb".

Hazırda şəhərin neqativ reytinqi 2021-ci il göstəricisindən 44 faiz çoxdur. Burada hətta özlərini tarixi Parisin qəyyumları elan edən sahildəki 230 kitab satıcısı və ya bukinistlərin iyulun 26-da Olimpiya açılış mərasimi ərəfəsində qutularını açmaq cəhdlərinə müqavimət göstərəcəyi də hesaba alınmayıb.

Yuxarıda göstərilənlər nəzərə alındıqda fransız yüngül atletika veteranı və Beynəlxalq Olimpiya Komitəsinin üzvü Gi Dryunun haqlı sözləri ilə razılaşmaq olar. O deyib: "İnanın, Oyunlar yaxınlaşdıqca, bu cür qalmaqalların sayı da artacaq". Beləliklə, yaxın aylarda hökumət parislilərin narazılığının yeni təzahürləri ilə üzləşə bilər.

# Azərbaycan güləşçiləri dünya çempionatının son günündə 3 medal qazanıblar

Azərbaycan güləşçiləri dünya çempionatının son günündə 3 medal qazanıblar. Yunan-Roma güləşi üzrə Azərbaycan millisi Bakıda hərbçilər arasında keçirilən dünya çempionatının son günündə 3 medal qazanıb.




AZƏRTAC xəbər verir ki, 60 kiloqram çəki dərəcəsində mübarizə aparan Nihad Quluzadə finalda iranlı Milad Reza Nejada qalib gələrək dünya çempionu olub.

Finalda İranın digər təmsilçisi Nasser Alizadeyə uduzan Laçın Vəliyev (87 kiloqram) gümüş medalla kifayətlənib. Qurban Qurbanov (77 kiloqram) isə rusiyalı Aleksandr Babumaranı məğlub edərək üçüncü yeri tutub.

Bu gün çıxış edən digər milli üzvlərindən Həsən Məmmədli (67 kiloqram) və Sərxan Məmmədov (130 kiloqram) medalsız qalıblar. Bununla da Azərbaycan güləşçiləri dünya çempionatını 21 medalla başa vurublar.

# "Narkomaniya və məişət zorakılığına qarşı mübarizədə vətəndaş məsuliyyəti" mövzusunda "dəyirmi masa" keçirilib

"Narkomaniya və məişət zorakılığına qarşı mübarizədə vətəndaş məsuliyyəti" mövzusunda "dəyirmi masa" keçirilib. Tədbir "Liatris Holding"in təşkilatçılığı ilə, Daxili İşlər Nazirliyi, Baş Prokurorluq, İnsan Hüquqları üzrə Müvəkkili - Ombudsman Aparatının dəstəyi ilə Heydər Əliyevin 100 illiyinə həsr edilən "Qadına şiddətə son" layihəsi çərçivəsində təşkil edilib.

AZƏRTAC xəbər verir ki, dövlət və cəmiyyətin ortaq problemi olan qadına qarşı zorakılığa diqqəti cəlb etmək, zərif cinsin nümayəndələrinin fiziki, psixoloji, iqtisadi, seksual, hüquqi zorakılıqlara məruz qalmasının qarşısının alınmasına dəstək olmaq məqsədi daşıyan "dəyirmi masa"da dövlət qurumlarının nümayəndələri, tanınmış ictimai xadimlər, Milli Məclisin deputatları iştirak ediblər.

Tədbirdə "Liatris Holding"in rəhbəri, iş xanımı Ruhi Əliyeva, Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili Səbinə Əliyeva, Azərbaycan Daxili İşlər Nazirliyi, Baş Prokurorluq və s. qurumların nümayəndələri, eləcə də Milli Məclisin deputatları - Arzu Nağıyev, Fazil Mustafa, Jalə Əhmədova, aparıcı media qurumlarının əməkdaşları çıxış edib müzakirələr aparıblar.

## ALLAH RƏHMƏT ELƏSİN!

Eldar Əzizov və Bakı Şəhər İcra Hakimiyyəti başçısı Aparatının kollektivi Bakı Şəhər İcra Hakimiyyəti başçısı Aparatının Tikinti məsələləri şöbəsinin müdiri Rəşid Ağayevə əzizi

**RAMİZ MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru professor Ədalət Muradov və universitetin kollektivi Vətəndaş Tədqiqat və İnkişaf İctimai Birliyinin sədri Günel Səfərovaya atası

**MƏHƏRRƏM MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir**

**Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır**

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 5270**
**Sifariş 3116**

**Qiyməti 40 qəpik**